RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 46 (8362) ŞƏNBƏ, 29 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# "Cənub qaz dəhlizi" Avropanın enerji təhlükəsizliyində strateji amildir

## Bakıda "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin VI toplantısı keçirilib

**Fevralın 28-də Bakıda, Heydər Əliyev Mərkəzində "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin VI toplantısı keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib.

"Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısına hər dəfə Azərbaycan evsahibliyi edir, bu isə ölkəmizin layihədə aparıcı rolunu təsdiqləyən mühüm amillərdən biridir. Dörd seqmentdən - "Şahdəniz Mərhələ-II", Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP qaz boru kəmərlərindən ibarət olan layihə çərçivəsində 2018-ci ilin mayında Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılışı olub. Həmin ilin iyununda isə TANAP qaz boru kəməri istifadəyə verilib, ötən il isə TANAP Avropa sərhədinə çatdırılıb. Beynəlxalq maliyyə qurumlarının, ABŞ, Böyük Britaniya və Avropa İttifaqının dəstək verdiyi bu layihənin sonuncu seqmenti olan TAP-ın inşası isə davam edir. Yeddi ölkənin - Azərbaycan, Gürcüstan, Türkiyə, Albaniya, Yunanıstan, Bolqarıstan və İtaliyanın iştirak etdiyi, uzunluğu 3500 kilometr, ümumi dəyəri isə təxminən 40 milyard dollar olan "Cənub qaz dəhlizi" Avropanın enerji təhlükəsizliyində strateji amildir.

Əvvəlcə toplantının iştirakçıları birgə foto çəkdirdilər.

Azərbaycanın Energetika naziri **Pərviz ŞAHBAZOV** dedi:

- Zati-aliləri cənab Prezident.

İcazə verin, biz - "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin altıncı toplantısının iştirakçıları "Cənub qaz dəhlizi" layihəsinə göstərdiyiniz davamlı dəstəyə görə Sizə dərin minnətdarlığımızı bildirək. Sizin təşəbbüsünüz sayəsində təsis edilmiş Məşvərət Şurası rəhbərliyiniz və tövsiyələriniz əsasında səmərəli və çoxtərəfli əməkdaşlıq formatı kimi illər ötdükcə "Cənub qaz dəhlizi" layihəsinin icrasına mühüm töhfələr vermişdir. Məşvərət Şurasının toplantılarında tərəfinizdən qaldırılan məsələlər, Sizin aydın strateji baxışınız və qətiyyətli mövqeyiniz 2020-ci ilin sonunadək "Cənub qaz dəhlizi"ni tamamlamaq üçün bizim əlaqələndirilmiş işimizdə əsas amillər olaraq qalmağa davam etmişdir.

Cənab Prezident, "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin VI toplantısında açılış nitqi ilə çıxış etmək üçün Sizə söz vermək bizə böyük şərəfdir. Buyurun, söz Sizindir.

Dövlət başçısı toplantıda nitq söylədi.

## Prezident İlham Əliyevin nitqi

- Təşəkkür edirəm.

Hörmətli xanımlar və cənablar, hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. Mən "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin altıncı toplantısında iştirak etmək üçün buraya təşrif buyurmuş bütün qonaqları görməyimə çox şadam. Əvvəla, mən bu gün bizimlə birlikdə bu toplantıda iştirak edən nümayəndələrin hökumətlərinə illik VI toplantıda iştirak etmək məqsədilə yüksəksəviyyəli nümayəndələrini göndərdiyi üçün təşəkkürümü bildirmək istəyirəm.

Bu əməkdaşlıq formatının təşəbbüskarı olaraq Azərbaycan böyük qürur hissi keçirir ki, illər ərzində Məşvərət Şurası nəhəng "Cənub qaz dəhlizi" layihəsinin icrasında bizim səylərimizi gücləndirən çox səmərəli işçi mexanizmə çevrilmişdir. Biz bütün tərəfdaşlarımıza, ilk növbədə, "Cənub qaz dəhlizi"nin üzvləri olan tərəfdaş ölkələrə - Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliyaya minnətdarıq. Bu ölkələr Azərbaycana çox yaxındırlar və mən bu ölkələrin dövlət və hökumət başçıları ilə çoxsaylı görüşlərimi xatırlayıram. Yalnız bu ilin iki ayında Türkiyə, İtaliya və Gürcüstanın dövlət və hökumət başçıları ilə görüşlərim, həmçinin bizim yaxın əməkdaşlığımızı nümayiş etdirir. Üç gün bundan əvvəl Türkiyə Prezidenti bizim qonağımız idi. Biz bu baxımdan nələrə nail olduğumuzu və gələcək planları müzakirə etdik. Bir həftə bundan əvvəl İtaliyaya dövlət səfəri çərçivəsində bu ölkənin Prezidenti və Baş Naziri ilə görüşlərim zamanı biz bu mühüm layihəni müzakirə etdik. Yanvar ayının sonunda Gürcüstanın Baş Naziri ilə keçirdiyim görüş bizə nailiyyətləri nəzərdən keçirməyə və gələcək addımlarımızı planlaşdırmağa imkan yaratmışdır.

*Ardı 2-ci səh.*

## Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident.

Əziz Qardaşım.

Türk əsgərlərinin şəhid olması xəbərini dərin kədər hissi ilə qarşıladım.

Baş vermiş bu hadisə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2020-ci il*

## Azərbaycan-Türkiyə əlaqələrində yeni zirvə

Azərbaycan və Türkiyə tarixi kökləri, taleyi, milli-mənəvi dəyərləri, dövlətçilik maraqları bir-birini tamamlayan, ortaq siyasi-iqtisadi maraqları olan qardaş ölkələrdir.

Görkəmli dövlət xadimi, Ulu Öndər Heydər Əliyevin "tək millət, iki dövlət" kimi atalar sözünə çevrilmiş müdrik kəlamı ölkələrarası münasibətlərin dərin mənasını bütün mahiyyəti ilə ifadə edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlətlərarası münasibətlər prosesində atdığı qətiyyətli addımlar möhkəm təməllərə əsaslanan tarixi qardaşlıq əlaqələrinin daha da inkişaf edərək möhkəmləndirilməsinə uğurla xidmət göstərir. Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın bütün səviyyələrdə Azərbaycanın milli və dövlətçilik maraqlarını dəstəkləməsi qarşılıqlı əlaqələrin yeni mərhələyə doğru inkişaf etdirilməsinə öz töhfəsini vermişdir. Beləliklə, müstəqillik dövründə Azərbaycan-Türkiyə münasibətləri ardıcıl olaraq daim zirvədən-zirvəyə doğru inkişaf etmişdir.

*Ardı 4-cü səh.*

## İlham Əliyevdən Paşinyana növbəti sarsıdıcı zərbə

### Azərbaycan Prezidentinin həqiqətləri Ermənistanın baş nazirini çıxılmaz duruma saldı

**Bu ay dünya siyasi arenasında daha bir yaddaqalan və hələ uzun müddət müzakirə mövzusu olacaq tarixi hadisə yaşandı. Almaniya Federativ Respublikasında baş tutan 56-cı Münxen Təhlükəsizlik Konfransında Azərbaycan Prezidenti İlham Əliyev işğalçı Ermənistanın baş naziri N.Paşinyana bu dəfə beynəlxalq hüquqdan və tarixdən əsl dərs keçdi. Ermənistanın baş naziri Almaniyada İlham Əliyevin həqiqətləri qarşısında aciz vəziyyətdə qaldı.**

Bundan başqa, dövlət başçısı konfrans çərçivəsində iştirak etdiyi toplantılarda Azərbaycanın dünya enerji bazarında çox etibarlı tərəfdaş kimi tanındığını söyləyərək həyata keçirilən beynəlxalq layihələr barədə geniş məlumat verdi, həmçinin beynəlxalq investorları işbirliyinə dəvət etdi.

### 3 prezident, 2 baş nazir, 10 beynəlxalq təşkilat, şirkət rəhbəri ilə görüş

Almaniyada hər il keçirilən Münxen Təhlükəsizlik Konfransı bu gün dünyada aktual məsələlərin həll edildiyi bir məkana çevrilib. Burada daha çox enerji təhlükəsizliyi və ekoloji tarazlığın qorunub saxlanılması məsələləri önə çəkilir.

Azərbaycan Prezidenti bu konfransda müntəzəm və aktiv iştirak edir. Cənab İlham Əliyev bu gün dünyanın enerji sektorunda baş verən hadisələrlə bağlı fikirlərini bölüşür, maraqlı təkliflər irəli sürür. Hazırda neft ixrac edən ölkələrin birliyi kimi OPEK+ formatı məhz Azərbaycan Prezidentinin təklifindən sonra reallaşıb.

56-cı konfransda da dünyanın bir çox nüfuzlu liderləri, dövlət başçıları, təşkilatlar və onların rəhbərləri iştirak etdilər. Konfransın əhəmiyyətli tərəflərindən biri də Prezident İlham Əliyevin ikitərəfli görüşlərinin keçirilməsi oldu.

Cənab İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Moldova Prezidenti İqor Dodon, Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani və Küveyt Dövlətinin Baş Naziri Şeyx Sabah Xalid əl-Həməd əl-Sabah, Ermənistanın baş naziri Nikol Paşinyanla görüşlər keçirdi.

Bununla yanaşı, cənab İlham Əliyev beynəlxalq təşkilat, agentlik və komitə rəhbərləri ilə də danışıqlar apardı.

*Ardı 4-cü səh.*



## Azərbaycan xalçalarının sehri

**Azərbaycan dünyada xalçaçı peşəsini bayram kimi qeyd edən yeganə ölkədir. Bir çox ölkədə bu qədim sənət növü geniş yayılsa da, etiraf edək ki, Azərbaycanda xalçaçılığa daha böyük qayğı ilə yanaşılır, xüsusi rəğbət bəslənilir, onun dirçəlməsi, inkişafı və dünya bazarına çıxışı üçün ciddi addımlar atılır.**

Məlum olduğu kimi, Prezident İlham Əliyevin 5 may 2016-cı il tarixli sərəncamı ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti yaradılmış və bütün ölkədə onlarca xalça sexinin açılmasına başlanılmışdır. 2016-2018-ci illərdə Bakı və Naxçıvan şəhərlərində, Füzuli (Horadiz), Ağdam (Quzanlı), Tovuz, Ağstafa, Qazax, Şəmkir, Quba, İsmayıllı, Xaçmaz, Qəbələ, Abşeron, Lənkəran, Biləsuvar, Kürdəmir, Qobustan, Şabran, Goranboy və Tərtər rayonlarındakı xalça istehsalı emalatxanalarında həm də yüzlərlə iş yeri açılmışdır.

*Ardı 8-ci səh.*

## Ümumi investisiyanın 70,6 faizi məhsul istehsalı sahələrinin inkişafına yönəldilib

**İqtisadiyyatda kapital qoyuluşu həssas məsələdir. Yəni hər bir sahibkar istər ölkədə, istərsə də xaricdə investisiya yatırdıqda mütləq əldə edəcəyi qazancı hesablayır. Onlar sərmayə yatıracağı ölkələri diqqətlə seçir, mövcud qanunvericilik bazasını öyrənirlər.**

Bugünədək ölkəmizin iqtisadiyyatına 170 milyard dollar vəsait yatırılıb. Həmin vəsaitin böyük məbləği xarici investorlara məxsusdur. Bu fakt onu göstərir ki, Azərbaycanda xarici sərmayədarlar üçün münbit investisiya mühiti mövcuddur.

Son statistikaya nəzər salaq: keçən il müxtəlif mənbələrdən Azərbaycan iqtisadiyyatına 13,5 milyard dollar sərmayə qoyulub. Bu sərmayələr xarici investorlara, yerli sahibkarlara və dövlətə məxsusdur. Dünyada mövcud siyasi qarşıdurmalara baxmayaraq, əcnəbi sahibkarların ölkəmizə sərmayə qoyuluşunu davam etdirməsi dövlətimizə olan inamdan irəli gəlir.

Məlumdur ki, müstəqilliyimizin ilk illərində xarici investorlar sərmayəni əsasən neft sektoruna və ya neft sektoru ilə bağlı olan sahələrə yatırırdılar. Lakin Azərbaycan inkişaf etdikcə xarici sahibkarlar qeyri-neft sektoruna da maraq göstərməyə başladılar. Bu gün isə texnoparklarda və sənaye zonalarında yaradılan münbit şərait, tətbiq olunan güzəştlər onları qeyri-neft sektoruna üstünlük verməyə sövq edir.

İndiyədək sənaye zonalarında rezidentlər tərəfindən 6 milyard manata yaxın investisiya yatırılıb və 9 mindən çox iş yeri yaradılıb. Ötən il həmin zonalarda istehsalın ümumi həcmi 2,6 dəfə artıb. Üstəlik, bu məhsullar yüksək keyfiyyətli olduğu üçün dünya bazarına da ixrac edilir. Yaxın gələcəkdə isə verilmiş investisiya təşviqi sənədləri üzrə layihələrin reallaşdırılması yerli istehsala 4 milyard manatdan artıq investisiyanın yatırılmasına, eləcə də 28 minədək yeni iş yerlərinin açılmasına imkan yaradacaq. Qeyd edək ki, ölkənin hərtərəfli inkişafını nəzərdə tutan siyasətə uyğun olaraq bu layihələrin 87 faizi regionlarda icra olunacaq.

Dövlət sahibkarlığı inkişaf etdirmək məqsədilə kapital qoyuluşunda birbaşa iştirak edir. İndiyədək sahibkarlara 2 milyard, o cümlədən ötən il 1573 sahibkarlıq subyektinə 175 milyon manat məbləğində güzəştli kredit verilib. Bunun nəticəsində təkcə keçən il regionlarda fərdi sahibkarlıqla məşğul olanların sayı 12 mindən çox olub.

*Ardı 8-ci səh.*

# “Cənub qaz dəhlizi” Avropanın enerji təhlükəsizliyində strateji amildir

## Prezident İlham Əliyevin nitqi

*Əvvəli 1-ci səh.*



Hesab edirəm, “Cənub qaz dəhlizi” layihəsinin üzv ölkələrindən ibarət bu nadir tərkib onu nümayiş etdirir ki, ümumi amal ölkələri birləşdirə bilər. Əminəm ki, “Cənub qaz dəhlizi” layihəsi tamamlanandan sonra bizim çoxtərəfli əməkdaşlığımız digər sahələrdə davam edəcək.

Mən, həmçinin Birləşmiş Krallıq və Amerika Birləşmiş Ştatları hökumətlərinə Azərbaycanın təşəbbüskarı olduğu layihələrə davamlı dəstək göstərdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Bu proses 1990-cı illərin ortasından başlamışdır. O zaman Azərbaycan öz neft və qaz potensialını xarici investorlar üçün açıq elan etdi. Azərbaycan Xəzər regionunda xarici şirkətlərə sərmayə yatırmaq və Xəzər dənizində neft əməliyyatlarını aparmaq imkanını verən ilk ölkə idi. Ötən 25 ildən artıq müddət ərzində Amerika Birləşmiş Ştatları və Birləşmiş Krallığın hökumətləri Azərbaycanla sıx tərəfdaşlıq edərək Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz xətti və “Cənub qaz dəhlizi” kimi nəhəng layihələrin icrasına böyük töhfələr vermişdir.

Mən tərəfdaş ölkələrimizin yüksəksəviyyəli nümayəndələrini görməyə çox şadam. Mən, həmçinin Avropa Komissiyasına minnətdarlığımı bildirmək istəyirəm. 2011-ci ildə Avropa Komissiyası və Azərbaycan burada - Bakıda “Cənub qaz dəhlizi” layihəsi üzrə Birgə Bəyannamə imzaladılar və bu, faktiki olaraq həmin layihənin icrasının başlanğıc mərhələsi oldu. Həmin bəyannamədə biz açıq-aydın bəyan etdik ki, bu, strateji layihədir və layihənin icrası üçün səylərimizi əsirgəməyəcəyik. Mən 2011-ci ildə Bakıda bu sənədi birgə imzaladığımız Avropa Komissiyasının sabiq prezidenti cənab Barrozuya şəxsi minnətdarlığımı bildirmək istəyirəm. O, Azərbaycana iki dəfə səfər etmişdir. Həmçinin Azərbaycana iki dəfə səfər etmiş və sonuncu dəfə keçən ilin iyulunda təşrif buyurmuş, Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığın gücləndirilməsində çox önəmli rol oynamış Avropa İttifaqı Şurasının sabiq prezidenti cənab Tuska da təşəkkürümü bildirmək istəyirəm. Həmçinin Avropa Komissiyasının sabiq komissarı cənab Ottingerə də çox minnətdar olduğumuzu qeyd etmək istəyirəm. O, bu layihənin icrasına yaxından cəlb edilmiş Avropa İttifaqının ilk komissarı olmuşdur. Həmçinin vitse-prezident Şevçoviçi qeyd etmək istəyirəm, o, indi vitse-prezident vəzifəsində işini davam etdirir, lakin digər sektorlara cəlb olunub. Amma “Cənub qaz dəhlizi” üzərində işləyərkən o, həmişə illik toplantılarda bizimlə birlikdə idi və əməkdaşlığımız konkret nəticələrə gətirib çıxarmışdır. Əlbəttə ki, mən bizə bu layihəni icra etməyə kömək göstərmiş beynəlxalq maliyyə institutlarını da qeyd etmək istəyirəm. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və digər banklar, həmçinin özəl banklar. Onların dəstəyi olmadan layihənin icrası mümkünsüz olardı. Başqa sözlə, biz çox nadir əməkdaşlıq formatını müəyyən etdik. Əlbəttə ki, Azərbaycan layihənin təşəbbüskarı, investoru və ev sahibi olaraq bu təşəbbüsə start verdi. Bu təşəbbüs bizim qonşularımız Türkiyə və Gürcüstan tərəfindən dəstəklənmişdir. Bu ölkələrlə biz əvvəllər enerji resurslarının nəqli və infrastrukturu üzrə mühüm layihələr icra etmişik. Sonra bu təşəbbüs yeni tərəfdaşlar - onlardan üçü Avropa İttifaqının üzvü olan İtaliya, Yunanıstan və Bolqarıstan, həmçinin Albaniya tərəfindən dəstəklənmişdir. Sonra isə yeni və potensial tərəfdaşlar - anlaşma memorandumlarını imzaladığımız ölkələr olan Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro bu təşəbbüsə qoşulmuşdur. Həmçinin bu gün bu masada biz Macarıstan, Rumıniya, Serbiya və Türkmənistanın nümayəndələrini görürük və onların burada iştirakı bu layihəyə maraqlarının olduğunu nümayiş etdirir. Hesab edirəm ki, qarşıdan gələn illərdə biz əməkdaşlığımızı gücləndirəcəyik və ola bilsin, bütün ölkələr arasında daha geniş əməkdaşlıq formatını yaradacağıq və hətta, ola bilsin, burada iştirak etməyən ölkələr gələn ilin fevral ayında bizə qoşulacaq.

Fürsətdən istifadə edərək hamınızı gələn ilin fevralında qonağımız olaraq buraya dəvət etmək istəyirəm. Çünki hesab edirəm ki, TAP-ın tikintisinin tamamlanması bizim komanda işimizin sonu demək deyil. Düşünürəm ki, gələn ilin fevral ayında burada - Bakıda bir çox məsələləri nəzərdən keçirmək lazımdır. Sonra da biz gələcək üçün strategiyamızı hazırlayacağıq. Keçən ilin fevral ayında biz 2018-ci ilin iyununda Türkiyə bazarına çatan TANAP-ın hissəsinin uğurla tamamlanması barədə məlumat verdik. Bu dəfə isə biz qürur hissi ilə artıq Türkiyə-Yunanıstan sərhədinə çatmış TANAP-ın tamamlandığını bildiririk. Bu, bizim meqalayihəmizin icrasında çox mühüm mərhələdir. Bu gün “Cənub qaz dəhlizi” layihəsinin tamamlanması vəziyyətinin çox yüksək olduğu və sizə də yaxşı məlum olduğu kimi, TAP layihəsinin təqribən 92 faiz tamamlandığı bir vaxtda ümid edirəm ki, bu ilin sonuna kimi biz “Cənub qaz dəhlizi” layihəsinin açılışını qeyd edəcəyik.




Əlbəttə, bütün səylərimiz çox konkret nəticələr verdikdən sonra geriyə baxdıqda bizim qarşımızda - Azərbaycanın qarşısında müstəqillik illərimizin əvvəlində hansı çağırışların olduğunu hətta təsəvvürümüzə gətirmək belə çətindir və bir gün, 30 ildən daha az müddətdə ölkənin beynəlxalq tərəfdaşları ilə birlikdə belə böyük uğura nail olacağını və dünya ölkələrini maraqlandıran, dünya miqyasında layihələrin təşəbbüskarı olacağını, tərəfdaşları ilə birlikdə onları uğurla icra edəcəyini təsəvvür etmək mümkün deyildi. Bu layihələrin hər biri - Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, “Azəri-Çıraq-Günəşli”, “Şahdəniz”, digər kəşfiyyat və hasilat layihələri, “Cənub qaz dəhlizi”, - mən, həmçinin Bakı-Tbilisi-Qars kimi nəqliyyat layihəsini də buraya əlavə edərdim, - onların hər biri strateji əhəmiyyətə malikdir. Onların hər biri ölkəmiz və xalqımız, bu layihədə iştirak edən bütün ölkələr üçün dayanıqlı, uğurlu və əminəm ki, çiçəklənən inkişafı təmin edəcəkdir.

Lakin 1991-ci ildə vəziyyət tamamilə fərqli idi. Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan müstəqilliyini bərpa etmişdi. Lakin əfsuslar olsun ki, ölkə öz xalqı üçün normal həyat şəraitini təmin edə bilməmişdir. Tam yoxsulluq var idi, iqtisadiyyat durğunluq vəziyyətində idi. Bir çox mürəkkəbliklərə və böyük itkilərə gətirib çıxaran xaotik bir vəziyyət var idi. 1992-ci ildə vəziyyət daha da pisləşdi. O zaman hərbi çevriliş nəticəsində Xalq Cəbhəsi hakimiyyətə gəldi. Deyərdim ki, o zaman fəlakət vaxtı idi. Çünki birillik hakimiyyət Azərbaycanı uçuruma gətirdi. İqtisadiyyat tamamilə məhv edilmişdi, geniş vüsət almış korrupsiya faktiki olaraq bizim yeni əldə etdiyimiz dövlətçiliyimizi pozan amil idi. İnflyasiyanın səviyyəsi 1000 faizdən artıq idi. Ermənistanın işğalı, 1 milyondan çox qaçqın və məcburi köçkün - hesab edirəm ki, o zaman biz adambaşına düşən qaçqınların sayına görə birinci yerdə idik. Ermənistan qüvvələrinin bizim ərazilərimizin bir hissəsini işğal etdiyi zaman Xalq Cəbhəsi hökuməti vətəndaş müharibəsinə, bu korrupsioner rejim azərbaycanlılar arasında müharibəyə başladı. Əldə edilmiş dövlətçilik yenidən risk altında idi. Azərbaycan xalqı bu antimilli rejimi məhv edəndə və Heydər Əliyevi Bakıya dəvət edəndə müdriklik və cəsarət nümayiş etdirdi. 1993-cü ilin oktyabrından, Heydər Əliyev prezident seçiləndən sonra Azərbaycan sabitlik, inkişaf və tərəqqi yoluna qədəm qoymağa başladı. Beləliklə, həmin vaxtdan bəri ölkəmiz siyasi, iqtisadi və sosial sabitlik vəziyyətində yaşayır. Regionumuzda və dünyadakı vəziyyətə nəzər yetirərkən, biz yeni münaqişələr, yeni qarşıdurmalar görürük. Əfsuslar olsun ki, münaqişələrin sayı artmaqdadır. Hesab edirəm ki, sabit və təhlükəsiz mühitdə yaşayış bizim siyasətimizin əsas nailiyyətlərindən biridir.

Əlbəttə ki, dövləti qurmaq üçün əsas yollardan biri güclü iqtisadiyyatın yaradılması idi və xarici investisiyalar olmadan bu mümkün deyildi. Ona görə də investisiya yatırmaq üçün xarici şirkətləri cəlb etməyimiz çox aydın idi, lakin haraya investisiya yatırılmalı idi? Xarici şirkətlərin maraq göstərə biləcəyi yeganə sahə neft sahəsi idi. Lakin Azərbaycan çox riskli ölkə hesab olunurdu, burada xarici şirkətlərin nümayəndələri özlərini çox narahat hiss edirdilər, onlar üçün hətta qala biləcəkləri normal hotellər mövcud deyildi. Əlbəttə ki, bu vəziyyətdə investisiyaları cəlb etmək asan vəzifə deyildi. Lakin biz bunu edə bildik və 1994-cü ilin sentyabr ayında “Azəri-Çıraq-Günəşli” yataqları üzrə müqavilə Azərbaycan və xarici şirkətlərdən ibarət konsorsium tərəfindən imzalandı. Bu, bizim tərəqqiyə, çiçəklənməyə və inkişafa doğru yolumuzun əvvəli idi.

Ona görə də Azərbaycanın müasir tarixində neft amili həlledici rol oynayıb. Keçmişdə - Azərbaycan müstəqil olmadığı zaman, bildiyiniz kimi, ilk dəfə neft Bakıda çıxarılıb və dünyadakı ilk quyu bəlkə də buradan 10 kilometr məsafədə yerləşir. Lakin xalqımız bundan faydalana bilmirdi. Çünki Azərbaycanın müstəqil olmadığı zamanlarda 1 milyard tondan çox neft hasil edilmişdir. Əgər həmin vaxt Azərbaycan müstəqil olsa idi, biz bu gün dünyada ən varlı və çiçəklənən ölkələrdən biri ola bilərdik. Lakin həmin təbii sərvətlər Azərbaycan xalqının maraqlarına xidmət etmirdi. Yalnız biz müstəqil olduqdan sonra bu, baş verdi. Bu günün Azərbaycanı bunun aydın nümunəsidir. Ona görə də 1994-cü ildə “Əsrin müqaviləsi”nin imzalanması təkcə kommersiya layihəsi deyildi. Bu, bizim üçün həyatda qalmaq layihəsi idi. Bu, bizim üçün dövlətçiliyimizi, iqtisadiyyatımızı gücləndirmək, insanlarımızın daha yaxşı həyatını təmin etmək layihəsi idi. Bunlar hamısı baş verdi. Bizim nümunəmizdə neft lənət deyildi. Neft uğur qazanmaq, güclü ölkə qurmaq, insanlara normal həyat vermək, sabitlik, təhlükəsizlik, qonşularımızla harmoniyada yaşamaq üçün vasitələrdən, ən vacib vasitələrdən biri idi. Bundan sonra Azərbaycana maraq artdı və 1996-cı ildə “Şahdəniz” sazişi imzalandı. Həmin vaxt qaz ölkələrin enerji təhlükəsizliyində o qədər də vacib amil deyildi. Ona görə də “Şahdəniz” sazişinin imzalanması 1994-cü ildə “Azəri-Çıraq-Günəşli” kontraktının imzalanması qədər vacib hesab olunmurdu. Lakin bu günün reallıqları onu göstərir ki, onu vaxtında etmək necə də müdrik addım olub. Daha sonra 1997-ci ildə müqavilədə müəyyən edilmiş ərazidən ilk neft çıxarıldı. Bu baxımdan, düşünürəm ki, bu da rekord idi. Çünki adətən xarici investorlarla müqavilənin imzalanması ilə ilk karbohidrogen ehtiyatlarının çıxarılması arasında vaxt 3 ildən çox olur. Bizdə isə bu, 3 il oldu və bu, bizə imkan verdi ki, bu ölkə, iqtisadiyyatın digər sektorlarına investisiya yatırmağa başlayaq. 2002-ci ildə əsas neft boru kəmərinin tikintisi ilə bağlı qərar artıq həyata keçirilmişdi. Çünki Bakı-Tbilisi-Ceyhan kəmərinin praktiki tikintisi başlamışdı. Bundan əvvəl bizim neftimizi Rusiya, Gürcüstan və Qara dəniz limanlarına çatdıran iki boru kəməri Bakı-Novorossiysk və Bakı-Supsa artıq istifadəyə verilmişdi. Ona görə də Bakı-Tbilisi-Ceyhanın 2006-cı ildə açılışı ölkəmizin inkişafında digər bir mərhələ idi. Çünki ondan sonra biz gəlirlər əldə etməyə, infrastruktura və insan kapitalına investisiya yatırmağa başladıq. 2007-ci ildə isə Azərbaycan ilk dəfə beynəlxalq qaz ixracatçısına çevrildi, Bakı-Tbilisi-Ərzurum qaz boru xətti açıldı. Biz hesab edirik ki, planlaşdırdıqlarımızın əksəriyyəti uğurla yerinə yetirildi. Lakin qarşımızda yeni çağırışlar var idi. Biz “Şahdəniz”in, “Şahdəniz-2” layihəsinin tam miqyasda işlənilməsinə başlamalı idik. Əsas qaz boru xətti sistemi olmadan bu, imkansız idi. Ona görə də konsorsium tərəfdaşlarla razılığa gəlmək, yekun investisiya qərarı vermək üçün bizi gözləyirdi və biz buna nail olduq. 2012-ci ildə Azərbaycan və Türkiyə Trans-Anadolu boru kəmərinin - TANAP-ın tikintisi ilə bağlı müqavilə imzaladı. Bundan əvvəl qeyd etdiyim kimi, biz 2011-ci ildə Avropa Komissiyası ilə birgə bəyannamə imzaladıq. Bundan sonra beynəlxalq konsorsium “Şahdəniz-2” ilə bağlı yekun investisiya qərarını verdi və uğurla aparılmış tikintiyə praktiki olaraq start verildi. 2018-ci ildə biz artıq Bakıda - Səngəçal terminalında “Cənub qaz dəhlizi”nin rəsmi açılışını etdik və iyunda TANAP-la qaz Türkiyə bazarına çatdı. Artıq dediyim kimi, ötən ilin noyabrında TANAP Avropa sərhədlərinə çatdı. TAP-ın icrası artıq 92 faiz tamamlanıb. Beləliklə, bu, bizim hamımızın uğur hekayəsidir.

Düşünürəm ki, Məşvərət Şurası bu layihənin həyata keçirilməsində çox vacib rol oynayıb. Çünki biz hər il təkcə Bakıda görüşmürük. İl ərzində çoxsaylı görüşlər, məsləhətləşmələr keçirilir və layihəni irəliyə aparmaq üçün vacib qərarlar verilir. Azərbaycan bu müddət ərzində həm də etibarlı tranzit ölkəyə çevrildi. Təkcə təchizatçı deyil, həm də tranzit ölkəyə çevrildi. Xəzərin şərq sahillərində yerləşən ölkələr beynəlxalq bazarlara öz karbohidrogen ehtiyatlarını Azərbaycan ərazisindən nəql edirlər. Həmçinin Rusiya şirkətləri tərəfindən bu ölkənin Xəzər dənizi sektorundan çıxarılan neft bizim sistemimiz - Bakı-Tbilisi-Ceyhan vasitəsilə beynəlxalq bazarlara nəql edilir. Beləliklə, biz artıq tranzit ölkəyik. Tranzit ölkə kimi rolumuz əminəm ki, artacaq. Bu, həmçinin Azərbaycanın nəqliyyat sektorunun sürətli inkişafını stimullaşdırmışdır. Bu gün bu sektor çox müasir və səmərəlidir, Avrasiya nəqliyyat qovşağı kimi mövqelərimizi gücləndirməyə kömək edəcək. Xəzərdəki ən böyük donanma bizə məxsusdur, 200-dən çox gəmimiz var. Hazırda həm bizim, həm də konsorsium üçün zəruri gəmilər istehsal edən çox müasir gəmiqayırma zavodumuz var. Biz 6 beynəlxalq hava limanı tikmişik. Onlardan biri - Heydər Əliyev Beynəlxalq Aeroportu 5 ulduza layiq görülmüş hava limanıdır. Bu, dünyadakı beşulduzlu 10 hava limanından biridir. Biz dəmir yolu sistemimizi müasirləşdirmişik və bu proses davam etməkdədir. Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsinə əsasən, Azərbaycan dəmir yollarının səmərəliliyinə görə dünyada 12-ci yerdədir. Azərbaycan hava yollarının səmərəliliyinə görə dünyada 11-ci yerdədir. Yolların keyfiyyətinə görə biz dünyada 27-ci yerdəyik. İnfrastrukturun keyfiyyətinə görə isə 34-cü yerdəyik. Beləliklə, nəqliyyat sektorunun inkişafı çox sürətli olub.

Hazırda Azərbaycan “Şərq-Qərb”, “Şimal-Cənub” nəqliyyat dəhlizlərinin yaradılmasında iştirak edən və fəal investisiya yatıran yeganə ölkədir. Əslində, bu gün biz artıq ölkəmizdən keçən “Şimal-Qərb” nəqliyyat dəhlizi və hələ ki, istismara verilməyən, lakin potensialı olan “Cənub-Qərb” nəqliyyat dəhlizi barədə danışırıq. Həmçinin demək istərdim ki, “Azəri-Çıraq-Günəşli” və “Şahdəniz” Azərbaycanın yeganə böyük sərvəti deyil. Baxmayaraq ki, onlar həqiqətən də böyük sərvətdir. Çünki Azərbaycanın və BP-nin müqavilənin müddətinin 2024-cü ildən 2050-ci ilə qədər uzadılması ilə bağlı müqaviləni imzalaması faktı onu göstərir ki, “Azəri-Çıraq-Günəşli”nin potensialı həqiqətən də böyükdür. Əgər əvvəllər yatağın neft potensialını 500 milyon ton ehtimal edirdiksə, hazırda bu, 1 milyard tondan qat-qat çoxdur. Əminəm, yeni texnologiyalar imkan verəcək ki, biz daha çox neft hasil edə bilək.

Bizim təsdiqlənmiş qaz ehtiyatlarımız 2,6 trilyon kubmetrdir. Proqnozlaşdırılan ehtiyatlar 3 trilyon kubmetr civarındadır. Ona görə də Azərbaycan 100 ildən çox müddət üçün karbohidrogen ehtiyatlarının etibarlı təchizatçısı olacaq. Bu gün ənənəvi tərəfdaşlarımızla, - “Şahdəniz”, “Azəri-Çıraq-Günəşli” konsorsiumlarına rəhbərlik edən və strateji tərəfdaşımız olan BP ilə “D 2030” adlandırılan layihə üzərində çalışırıq. Bu, 2018-ci ildə qüvvəyə minib. BP ilə birlikdə biz “Şəfəq- Asiman” qaz yatağı üzərində çalışırıq və ilk quyu çox tezliklə qazılmalıdır. Biz BP ilə, həmçinin “Dayazsulu” adlandırılan layihə üzərində çalışırıq. Bu layihənin aşkar edilməyən yataqlar baxımından böyük potensialı var, çünki o, sahilə çox yaxın yerləşir və bizim ənənəvi hasilatımız dənizdə aparılırdı. Gələn il biz “Total”la 300 milyard kubmetr qaz potensialı olan “Abşeron” yatağından qaz hasilatına başlayacağıq. SOCAR fəal şəkildə “Ümid-Babək” yatağının işlənilməsi ilə məşğuldur. Hazırda “Ümid” yatağının gündəlik hasilatı 3 milyon kubmetr qazdır. Bu yatağın potensialı 200 milyard kubmetrdən çoxdur. “Equinor”la birlikdə biz “Qarabağ yatağı” üzərində çalışırıq. Mənə verilən məlumata görə, kəşfiyyat quyusu çox tezliklə qazılmalıdır. Beləliklə, bunların hamısı Azərbaycanın gələcək potensialının göstəricisidir. Üstəgəl, “Azəri-Çıraq-Günəşli”də böyük həcmdə dərin qaz yataqları var və SOCAR ilə BP arasında bu istiqamətdə danışıqlar çox uğurla gedir. Ümid edirəm ki, tezliklə biz razılığa gələ biləcəyik. Beləliklə, bunlar hamısı, beynəlxalq bazarlarda iştirakımızın genişləndirilməsi, şaxələnmiş üsullarla karbohidrogen ehtiyatlarımızın ixracı və xalqımız üçün daha yaxşı şəraitin yaradılmasından ibarət olan strateji məqsədlərimizin həyata keçirilməsinə töhfə verəcək. Bu, bizim məqsədimizdir və dövlətçiliyimizin gücləndirilməsidir.

Biz, həmçinin sərvətlərin ədalətli bölgüsü üzərində fəal işləyirdik. Çünki neft hasil edən bir sıra ölkələrdə varlı və yoxsullar arasındakı fərq çox yüksəkdir. Ona görə də bizim əsas məqsədimiz dediyimiz kimi, nefti - “qara qızıl”ı insan kapitalına çevirmək olub. Son 16 ildə Azərbaycanda yoxsulluq səviyyəsinin təxminən 50 faizdən 4,8 faizə düşməsi faktı onu göstərir ki, iqtisadi inkişaf və neft-qaz layihələri insanlara daha yaxşı həyat sürməyə kömək edib. Bu müddət ərzində bizim iqtisadiyyatımız 3,4 dəfə artıb. Bu, dünya rekordudur. Son 16 ildə xarici ticarətimiz 6,4 dəfə artıb. Bizim birbaşa xarici borcumuz ümumi daxili məhsulun yalnız 17 faizini təşkil edir. Sərbəst konvertasiya olunan valyuta ehtiyatlarımız xarici borcdan 6 dəfə çoxdur. Başqa sözlə, biz xarici borcu istədiyimiz vaxt bağlaya bilərik.

Beləliklə, bunlar əsas iqtisadi məlumatlardır. Sonda onu əlavə etmək istərdim ki, Dünya Bankı “Doing Business” hesabatında Azərbaycanı ən islahatçı 20 ölkədən biri hesab edir. Bu ilin yanvarında Azərbaycan ilə Davos Dünya İqtisadi Forumu arasında Bakıda “Davos Dördüncü Sənaye İnqilabı Mərkəzinin yaradılması haqqında niyyət protokolu” imzalandı. Bu, Qafqaz və Mərkəzi Asiyanı əhatə edəcək regional mərkəzdir. Azərbaycan ona görə seçildi ki, çünki bizim sənayemiz, qeyri-neft sənayemiz sürətlə inkişaf edir. Təkcə ötən il qeyri-neft sənayesində inkişaf təxminən 14-15 faiz idi. Bu il ümid edirik ki, artım daha çox və ya eyni səviyyədə olacaq.

Əlbəttə, neft və qaz layihələrindən danışarkən biz həmişə enerji təhlükəsizliyindən danışırıq. Azərbaycan özü və qonşuları üçün enerji təhlükəsizliyini təmin edən ölkədir. Enerji resurslarının şaxələndirilməsi ən vacib məsələlərdən biridir. Burada, əlbəttə, mənbələrin şaxələndirilməsi ən vacib məsələdir. Bizim nümunəmizdə isə mənbələrin və marşrutların şaxələndirilməsindən söhbət gedir. Həmçinin düşünürəm ki, bizim uğurumuzun əsas səbəblərindən biri maraqların balansıdır - hasilatçılar, tranzit ölkələr və istehlakçılar arasındakı balans. Əminəm ki, aramızdakı bu müsbət əməkdaşlıq formatı davam edəcək. Məşvərət Şurasına uğurlar arzu edirəm. Çox sağ olun.

❖ ❖ ❖

Azərbaycanın Energetika naziri **Pərviz ŞAHBAZOV** dedi:

- Cənab Prezident, icazə verin, Məşvərət Şurasının üzvləri adından ətraflı və məzmunlu nitqinizə görə bir daha Sizə dərin minnətdarlığımızı bildirək. İndi mən çıxış üçün sözü Avropa Komissiyasının nümayəndəsi, Avropa Komissiyasının Enerji Məsələləri üzrə Baş Direktorluğunun baş direktorunun müavini, doktor Klaus-Diter Borxardta vermək istərdim.

❖ ❖ ❖

### Avropa Komissiyasının nümayəndəsi Klaus-Diter Borxardtın çıxışı

- Çox sağ olun. Hörmətli Prezident Əliyev, nazir Şahbazov, nazir Petkova, nazir Tunova, nazir Ançiç, nazir müavinləri, zati-aliləri, xanımlar və cənablar.

Bu çox mühüm toplantıda - Məşvərət Şurası çərçivəsində nazirlərin VI iclasında Avropa İttifaqı adından çıxış etmək mənim üçün şərəf və böyük məmnuniyyətdir. Bilirəm ki, hamınız burada aranızda enerji məsələləri üzrə yeni komissar xanım Simsonu görəcəyinizi gözləyirdiniz. Təəssüf ki, o, Avropa Komissiyası və Afrika İttifaqı arasında keçirilən kollegiyalararası görüşə görə Əddis-Əbəbədə qalmağa məcbur olmuşdur. O, buraya gəlməyi çatdıra bilmədi. Lakin o, sizin hamınıza ən səmimi salamlarını göndərir və həmçinin məndən xahiş etdi sizə çatdırım ki, onun “Cənub qaz dəhlizi”nə sadiqliyi sələflərininki qədər güclüdür. Mənim fikrimcə, Məşvərət Şurasının bu VI toplantısı tamamilə özəl bir iclasdır. Çünki bir tərəfdən bizim qeyd ediləsi işlərimiz var və Prezident Əliyevin “Cənub qaz dəhlizi”nin böyük mərhələləri ilə bağlı bizə verdiyi məlumatdan görə bilərsiniz ki, bütün bunlara 2011-ci ildə start verilib. Biz indi, sadəcə, 2020-ci ildəyik və buna nail olunması özlüyündə tamamilə inanılmazdır. Düşünürəm ki, “Şahdəniz-2” yatağından hasil edilən qazın ilin sonunadək Avropa İttifaqına - İtaliyaya qədər nəqli ilə bağlı sadə fakt bizim hamımız üçün fantastik nailiyyət olacaq. Prezident Əliyevin indicə qeyd etdiyi kimi, Avropa İttifaqı üçün əlbəttə ki, bu layihə həyati əhəmiyyət kəsb edir. Çünki bu, bizim enerji təhlükəsizliyimizi gücləndirir, həmçinin bizim şaxələndirmə strategiyamızın bir hissəsidir, yeni mənbədir və eləcə də daha mühümü olan Avropa bazarına yeni marşrutdur. Burada mən bütün bu illər ərzində bu layihələrə göstərdiyi idarəçiliyə və rəhbərliyə görə Prezident Əliyevə və onun hökumətinə təşəkkürümü bildirmək istərdim. Əlbəttə ki, mən eynilə tərəfdaş ölkələri - Türkiyə, Gürcüstan, Albaniya, Yunanıstan, İtaliya və Bolqarıstanı qeyd etmək istərdim. Mən, həmçinin Amerika Birləşmiş Ştatlarını da unutmaq istəmirəm.

Prezidentin qeyd etdiyi kimi, siz hər zaman çox dəstək vermisiniz. Hər bir tərəfin bu layihə ilə bağlı baxışları və konkret səylər olmasaydı, bu layihə heç vaxt həyata keçməzdi. Sonuncu, lakin heç də az əhəmiyyət kəsb etməyən məsələ ondan ibarətdir ki, şirkətlər, kreditorlar olmasaydı, bu, mümkün ola bilməzdi.

*Ardı 3-cü səh.*

# “Cənub qaz dəhlizi” Avropanın enerji təhlükəsizliyində strateji amildir




*Əvvəli 2-ci səh.*

Ona görə də bunun baş verməsi üçün mənim çox sıx, mükəmməl şəkildə birgə çalışdığım şirkətlərə də böyük təşəkkür edirəm.

Beləliklə, bizim bu toplantıda nailiyyətlərimizi qeyd etmək üçün bütün səbəblərimiz var. Lakin biz həm də fürsətdən istifadə edib bir qədər gələcəyə baxmalıyıq, mən toplantımızın bir məqsədini də bunda görürəm. Bundan sonra nə olacaq? Bu məqamda mən, ilk növbədə, istərdim “Cənub qaz dəhlizi”ni necə genişləndirə biləcəyimizə nəzər salaq. Çünki bu elə gözəl layihədir ki, siz onu, sadəcə, 10 milyard kubmetr üçün istifadə edə bilməzsiniz. Beləliklə, ilk sual belədir: Bizim yeni istiqamətlərimiz varmı? Bəli, bizim yeni istiqamətlərimiz var. Qərbi Balkan ölkələri var. Onlardan bəzilərinin nümayəndələri buradadır.

Digər Avropa ölkələrinin - Macarıstanın, Rumıniyanın marağı var və başqaları da olacaq. Beləliklə, istiqamət aydındır və imkan var. Sual yaranır: Qazı haradan əldə edək? Bu məqamda, Prezident Əliyev, Sizin son kəşfiyyatlarla bağlı dedikləriniz çox ümidvericidir. Əgər bütün bunlar həyata keçsə, onda düşünürəm ki, bizim “Cənub qaz dəhlizi”ni 10 milyard kubmetrdən 20 milyard kubmetrədək və daha çox genişləndirmək üçün artıq çox yaxşı imkanımız var, çünki bu dəhlizin imkanı, texniki imkanı artıq mövcuddur.

İkincisi, mən bunu da qeyd etmək istəyirəm. Yəqin eşitmisiniz ki, - mən onu leytmotiv adlandırardım, - yeni komissiya Avropa üçün yeni yaşıl pakt işləyib hazırlayıb. İcazə verin, ondan başlayım ki, Avropa yaşıl paktı “Cənub qaz dəhlizi”nin inkişafı və ya hətta genişlənməsinə zidd deyil. Avropa yaşıl paktı qazı bizim gələcək enerji sistemimizin əsas komponentlərindən biri kimi ehtiva edir. Siz neytral emissiyalı iqtisadiyyatı yalnız o halda inkişaf etdirə bilərsiniz ki, onu keçidin iqtisadi səmərəliliyini təmin etmək üçün təsirin ciddi qiymətləndirilməsinə əsaslandırasınız. Bizim indiyədək apardığımız müşahidələr və təhlillər tamamilə aydın şəkildə göstərir ki, bu keçid qazı ehtiva etməklə həyata keçirilməlidir. Hələ bir müddət bu, bizim ən yaxşı tanıdığımız qaz - təbii qaz olacaq. Lakin daha uzunmüddətli perspektivdə bu təbii qaz da neytral emissiyalı qaza çevrilməlidir. O, karbohidrogensiz olmalıdır. Bu, bizim hamımızın - qazı bizim gələcək enerji sistemimizin komponentlərindən biri kimi saxlamaqda maraqlı olanların və Avropa İttifaqının Paris sazişi çərçivəsində üzərinə götürdüyü öhdəliklərə həqiqətən əməl etməsini istəyənlərin qarşılaşa biləcəyi bir çağırışdır. Avropa İttifaqı bu mənada əməkdaşlıq üçün açıqdır. Biz Avropa yaşıl paktını qonşu ölkələrdən təcrid olunmuş şəkildə həyata keçirmək istəmirik. Biz uzunmüddətli perspektivdə təbii qazı dekarbonlaşdırmaq və iqlim dəyişikliyi ilə mübarizədən ibarət olan həllin bir hissəsinə çevirmək üçün tələb olunan texnologiyaların inkişafı sahəsində gələcək əməkdaşlığı səbirsizliklə gözləyirik. Beləliklə, ümumilikdə, əməkdaşlıq, eləcə də “Cənub qaz dəhlizi” ilə bağlı gələcək əməkdaşlıq “Cənub qaz dəhlizi”nin bizim hamımızın qürur duyduğu **layihə** olaraq qalmasını təmin etmək baxımından həyati əhəmiyyət kəsb edir. Təşəkkür edirəm.

Azərbaycanın Energetika naziri **Pərviz ŞAHBAZOV:** Doktor Borxardt, çıxışınıza görə Sizə təşəkkür edirik. Mən bir daha bu səhər bizimlə birlikdə olduğuna görə Prezident Əliyevə minnətdarlığımızı bildirmək istərdim.

❖ ❖ ❖

Toplantı işini panel sessiyalarla davam etdirib.

# Bakıda Heydər Əliyev prospekti ilə Zəki Məmmədov küçəsinin kəsişməsindəki yeraltı piyada keçidinin açılışı olub

## Prezident İlham Əliyev açılışda iştirak edib









**Fevralın 28-də Bakı şəhərində Heydər Əliyev prospekti ilə Zəki Məmmədov küçəsinin kəsişməsindəki yeraltı piyada keçidinin açılışı olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər barədə dövlət başçısına məlumat verdi.

Bildirildi ki, Heydər Əliyev prospekti ilə Zəki Məmmədov küçəsinin kəsişməsi avtomobillərin və piyadaların daha sıx olduğu ərazilərdən biridir. Məhz bu baxımdan da keçidin inşası böyük önəm daşıyır. Yeraltı piyada keçidinin tikintisinə 2018-ci ilin noyabr ayında başlanılıb. Keçidin tikintisi qapalı qazma üsulu ilə aparılıb. Bu səbəbdən tikinti işləri Heydər Əliyev prospektində nəqliyyat vasitələrinin hərəkətinə heç bir maneə yaratmayıb. Qapalı qazma üsulu ilə yeraltı piyada keçidinin tikintisi Bakıda ilk dəfə burada tətbiq olunub. Piyada keçidinin ümumi uzunluğu 98, eni isə 5 metrdir. Burada müasir işıqlandırma və videomüşahidə sistemi qurulub. Keçid Heydər Əliyev prospektinin bu hissəsində nəqliyyatın hərəkətinin tənzimlənməsi, avtomobil tıxaclarının qarşısının alınması, qəza hallarının aradan qaldırılması və piyadaların hərəkətinin təhlükəsizliyinin təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Keçiddən istifadə hərəkətin intensiv olduğu ərazidə yol hərəkəti qaydalarının pozulması hallarını aradan qaldıracaq.

Prezident İlham Əliyev yeraltı piyada keçidinin rəmzi açılışını bildirən lenti kəsdi.

Qeyd edək ki, son illərdə paytaxtda və regionlarda avtomobil yollarında hərəkətin təhlükəsizliyini və vətəndaşların avtomobil yollarını rahat və təhlükəsiz şəkildə keçməsini təmin etmək məqsədilə Prezident İlham Əliyevin tapşırıq və sərəncamları ilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən kompleks tədbirlər, o cümlədən yerüstü və yeraltı piyada keçidlərinin tikintisi işləri davam etdirilir. Bu çərçivədə həyata keçirilən məqsədyönlü tədbirlərin məntiqi nəticəsi olaraq yol-nəqliyyat kompleksinin ayrı-ayrı qurğuları yüksək keyfiyyətlə istismara buraxılır. Yeni yol qovşaqlarının, körpülərin, yeraltı və yerüstü keçidlərin inşası Bakıda tıxac probleminin aradan qaldırmasına və əhalinin təhlükəsizliyinin təmin edilməsinə yönəldilib. Bu, həm də onu deməyə əsas verir ki, vətəndaşların rahatlığının təmin edilməsi, insanların sosial həyat şəraitinin daha da yaxşılaşdırılması, ölkəmizdə yol-nəqliyyat infrastrukturunun yüksək standartlara uyğun şəkildə yenidən qurulması Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Bu baxımdan, paytaxtda və ayrı-ayrı regionlarda genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir, şəhər və qəsəbələrdə abadlıq və quruculuq tədbirləri davamlı şəkildə icra olunur. Bu çərçivədə 2018-2019-cu illərdə Bakı və şəhərətrafı yollarda, həmçinin magistrallarda 7 yerüstü və yeraltı piyada keçidi inşa edilərək istifadəyə verilib. Hazırda 8 ərazidə yerüstü və yeraltı piyada keçidinin inşası aparılır ki, bunlardan bir neçəsində işlər bitmək üzrədir. Qısa müddət ərzində daha 6 yerdə yeni keçidlərin inşasına başlanılması nəzərdə tutulub.

# “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 46; 2018, № 7 (I kitab), maddə 1492; 2019, № 3, maddə 414, № 7, maddə 1247, № 10, maddələr 1580, 1592) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin strukturu”nda və “Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin sisteminə işə götürülən işçilərin ştat sayının həddi”ndə dəyişiklik təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2020-ci il*

# Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2002-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1985-2001-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2020-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2020-ci il aprelin 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2020-ci il*

# Əziz Mirəhmədovun 100 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2020-ci ildə Azərbaycan ədəbiyyatşünaslığının görkəmli nümayəndəsi, tanınmış tənqidçi və mətnşünas alim, Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Əziz Mirfeyzulla oğlu Mirəhmədovun anadan olmasının 100 illiyi tamam olur.

Professor Əziz Mirəhmədov ömrünün altmış ilini ədəbiyyat tariximizin xüsusən XIX əsri və XX əsrin əvvəllərini əhatə edən dövrünün sistemli tədqiqinə həsr etmiş, sanballı araşdırmaları ilə milli ədəbiyyatşünaslıq elmini zənginləşdirmişdir. Alimin Mirzə Fətəli Axundzadə, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə və Məhəmməd Hadi kimi qüdrətli ədəbi şəxsiyyətlər haqqında ictimai fikir cərəyanları ilə bədii fikrin əlaqələrini vəhdətdə götürən fundamental əsərləri ədəbiyyatşünaslığımızın nailiyyətləri sırasında özünəməxsus yer tutur. Əziz Mirəhmədovun Azərbaycan romantizminin estetik prinsiplərinə dair ümumiləşdirici mülahizələri bu istiqamətdə sonrakı tədqiqatlar üçün elmi-metodoloji baza rolu oynamışdır.

Ölkəmizdə ədəbiyyatşünaslıq ensiklopediyasının əsas yaradıcılarından olan Əziz Mirəhmədov, eyni zamanda, mətbuat tariximizin öyrənilməsində əhəmiyyətli işlər görmüşdür. “Əkinçi” qəzetinin və “Molla Nəsrəddin” jurnalının yeni əlifba ilə nəşr edilərək geniş oxucu auditoriyasına çatdırılması alimin mətnşünaslıq sahəsində təqdirəlayiq fəaliyyətinin nəticələrindəndir. Əziz Mirəhmədov yüksəkixtisaslı elmi kadrlar hazırlanmasına böyük əmək sərf etmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafında mühüm xidmətlərini nəzərə alaraq görkəmli alim Əziz Mirəhmədovun anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Əməkdar elm xadimi Əziz Mirəhmədovun 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2020-ci il*

# Azərbaycan-Türkiyə əlaqələrində yeni zirvə

*Əvvəli 1-ci səh.*

Ölkələrimiz və xalqlarımız arasındakı əlaqələrin inkişafında Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası münasibətlərin salnaməsinə yeni və parlaq səhifələr əlavə etmişdir. Əvvəla, Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasında müxtəlif sahələri əhatə edən və mühüm strateji əhəmiyyətə malik olan 14 sənədin imzalanması demək olar ki, inkişafda olan siyasi-iqtisadi proseslərin daha da irəliyə aparılmasına böyük təkan vermişdir. Bundan başqa, ilk dəfə olaraq bir neçə yeni istiqamətdə mühüm strateji əhəmiyyətə malik addımların atılması əlaqələrimizin inkişafında yeni üfüqlərin açılmasına səbəb olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mətbuata bəyanatında dediyi kimi, Azərbaycan-Türkiyə rəhbərlərinin hər bir görüşü böyük məna daşıyır: "Hər bir görüşdən sonra Türkiyə-Azərbaycan əlaqələrinə yeni təkan verilir və bu əlaqələr bu gün ən yüksək zirvədədir". Türkiyə Cümhuriyyətinin Prezidenti də ölkələrarası münasibətlərdə bütün sahələrdə həmrəylik və inkişafın ən yüksək səviyyədə davam etdiyini əminliklə bildirmişdir. Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Dağlıq Qarabağ məsələsində Azərbaycanda dövlət başçısının "Dağlıq Qarabağ Azərbaycanındır nida" formatında ifadə etdiyi bəyanatına qardaş ölkənin də imzasının qoyduğunu bildirməsi qarşılıqlı həmrəyliyin konkret təzahürüdür.

"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında təhlükəsizlik üzrə əməkdaşlıq haqqında Saziş"ə əlavə Protokol"un imzalanması Azərbaycanla Türkiyə arasındakı strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsinə dövlətlərin verdiyi xüsusi önəmin daha bir əməli ifadəsidir. Eyni zamanda, gənclər və idman sahəsində, televiziya və "ASAN xidmət" qurumlarında, energetika və mühəndislik istiqamətlərində, hərbi-maliyyə əməkdaşlığı, qarşılıqlı vizadan azadetmə məsələlərinə dair imzalanmış sənədlər hər iki ölkədə əməkdaşlığın genişləndirilməsində mühüm rol oynayacaqdır. Bundan başqa, ticarət dövriyyəsinin 4 milyarddan 15 milyarda çatdırılması haqqında əldə edilmiş razılaşma iqtisadi sahədə işbirliyinin böyük sürətlə inkişaf etdirilməsinə təkan verəcəkdir.

Fikrimcə, "Qars-İqdır-Aralıq-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti layihəsi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclasının ən mühüm hadisəsidir. İndiyədək hər iki ölkədə dövlət rəsmiləri tərəfindən bu barədə səsləndirilən bəyanatlar məsələnin əhəmiyyətinə verilən qiymətin ifadəsi olmuşdur. Lakin Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclasında imzalanmış memorandum mühüm strateji əhəmiyyətə malik olan bu layihənin reallaşdırılması sahəsində dövlətlərin konkret mövqeyini meydana qoymuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Qars-Naxçıvan dəmir yolu xəttinin çəkilməsinin strateji əhəmiyyətini nəzərə alaraq bu mühüm işi "xüsusi əhəmiyyət daşıyan məsələ" adlandırmışdır: "Çünki Ermənistanın işğalçı siyasətinə görə, Naxçıvan uzun illərdir, demək olar ki, blokada, yəni müharibə şəraitində yaşayır. Naxçıvanda istehsal olunan məhsulların xarici bazarlara çıxarılması böyük problemdir. Qars-İqdır-Naxçıvan dəmir yolunun tikintisi bu problemi aradan qaldıracaq və beləliklə, Azərbaycanla Türkiyə arasında yeganə quru sərhəd olan Naxçıvan Muxtar Respublikasının inkişafı, rifah halı daha da yaxşılaşacaqdır".



Həqiqətən də Qars-İqdır-Naxçıvan dəmir yolu xəttinin çəkilməsi ilə uzun illərdən bəri çətin blokada şəraitində yaşamağa məcbur edilmiş Naxçıvan Muxtar Respublikasında böyük potensiala malik olan meyvə-tərəvəz, duz, mineral su kimi məhsulların dünya bazarlarına çıxarılmasına geniş imkanlar açılacaqdır. Bu da öz növbəsində regionda həmin sahələrin inkişafına böyük təkan verəcəkdir. Bundan başqa, Qars-İqdır-Naxçıvan dəmir yolu xəttinin çəkilməsi iqtisadi səmərəsindən əlavə, həm də siyasi əhəmiyyətə malik hadisədir. Bu dəmir yolu xəttinin çəkilməsi Naxçıvanın blokadadan çıxarılması baxımından da əhəmiyyətli addımdır. Ermənistanla sərhəddə yerləşən Naxçıvanın mövqelərinin inkişaf etdirilib möhkəmləndirilməsinə xidmət edən bu layihə hərbi cəhətdən də əlverişli addımdır. Regionda sülh və təhlükəsizliyin təmin edilməsinə böyük təminat vermiş 1921-ci ilin Beynəlxalq Qars müqaviləsinin müddəalarının həyata keçirilməsi baxımından da ölkələrarası dəmir yolunun salınmasının böyük əhəmiyyəti vardır. Nəhayət, Qars-İqdır-Naxçıvan dəmir yolu xəttinin çəkilməsi regionda təcavüzkarlıq niyyətlərindən əl çəkmək istəməyən bədnam Ermənistana da cavabın ifadəsinə çevriləcəkdir. Ən nəhayət, həm Türkiyənin Qars-İqdır bölgəsinə, həm də Naxçıvan Muxtar Respublikasına turist axınının təmin edilməsinə Qars-İqdır-Naxçıvan dəmir yolu xətti mühüm töhfələr verəcəkdir.

Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasında imzalanan sənəddə dəmir yolu xəttinin Qars-İqdırdan Sədərəyə və Naxçıvan-Culfaya qədər çəkilməsinin nəzərdə tutulması da mühüm əhəmiyyətə malikdir. Fikrimizcə, bu yolla ümumiyyətlə Bakı-Tbilisi-Qars dəmir yolu yeni bir magistral qazanmış olacaqdır. Belə ki, Qars-İqdır dəmir yolunun Sədərək-Naxçıvandan keçərək Culfaya çatdırılması Bakı-Tbilisi-Qars dəmir yolunun Culfa vasitəsilə İran İslam Respublikasının dəmir yoluna, Təbriz-Qəzvin-Məşhəd magistralına birləşdirilməsinə şərait yaradacaqdır. Beləliklə, Bakı-Tbilisi-Qars dəmir yolunun Asiyaya doğru yeni bir istiqaməti meydana çıxacaqdır. Avropa ilə Asiyanı əlaqələndirməkdə böyük imkanlara malik olan Bakı-Tbilisi-Qars dəmir yolu İqdır-Naxçıvan-Culfa xətti vasitəsilə İran İslam Respublikası üzərindən keçməklə Şərqə - Orta Asiyaya, oradan da Çin Xalq Respublikasına doğru yeni bir marşrut qazana biləcəkdir. Əksinə, Təbriz-Culfa-Naxçıvan-İqdır-Qars xətti ilə Bakı-Tbilisi-Qars dəmir yolunun Asiyadan Avropaya doğru daha qısa məsafəli bir imkan əldə etmək imkanları yaranacaqdır. Nəticədə Naxçıvanın inkişaf etdirilməsinə xidmət edəcək yeni dəmir yolu xətti region dövlətləri üçün də faydalı olacaqdır. Bu da Azərbaycan-Türkiyə strateji əməkdaşlığının dünya birliyi, region ölkələri üçün də faydalı olduğunu nümayiş etdirir.

Naxçıvan Muxtar Respublikasının ixrac potensialının genişləndirilməsi ilə əlaqədar razılaşma da Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu regionun inkişafı üçün əlavə imkanların yaradılması deməkdir. Bundan başqa, Türkiyənin İqdır bölgəsindən Naxçıvana qaz çəkilişi layihəsinə start verilməsi də Naxçıvanın sosial-iqtisadi inkişafında xüsusi əhəmiyyət kəsb edən hadisədir.

Ümumiyyətlə, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclasında müzakirə üçün məsələlər, imzalanmış sənədlər, əldə edilmiş razılaşmalar və qəbul edilmiş qərarlar ölkələrarası münasibətlərin inkişafında yeni zirvələrin fəth olunması deməkdir. Bu hadisə Azərbaycan-Türkiyə əlaqələrinin dünya dövlətləri üçün nümunə olduğunu bir daha nümayiş etdirir. Strateji Əməkdaşlıq Şurasının qərarları Azərbaycan-Türkiyə qardaşlığı və əməkdaşlığının daim inkişaf etməkdə olduğunu, hər iki ölkənin inkişafı üçün fayda verdiyini, regionda sülhün, təhlükəsizliyin və əməkdaşlığın inkişaf etdirilməsinə yol açdığını aydın surətdə nəzərə çarpdırır. Bu isə bütövlükdə Azərbaycan-Türkiyə münasibətlərinin beynəlxalq birlik üçün də əhəmiyyətli olduğunu göstərir. Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclasında qəbul edilmiş qərarlar iki qardaş ölkənin gələcək inkişafına gur işıq salır.

***İsa HƏBİBBƏYLİ,***
***Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti, akademik***

## Ağdam rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağdam rayonunun əhalisi 24740 nəfər olan 18 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 20 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün göstərilmiş vəsaitin 1,4 milyon (bir milyon dörd yüz min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2020-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 fevral tarixli Sərəncamına Əlavə

### Ağdam rayonunda qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Yaşayış məntəqələri | Quyuların sayı, ədəd | Əhalinin sayı, nəfər |
|---|---|---|---|
| 1. | Alıbəyli kəndi | 1 | 2188 |
| 2. | Ayaq Qərvənd kəndi | 2 | 891 |
| 3. | Birinci Yüzbaşılı kəndi | 1 | 775 |
| 4. | Çəmənli kəndi | 1 | 3649 |
| 5. | Evoğlu kəndi | 1 | 1578 |
| 6. | Həsənxanlı kəndi | 1 | 947 |
| 7. | Xındırıstan kəndi | 1 | 904 |
| 8. | İmamqulubəyli kəndi | 1 | 1746 |
| 9. | Kolqışlaq kəndi | 1 | 352 |
| 10. | Küdürlü kəndi | 1 | 279 |
| 11. | Quzanlı qəsəbəsi | 1 | 3145 |
| 12. | Mahrızlı kəndi | 1 | 2081 |
| 13. | Orta Qışlaq kəndi | 1 | 917 |
| 14. | Paşabəyli kəndi | 1 | 759 |
| 15. | Rzalar kəndi | 1 | 1054 |
| 16. | Şükürağalı kəndi | 1 | 356 |
| 17. | Təzəkənd kəndi | 1 | 440 |
| 18. | Zəngişalı kəndi | 2 | 2679 |
| **Cəmi** | | **20** | **24 740** |

# İlham Əliyevdən Paşinyana növbəti sarsıdıcı zərbə

## Azərbaycan Prezidentinin həqiqətləri Ermənistanın baş nazirini çıxılmaz duruma saldı

*Əvvəli 1-ci səh.*

Avropa İttifaqının büdcə və administrasiya məsələləri üzrə komissarı Yohannes Han, Dünya Bankının icraçı direktoru Aksel van Trotsenburq, Beynəlxalq Böhran Qrupunun prezidenti və baş icraçı direktoru Robert Malley, "Leonardo" şirkətinin baş icraçı direktoru Alessandro Profumo, Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol, Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidenti Peter Maurer, Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Vladimir Norov, Almaniyanın Şərqi Biznes Assosiasiyasının baş icraçı direktoru Mixael Harms və assosiasiyanın Cənubi Qafqaz ölkələri üzrə işçi qrupunun rəhbəri, "Veridos GmbH" şirkətinin baş icraçı katibi Andreas Reşmayer ilə keçirilən görüşlərdə Azərbaycan Prezidenti bir daha ölkəmizin dünya enerji bazarında çox etibarlı tərəfdaş kimi tanındığını söyləyərək, Cənubi Qafqazın lider dövlətinin əlverişli biznes mühiti olduğunu diqqətə çatdırdı. Beynəlxalq şirkət rəhbərləri də öz növbələrində Azərbaycana investisiya yatırımında maraqlı olduqlarını etiraf etdilər. Bu görüşlər qarşıdakı illərdə Azərbaycan iqtisadiyyatına xarici investisiyaların yatırılması üçün real zəmin yaratmış oldu desək, yanılmarıq.

Xüsusi olaraq vurğulayaq ki, Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidenti Peter Maurer ilə görüşdə cənab İlham Əliyev hazırda işğalçı Ermənistan tərəfindən girovluqda saxlanılan azərbaycanlı mülki şəxslər Dilqəm Əsgərovun və Şahbaz Quliyevin azad olunmaları məsələsini müzakirə etdi. Dövlət başçısı girovluqda saxlanılan azərbaycanlı mülki şəxslərin azad olunmasının, bu istiqamətdə səylərin artırılmasının əhəmiyyətini qeyd etdi. Dövlət başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi kontekstində humanitar əsaslarda "hamının hamıya" prinsipi ilə bütün əsir və girovların dəyişdirilməsinin vacibliyini vurğuladı.

### Azərbaycan Xəzər və Aralıq dənizlərini birləşdirib

Konfrans çərçivəsində keçirilən "Enerji təhlükəsizliyi" mövzusunda "dəyirmi masa"da iştirak edən Azərbaycan Prezidenti bir daha bəyan etdi ki, ölkəmiz dünya enerji bazarında çox etibarlı tərəfdaş kimi tanınır və son dövrlərdə alternativ enerji resurslarının inkişafı istiqamətində ciddi addımlar atır.

Məhz buradakı təmaslar nəticəsində çoxlu sayda ticarət müqavilələri imzalanıb və qarşıdakı illərdə daha çox imkanlar olacaq. Çünki daha böyük potensiala malik Azərbaycanın imkanları getdikcə artır. Azərbaycan coğrafi yerləşmə potensialını fürsətlərə çevirir.

Bu layihələrdən biri də "Cənub qaz dəhlizi"dir. Dörd seqmentindən üçünün artıq uğurla tamamlandığını deyən Prezident İlham Əliyev vurğuladı ki, bu ilin sonunda TAP layihəsi tamamlanacaq və beləliklə də 3,5 min kilometr uzunluğunda inteqrasiya olunmuş kəmər sistemi artıq istismara veriləcək.

Prezident həmçinin vurğuladı ki, bu gün Azərbaycan gələcək layihələrlə bağlı yeni ölkələrlə işləyir. Çünki "Cənub qaz dəhlizi" yeddi ölkəni - Azərbaycan, Türkiyə, Gürcüstan, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliyanı birləşdirir. Üç Balkan ölkəsi isə - Bosniya və Herseqovina, Monteneqro və Xorvatiya - bu üç ölkənin ərazisindən keçən, xüsusilə İonik-Adriatik kəmərinin tikintisini nəzərdə tutan ikinci fazada layihəyə qoşulmaqla bağlı artıq Anlaşma Memorandumu imzalayıblar.

Cənab İlham Əliyev Azərbaycanın həm də çox sabit neft təchizatçısı olduğunu söyləyərək bildirdi ki, 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan kəmərinin açılışından bəri heç bir fasilə, fors-major və ya problem baş verməyib. Geosiyasi və texniki nöqteyi-nəzərdən onu da həyata keçirmək çox çətin idi, çünki ilk dəfə olaraq o, Xəzər və Aralıq dənizlərini birləşdirirdi.

Prezident həmçinin Azərbaycanda bərpaolunan enerjiyə böyük diqqət yetirildiyini deyərək nəzərə çatdırdı ki, qarşıya qoyulan məqsəd 2030-cu ilə qədər elektrik enerjisinin 30 faizini bərpaolunan enerji hesabına ödəməkdir.

### İlham Əliyev Paşinyanı Almaniyada növbəti dəfə ifşa etdi

Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr isə dünyanın diqqətini bir daha bu məsələyə yönəltdi.

Prezident demək olar ki, Dağlıq Qarabağ münaqişəsi və mövcud problemlərlə bağlı dünya birliyinə ciddi çağırışlar etdi. Ermənistanın münaqişə ətrafındakı spekulyasiyasının ifşasına nail oldu. Azərbaycan Prezidentinin ətraflı şəkildə tarixi həqiqətlərə söykənərək Dağlıq Qarabağ münaqişəsinin səbəb və nəticələrini izah etməsi, Ermənistan hökumətinin başçısının saxtakarlıqla "tarixi faktlar" düzəltmək cəhdləri kimin haqlı, kimin haqsız olduğunu bir daha dünya ictimaiyyətinə nümayiş edildi. Ermənistanın baş naziri bu reallığa qarşı heç bir əks-arqument ortaya qoya bilmədi.

Müzakirələr cənab İlham Əliyevin siyasi və dövlət xadimi olaraq təcrübəsinin, dünyagörüşünün Paşinyandan qat-qat üstün olduğunu göstərdi. Prezident əsaslı faktlarla, məntiqlə Paşinyanın bütün iddialarını darmadağın etdi, onu çaşdırdı, çıxılmaz vəziyyətə və aciz duruma saldı. N.Paşinyan isə dünyaya bir daha göstərdi ki, erməni siyasətçilərdə yalan danışmaq, geniş ictimaiyyəti aldatmaq cəhdləri sadəcə genetik bir vərdişdir.

Prezident İlham Əliyev bu dəfə də konstruktivliyini və məsələnin ədalətli dialoq yolu ilə həllinə tərəfdar olduğunu açıq göstərdi. Qarşı tərəfin səsləndirdiyi ziddiyyətli ifadələr, yalan dolu "tarix" danışması və müasir dünyanın gözü qarşısında törətdikləri cinayətləri ört-basdır etmə cəhdi, işğal altındakı 7 rayondan, bir milyondan çox məcburi qaçqın və köçkün barədə danışmaq istəməməsi qəti şəkildə özünü doğrulda bilməzdi. Ona görə ki, Paşinyan tarixi faktlar, dərin mühakimələr və beynəlxalq hüququn müəyyən etdiyi gerçəkliklər ilə üz-üzə qalmışdı.

Prezident İlham Əliyev Almaniyada Paşinyana tarix dərsi keçdi. Müzakirələrdən aydın göründü ki, Dağlıq Qarabağın tarixi, müxtəlif dövrlərdə bu ərazilərin mənsubluğu ilə bağlı danılmaz həqiqətlər Ermənistan üçün çox ağır mövzudur. Cənab İlham Əliyevin Dağlıq Qarabağın Azərbaycana məxsus olması ilə bağlı söylədiyi tarixi həqiqətlər qarşısında Paşinyanın eramızdan əvvəlki dövrə mücərrəd və dolayı ekskursu auditoriyanı çaşdırmaq cəhdindən başqa bir şey deyildi. Əgər Paşinyan həqiqətən də Dağlıq Qarabağın ermənilərə məxsus olduğunu təsbit edən hər hansı bir fakta, sənədə malik olsaydı, mütləq şəkildə bunu açıqlayardı.

Dövlət başçımızın Dağlıq Qarabağın Azərbaycana məxsus olması və münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll oluna biləcəyinə dair təqdim etdiyi hüquqi bazanın qarşısında Paşinyan heç bir arqument nümayiş etdirə bilmədi. Prezident İlham Əliyev XIX əsrin əvvəlindən başlayaraq 200 il ərzində imzalanmış çoxsaylı saziş və müqavilələrdən danışdığı halda, Paşinyan bir dənə də olsun hüquqi cəhətdən əsaslandırılmış fakt ortaya qoymadı.

Bir sözlə, beynəlxalq gündəlikdə duran qlobal təhlükəsizlik məsələlərinin müzakirə olunduğu vacib platforma hesab edilən Münxen Təhlükəsizlik Konfransında Azərbaycan Prezidenti bir daha münaqişənin həlli üçün tutarlı arqumentlər səsləndirdi. Ermənistanın baş nazirinin növbəti dəfə cənab İlham Əliyevin qətiyyəti, diplomatik məharəti qarşısında aciz durumda qalması isə hər bir Azərbaycan vətəndaşının qürur duyacağı bir məqam idi.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın işğal edilmiş ərazilərində hərbi cinayətlərə dair məruzə BMT-nin rəsmi sənədi kimi yayılıb

Məşhur beynəlxalq hüquqşünas Malkolm Şou və Naomi Hart tərəfindən hazırlanmış "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində hərbi cinayətlər və Ermənistanın məsuliyyətinə dair" məruzə BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi yayılıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, məruzədə Azərbaycanın hazırda işğal altında olan ərazilərində Ermənistanın törətdiyi müharibə cinayətləri və bununla bağlı Ermənistanın üzərinə düşən öhdəliklər araşdırılır, bu xüsusda müvafiq hüquq normaların nəzəri təhlili ilə yanaşı, həmin normaların Ermənistan tərəfindən pozulmasını sübut edən faktoloji məlumatlar əks olunur.

Məruzədə beynəlxalq təşkilatların sənədləri, Avropa İnsan Hüquqları üzrə Məhkəməsinin qərarları, qeyri-hökumət təşkilatlarının araşdırmaları, kütləvi informasiya vasitələrinin açıqlamaları, fərdi müəlliflərin yazıları kimi müstəqil mənbələrdən, eləcə də Azərbaycan Respublikasının müvafiq dövlət qurumlarının sənəd və materiallarından istifadə olunub.

İki hissədən ibarət olan məruzənin birinci hissəsi münaqişənin faktoloji və tarixi kökləri, beynəlxalq humanitar hüququn ümumi izahı və bu xüsusda Ermənistanın üzərinə düşən öhdəliklərin təhlilinə həsr edilib. Məruzənin ikinci hissəsi isə ardıcıl qaydada təhlil edilmiş müharibə cinayətlərindən bəhs edir, burada ilk növbədə, mülki şəxslərin öldürülməsi və yaralanması ilə bağlı müharibə cinayətlərinə dair, daha sonra isə etnik təmizləmə, işğal altında olan ərazilərdən məcburi köçürülmə və bu ərazilərin xüsusiyyətinin məqsədyönlü şəkildə dəyişdirilməsi, eləcə də mədəni irsin dağıdılması və ətraf mühitə zərər vurulması kimi məsələlərin təhlili yer alıb.

Məruzədə BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrinə istinad edilərək BMT Təhlükəsizlik Şurasının birmənalı şəkildə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığını dəstəklədiyi, Dağlıq Qarabağ bölgəsinin Azərbaycan Respublikasının tərkib hissəsi olduğu və erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması və didərgin düşmüş əhalinin öz yerlərinə qaytarılması üçün şəraitin yaradılması barədə tələb irəli sürdüyü vurğulanır.

Məruzədə Ermənistanın bu tələblərə məhəl qoymayaraq Azərbaycanın ərazilərini nəinki işğal altında saxlamağa davam etdiyi, hətta bütün beynəlxalq hüquq normalarına zidd olaraq, orada müxtəlif növ qeyri-qanuni fəaliyyət apardığı qeyd edilir. Belə ki, sənəddə Ermənistan Respublikasının Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində beynəlxalq hüquqa zidd qeyri-qanuni fəaliyyəti araşdırılır. Bu xüsusda Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən 2016-cı ildə hazırlanmış "Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-qanuni fəaliyyət" adlı hesabatın, eləcə də Xarici İşlər Nazirliyi və "Azərkosmos"un 2019-cu ildə birgə dərc etdiyi "Azərbaycanın Ermənistanın işğalı altında olan ərazilərində qeyri-qanuni fəaliyyətlər: Peykdən çəkilmiş şəkillərlə sübutlar" adlı hesabatın BMT çərçivəsində yayıldığı qeyd edilir.

Məruzədə həmçinin Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətləri, Ermənistanın əməllərinin qeyri-qanuniliyinin hüquqi əsaslandırılması və Ermənistanın beynəlxalq məsuliyyətinə dair hüquqi rəy təmin edilir. Məruzə Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəsinin BMT baş katibinə müşayiət məktubu ilə birgə bu ilin 7 fevral tarixində BMT Baş Assambleyası və Təhlükəsizlik Şurasının sənədi kimi dərc edilib.

# "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin VI toplantısı işini plenar sessiyalarla davam etdirib

**Fevralın 28-də Bakıda, Heydər Əliyev Mərkəzində keçirilən "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin VI toplantısı işini plenar sessiyalarla davam etdirib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə çıxış edən Azərbaycanın Energetika naziri **Pərviz ŞAHBAZOV** qlobal enerji təhlükəsizliyi layihəsi olan "Cənub qaz dəhlizi" üzrə nazirlərin budəfəki toplantısının özünəməxsus beynəlxalq əməkdaşlıq formatı kimi qiymətləndirilən Məşvərət Şurasındakı fəaliyyətin məqsədinə çatacağı ildə baş tutduğunu deyib. Bildirib ki, "Cənub qaz dəhlizi" planlaşdırılan vaxtda - 2020-ci ildə başa çatacaq. O, "Cənub qaz dəhlizi" üzrə tərəfdaş ölkələrin yüksək səviyyəli hökumət rəsmilərinə, dəhlizin ikinci fazasında layihəyə qoşulmaq niyyətində olan Balkan ölkələrinin - Monteneqro və Xorvatiyanın təmsilçilərinə, Məşvərət Şurasının toplantılarında iştirakları ilə layihəyə maraqlarını və böyük əhəmiyyət verdiklərini nümayiş etdirən Türkmənistan, Serbiya, Rumıniya və Macarıstan hökumətləri nümayəndələrinə təşəkkürünü bildirib.

Nazir 2011-ci ildən indiyədək "Cənub qaz dəhlizi" ideyasının bütün inkişaf mərhələlərində Azərbaycanla yaxından əməkdaşlıq edən, layihəyə hər cür zəruri dəstəyini verən və Məşvərət Şurasına həmsədrlik missiyasını daşıyan Avropa Komissiyasının rolunu xüsusi qeyd edib: "ABŞ və Birləşmiş Krallıq hökumətləri yalnız "Cənub qaz dəhlizi" deyil, 25 ildən artıq müddətdə Azərbaycanın təşəbbüskarı olduğu enerji təhlükəsizliyi ilə bağlı bütün layihələrə güclü və davamlı dəstək nümayiş etdirib. Enerji ilə möhkəmlənən yaxın tərəfdaşlığımız məqsədlərimizə çatmağa kömək edir. Əlbəttə layihə üzrə bugünkü uğurlarımız "Şahdəniz", TANAP və TAP-a üzv olan şirkətlərin və maliyyə institutlarının səmərəli fəaliyyəti, güclü əzmi olmadan mümkün olmazdı".

"Cənub qaz dəhlizi"nin bütün seqmentləri üzrə görülmüş işlərə dair hesabatların dinlənildiyi birinci sessiyada çıxış edən BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti **Qəri COUNZ** deyib ki, bu layihənin reallaşdırılması üçün 7 ölkənin və hökumətin, Avropa İttifaqının, ABŞ-ın, bir çox müvafiq beynəlxalq təşkilatların, 4 ölkədəki tərəfdaşlarımızın və 11 alıcının dəstəyi, əməkdaşlığı və uzlaşması tələb olunurdu: "Xüsusilə qeyd etmək istəyirəm ki, Prezident İlham Əliyevin şəxsi iştirakı və dəstəyi "Şahdəniz-2" layihəsinin uğurla həyata keçirilməsində başlıca amil olub. Bu layihə haqlı olaraq dünyanın neft və qaz sənayesində indiyə qədər həyata keçirilmiş ən böyük və mürəkkəb layihələrdən biri hesab edilir".

O qeyd edib ki, "Cənub qaz dəhlizi" layihəsi bütün aspektlərinə görə, o cümlədən fiziki ölçüləri, kommersiyalılığı və yataqdakı layların mürəkkəbliyi baxımından ümumilikdə nəhəng miqyasdadır. Hesab edirəm ki, çox insan bu layihənin reallaşdırılacağına ehtimal etmirdi, lakin bu vaxtadək möhtəşəm irəliləyiş əldə edilib - bu işlər təhlükəsiz şəkildə, qrafikdən öncə və büdcə daxilində tamamlanıb. Layihədə bu vaxtadək böyük irəliləyiş əldə olunub. "Cənub qaz dəhlizi"nin BP tərəfindən idarə olunan hissələri - "Şahdəniz-2" və Genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri layihələri üzrə işlərin bir çoxu artıq tamamlanıb, bəziləri isə hələ də davam edir və növbəti bir neçə il ərzində davam edəcək.

Q.Counz bildirib ki, "Şahdəniz" çoxsaylı yüksəkkeyfiyyətli laylarda yerləşən 30 trilyon kubfutdan çox geoloji qaz ehtiyatına malik olan dünya səviyyəli karbohidrogen yatağıdır. Yatağın tammiqyaslı işlənməsi, yəni "Şahdəniz-2" layihəsi üzrə artıq nəhəng qurğu, habelə dənizdə və quruda yerləşən digər qurğuların yekun təhvil-təslimi həyata keçirib. "Şahdəniz-2" iki qaz ixrac xətti və bir kondensat xətti vasitəsilə ixrac həyata keçirir. Bu vaxtadək "Şahdəniz-2" quyular proqramında mükəmməl irəliləyişə nail olunub və hazırda işlər qrafiki 2 il qabaqlayır. Yataqda ümumilikdə 26 quyudan 17-si qazılıb və 16-sı tamamlanıb. Yatağın şimal və qərb cinahlarındakı 8 quyunun hamısı uğurla işə salınıb və "Şahdəniz Bravo" üzrə hasilat işləri fəaliyyətə başladığı birinci ildə planı yerinə yetirib. Türkiyəyə qaz ixracı qrafikə uyğun olaraq 2018-ci il iyunun 30-da başlayıb. Planın yerinə yetirilməsində dünya səviyyəli Xəzər donanması işlərə yüksəksəviyyəli dəstək verib. "Şahdəniz-2" quyularının qazılması və tamamlanması işləri 2025-ci ilədək davam edəcək, işə salınacaq növbəti cinah şərq-cənub cinahı (2021-ci il) olacaq və bunun ardınca isə qərb-cənub və şərq-şimal cinahları (hər ikisi də 2022-ci il) işə salınacaq. Hazırda bütün Genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri qurğuları artıq tam tamamlanıb və işlək vəziyyətdədir.

BP-nin regional prezidenti deyib ki, layihəyə cəlb olunmuş bütün tərəflər bu miqyasda və mürəkkəblikdə olan bir layihənin indiyədək təhlükəsiz, etibarlı və səmərəli şəkildə icrasından qürur duymalıdır: "Bu nəhəng layihə plana uyğun və nəzərdə tutulmuş büdcə daxilində irəliləyib və biz planlaşdırıldığı kimi, cari ilin sonunadək Avropaya ilk qazın çatdırılması üçün işləri qrafikə uyğun davam etdiririk. Layihə, həmçinin bu region üçün də unikaldır, belə ki, "Cənub qaz dəhlizi" ilk dəfə olaraq Xəzər regionunu birbaşa Avropa bazarlarına birləşdirəcək. Enerji müxtəlifliyini təmin etməkdən əlavə, bu layihə az karbonlu enerjiyə və daha təmiz dünyaya keçid etmək üçün görülən səylərə töhfə verəcək".

TANAP-ın baş direktoru **Saltuk DÜZYOL** bildirib ki, "Cənub qaz dəhlizi"nin əsas seqmenti olan TANAP-la hazırda Azərbaycan təbii qazı Türkiyəyə nəql edilir. Növbəti mərhələdə isə boru kəməri Xəzərin Azərbaycan qazını avropalı istehlakçılara çatdıracaq. TANAP Türkiyənin Ardahan vilayətinin Posof qəsəbəsindən başlayaraq qardaş ölkənin ərazisi boyunca 20 şəhərdən, 67 qəsəbə və 600 kənddən keçən və Ədirnənin İpsala qəsəbəsində Avropaya çatan 1850 kilometrlik boru kəməridir. Azərbaycan qazını Türkiyəyə və Avropaya çatdıran TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə-Yunanıstan sərhədində isə TAP qaz boru kəmərinə birləşib. TANAP-ın Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər hissəsinin uzunluğu 1350 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca uzanan hissəsi isə 480 kilometrdir.



O vurğulayıb ki, TANAP layihəsi "Şahdəniz-2" yatağından və Xəzərin digər sahələrindən hasil edilən təbii qazın Türkiyə ilə Avropaya nəqlini nəzərdə tutur. Boru kəmərinin quru hissəsinin diametri 56 və 48 düym, Mərmərə dənizi boyunca isə 36 düym təşkil edir. Kəmərin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. TANAP-dan Türkiyə qazpaylama sisteminə iki qol ayrılıb və onun maksimum illik ötürücülük qabiliyyəti 31 milyard kubmetrdir. Layihənin ilkin mərhələsində illik ötürücülük gücü 16 milyard kubmetr qaz təşkil edəcək.

"Enerjinin İpək yolu" adlandırılan TANAP regionun və Avropanın enerji təhlükəsizliyi üçün mühüm rol oynayır. Boru kəmərinin birinci fazası keçən il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı kimi həmin il iyunun 30-da başlayıb. Ötən il noyabrın 30-da isə Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib. TANAP-la buvaxtadək Türkiyəyə 4 milyard kubmetrdən çox Azərbaycan təbii qazı göndərilib", - deyə S.Düzyol bildirib.

O deyib ki, Azərbaycan və Türkiyənin uzunmüddətli strateji enerji əməkdaşlığının ən mühüm bəhrələrindən olan TANAP layihəsi artıq tamamlanıb. "Cənub qaz dəhlizi"nin son seqmenti olan TAP boru kəməri layihəsi də tamamlandıqdan sonra Azərbaycanın "Şahdəniz-2" layihəsi çərçivəsində çıxarılan təbii qaz TANAP və TAP kəmərləri vasitəsilə Avropaya nəql ediləcək.

TAP-ın icraçı direktoru **Luca SCHİEPPATİ** isə qeyd edib ki, Azərbaycan təbii qazını Avropaya nəql edəcək TAP boru kəməri layihəsi üzrə işlərin 92 faizi tamamlanıb. Hazırda boru kəməri tikinti mərhələsindədir. TAP-ın inşası üzrə hər gün yüzlərlə metr ərazi təmizlənir, borular marşrut xətti boyunca düzülür, qaynaqlanır, xəndəyə endirilir və torpaq örtüyü bərpa olunur. TAP-ın quru hissəsində, Yunanıstan, Albaniya və İtaliya marşrutunda boruların hamısı torpağa basdırılıb. Üç ölkədə boruların 99 faizi marşrut xətti boyunca düzülüb və qaynaqlanıb. Həmçinin boru kəməri marşrutunun 99 faizində torpaq örtüyü bərpa edilib. TAP-ın ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Kipoidə (Yunanıstan), digəri isə Fierdə (Albaniya) olmaqla ümumilikdə 2 kompressor stansiyasının inşası tamamlanıb. Kompressor stansiyaları ilə yanaşı, Albaniyanın şərqində, Bilisht regionunun yaxınlığında ölçmə stansiyasının tikintisi də yekunlaşıb. İtaliyadakı təbii qazın qəbulu terminalının isə tikinti işlərinin 80 faizi başa çatıb. TAP-ın inşası çərçivəsində "Saipem" şirkətinin "Castoro 6" borudüzən gəmisi İtaliyanın San Foka bölgəsində işlərə başlayıb.

Bildirilib ki, ötən ilin noyabrında TAP-ın Yunanıstan hissəsində sınaq məqsədilə qaz nəqlinə başlanılıb. Növbəti aylarda isə Albaniya və İtaliyada boruların qazla doldurulmasına başlanılacaq. TAP vasitəsilə ticari məqsədlə qaz nəqlinin 2020-ci ilin oktyabrında, yəni İtaliyaya qədər olan hissənin tam istifadəyə veriləcəyi və sınaqdan keçiriləcəyi vaxtda gözlənilir.

"İtaliyanın Melendugno şəhərindəki 1,5 kilometrlik mikrotunelin inşası turist fəaliyyətləri və sahilboyu ətraf mühitə heç bir təsir və ya müdaxilə olmadan tamamlanıb. Boru kəmərinin İtaliya hissəsinin və qəbul terminalının tikintisinin tamamlanması üzrə işlər davam edir. Həmçinin TAP-ın İtaliyadan keçəcək təxminən 8 kilometrlik hissəsində borular xəndəyə endirilir", - deyə o qeyd edib.

Vurğulanıb ki, Albaniya sularında dəniz borularının tikintisi artıq başa çatıb. Boru kəmərinin dəniz hissəsi Albaniya və İtaliya sahillərini birbirinə birləşdirəcək və uzunluğu 105 kilometr olacaq. Adriatik dənizində boruların 37 kilometri Albaniya, 25 kilometri İtaliya, 43 kilometri isə beynəlxalq sularda döşənəcək. Boru kəməri dənizin 810 metrdən də çox dərinlikdəki hissəsindən keçəcək. TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına da başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır.

Sessiyada İtaliyanın "Snam" şirkətinin beynəlxalq əlaqələr və biznesin inkişafı üzrə direktoru **Alessandra PASİNİ** təmsil etdiyi şirkətin TAP layihəsində 20 faizlik pay sahibi olduğunu bildirib. Qeyd edib ki, "Snam" Azərbaycanla əməkdaşlığını genişləndirməkdədir. Belə ki, bərpaolunan qazların gələcəkdə "Cənub qaz dəhlizi" və TAP vasitəsilə nəqli nəzərdə tutulur. "Snam" TAP-ı İtaliyadakı "Snam Rete" qaz şəbəkəsinə birləşdirən 55 kilometrlik bir interkonnektorun inşasını da planlaşdırır.

Yunanıstan-Bolqarıstan İnterkonnektorunun (IGB) operatoru olan "ICGB AD" şirkətinin icraçı direktoru **Teodora GEORGİEVA** deyib ki, IGB Avropa İttifaqında enerji bazarının təhlükəsizliyi və rəqabət qabiliyyətinin təminatı üzrə 7 prioritet layihələrdən biridir. Layihə Bolqarıstan və xüsusilə də enerji istehlakı fosil yanacaqlardan asılı olan Cənubi-Şərqi Avropa üçün mühüm əhəmiyyət daşıyır. Bir milyard kubmetr Azərbaycan qazı IGB ilə Bolqarıstana nəql ediləcək.

Energetika naziri Pərviz Şahbazovun moderatorluğu ilə keçirilən ikinci plenar sessiyada "Cənub qaz dəhlizi"nə üzv və layihəyə maraq göstərən ölkələrin təmsilçilərinin çıxışları dinlənilib.

Nazir qeyd edib ki, 2020-ci il Avropa ilə Xəzər regionunu nəhəng infrastruktur, eləcə də enerji təhlükəsizliyi və inkişaf məqsədləri ilə birləşdirən "Cənub qaz dəhlizi"nin tam istismara veriləcəyi tarixdir və biz bu tarixi nailiyyətə etibarlı tərəfdaşlıq, güclü əməkdaşlığımızla imza atırıq. Ötən il TANAP-ın Yunanıstan sərhədinə qədər olan hissəsinin başa çatdırılması ilə "Cənub qaz dəhlizi"nin üç seqmenti artıq uğurla tamamlanıb. TAP qaz boru kəməri üzrə də işlərin icra vəziyyəti göstərir ki, 2020-ci ilin ikinci yarısında Avropaya yeni mənbədən - "Cənub qaz dəhlizi" vasitəsilə "Şahdəniz" qazı çatdırılacaq.

O bildirib: "1994-cü ildən indiyə kimi Azərbaycanın enerji təchizatçısı kimi təcrübəsi də təsdiqləyir ki, Xəzər regionu, o cümlədən Azərbaycan Avropa üçün sabit və təhlükəsiz enerji mənbəyidir. Eyni zamanda, Gürcüstan və Türkiyədən keçməklə Avropaya uzanan boru kəmərləri sistemi etibarlı və təhlükəsiz marşrutdur. Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP 7 ölkəni əlaqələndirən bağlantılar, iqtisadi inteqrasiya və dünyanın enerji xəritəsinin yenidən tərtib vasitələridir. Azərbaycanın "Cənub qaz dəhlizi"nin nümunəsində təşəbbüsü və bu təşəbbüsün birgə səylərimizlə inkişafı, tərəfdaşlarımız tərəfindən davamlı dəstəklənməsi tədarükün şaxələndirilməsi ideyasının mifdən reallığa çevrilməsində mühüm rol oynadı. Bu illər ərzində Avropanın təchizat, mənbə və marşrutların şaxələnməsinə, azad ticarətə, rəqabətə əsaslanan qaz bazarının yaradılması kimi strateji hədəflərinə doğru birgə, qətiyyətlə addımlamağa müvəffəq olduq. Bu layihə bir çox üstünlüklərinə görə təbii qazın enerji resursu kimi mövqeyinin möhkəmləndiyi, eyni zamanda boru kəməri ilə qaz təchizatı üzrə uzunmüddətli müqavilələrin yeniləndiyi və mayeləşdirilmiş təbii qazın (LNG) idxalının artdığı bir vaxtda reallaşır. Tam bir şaxələndirmə layihəsi olan "Cənub qaz dəhlizi" də Avropanın qaz bazarında tədarükün təhlükəsizliyini və rəqabət qabiliyyətini daha da artıracaq".

Qeyd olunub ki, "Cənub qaz dəhlizi" istehsalçılara, ilk növbədə, Azərbaycana yeni qaz bazarlarına çıxışa və bu prosesin daim inkişaf etməsinə imkan yaradır. Qaz hasilatı ildən-ilə artan ölkəmiz üçün "Cənub qaz dəhlizi" ilkin olaraq bazarları, alıcıları və ixrac marşrutlarını şaxələndirmək məqsədi daşıyır. "Cənub qaz dəhlizi", eyni zamanda, gələcəkdə Xəzər hövzəsinin, Mərkəzi Asiyanın, eləcə də təchizatçı qismində iştirak etmək istəyən digər ölkələrin də Avropa bazarlarına çıxışına şərait yaradır. "Cənub qaz dəhlizi"nin tam gücü ilə işə düşməsini və Avropaya qazın çatdırılmasını təmin edən əsas halqa məhz TAP qaz boru kəməridir. Yunanıstan, Albaniya və İtaliyada TAP üzrə işlərin icrasını, xüsusilə İtaliya hökumətinin kəmərin tikintisinin sürətləndirilməsi ilə bağlı mövqeyini alqışlayırıq. Layihə üzrə işlərin 92 faiz icrası İtaliya hökumətinin layihəyə dəstəyinin göstəricisidir.

"İnanırıq ki, İtaliya hökuməti ilə birgə səylərimiz Avropanın enerji təhlükəsizliyinin təminatı üçün strateji əhəmiyyətə malik TAP layihəsinin vaxtında başa çatmasını təmin edəcək. TAP İtaliya istehlakçılarını da təhlükəsiz, şaxələndirilmiş və rəqabətədavamlı enerji ilə təmin edəcək. Eyni zamanda, İtaliyanın dekarbonizasiya məqsədinə çatmasına töhfə verəcək. TAP, həmçinin "Cənub qaz dəhlizi"ni Cənub-Şərqi Avropa və Balkanlarda planlaşdırılan Yunanıstan-Bolqarıstan interkonnektoru (IGB), İon-Adriatik qaz kəməri (IAP), eləcə də Rumıniya-Bolqarıstan, BRUA (Bolqarıstan-Rumıniya-Macarıstan-Avstriya) ilə əlaqələndirərək Bolqarıstan, Xorvatiya, Monteneqro, Bosniya və Herseqovina və Avropanın bir sıra digər ölkələri üçün geniş perspektivlər aça və bölgəyə yeni təchizat mənbələrindən yararlanmaq imkanı gətirə bilər.

Avropa Komissiyasının Enerji Direktorluğunun baş direktorunun müavini **Klaus-Dieter BORXARDT** deyib ki, "Cənub qaz dəhlizi" yalnız Azərbaycanın deyil, layihədə hazırda təmsil olunan bütün üzvlərin və gələcəkdə bu dəhlizlə öz enerji resurslarının yeni bazarlara ixracında maraqlı olacaq istənilən ölkənin uzunmüddətli və dayanıqlı inkişafı ilə bağlı məqsədlərinə töhfə verəcək bir layihədir. Açıq dənizlərə çıxışı olmayan Azərbaycanın böyük bir coğrafiyanı əhatə edən bu qlobal təşəbbüsünün daim beynəlxalq dəstəklə tam əhatə olunması da "Cənub qaz dəhlizi"-nin bütün tərəflərin maraqlarının təmin olunmasına və qarşılıqlı faydalı qlobal əməkdaşlıq mühitinin yaradılmasına əsaslanan bir məqsədi izləməsinin göstəricisidir. TAP-ın, beləliklə də "Cənub qaz dəhlizi"nin, qrafikə uyğun başa çatdırılması çox vacibdir. Layihənin ilin sonuna kimi istismara verilməsi üçün bütün tərəflər öz qüvvələrini səfərbər edib, uğurlu əməkdaşlıq modeli yaradılıb. "Cənub qaz dəhlizi" vasitəsilə 7 ölkə və çoxsaylı şirkətlərdən ibarət çoxtərəfli əməkdaşlıq formatı isə layihənin nəinki vaxtında yekunlaşmasını, həm də davamlı inkişafa xidmətini, ölkələrarası münasibətlərin möhkəmlənməsini təmin etmək iqtidarındadır.

O qeyd edib ki, "Cənub qaz dəhlizi" siyasi uzlaşma, güclü tərəfdaşlıq, davamlı dəstəklə yanaşı böyük maliyyə vəsaiti tələb edən nəhəng infrastruktur layihəsidir. Layihə maliyyə problemi olmadan, xərclərin səmərəliliyi yüksək səviyyədə təmin edilməklə həyata keçirilir. "Cənub qaz dəhlizi"nin digər bir uğuru layihə çərçivəsində görülən işlərdə xeyli sayda insanın məşğulluq probleminin həllidir. Ona görə də "Cənub qaz dəhlizi" yalnız enerji təhlükəsizliyinin elementi yox, həm də böyük bir məkanda iqtisadi və sosial inkişafın güclü hərəkətverici qüvvəsidir. Bu layihə Avropanın enerji təhlükəsizliyinin təmin olunması və qaz təchizatının şaxələndirilməsində mühüm rol oynayacaq.

Türkiyənin Energetika və Təbii Sərvətlər nazirinin müavini **Alparslan BAYRAKTAR** Azərbaycan-Türkiyə qardaşlığının və strateji tərəfdaşlığının nəticələri olan enerji-kommunikasiya layihələri - Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi "Cənub qaz dəhlizi"nin, TANAP-ın əhəmiyyətindən danışıb. Bildirib ki, TANAP layihəsi Avropaya qaz nəqli üçün artıq hazırdır. Türkiyə 2018-ci il iyulun 1-dən indiyə kimi TANAP vasitəsilə 4,4 milyard kubmetr qaz alıb. Bu il həmin həcmin 6 milyard kubmetrə çatdırılması nəzərdə tutulur.

İtaliyanın İqtisadi İnkişaf Nazirliyində Dövlət Katibi xanım **Alessandra TODDE** deyib ki, "Cənub qaz dəhlizi"nin başlanma nöqtəsi Azərbaycandırsa, onun bitmə nöqtəsi isə hələlik İtaliyadır. Azərbaycan və İtaliya aralarında 5 ölkəni birləşdirən bu dəhlizin mühüm tərəfləridir. "Cənub qaz dəhlizi", xüsusilə də TAP Azərbaycan-İtaliya dostluğunun təzahürü, enerji əməkdaşlığının zirvəsidir. Azərbaycan və İtaliya təbii qazın nəqli ilə aparıcı ölkələr arasında qərarlaşacaqlar.

Qeyd edib ki, Azərbaycan Prezidentinin bu günlərdə İtaliyaya dövlət səfərində TAP layihəsinə, onun regional və qlobal əhəmiyyətinə yüksək səviyyədə verilən qiymətin şahidi olduq. İtaliya Prezidenti Sercio Mattarella TAP-ın icrasının sürətlənməsinə xüsusi dəstək ifadə edir. TAP layihəsinin yekunlaşması ilə Azərbaycan qazı İtaliyaya nəql ediləcək ki, bu da Avropa İttifaqı enerji siyasətinin əsası olan marşrutların və mənbələrin şaxələndirilməsi üçün mühüm əhəmiyyət daşıyır. Eyni zamanda, TAP İtaliya ilə Azərbaycan arasında əlaqələrin daha da inkişafına, həmçinin Xəzər dənizi və Aralıq dənizi regionlarında sabitliyin qorunmasına töhfə verəcək.

ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri **Kurt DONELLİ** qeyd edib ki, ABŞ Azərbaycanın enerji siyasətinə güclü və davamlı siyasi dəstək göstərir. Azərbaycan-ABŞ münasibətlərində enerji sektoru həmişə strateji əhəmiyyət daşıyıb. ABŞ Azərbaycanın enerji ilə bağlı bütün təşəbbüslərində qətiyyətli tərəfdaşı olub. ABŞ "Cənub qaz dəhlizi"nin uğurla yekun fazaya daxil olmasına yüksək və davamlı dəstək nümayiş etdirir. "Cənub qaz dəhlizi" enerji sahəsində ABŞ-Azərbaycan əməkdaşlığının zirvəsidir.

Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi **Baronessa Emma NİKOLSON** Azərbaycanın dünya enerji bazarında etibarlı neft və qaz təchizatçısı kimi tanınması, enerji təhlükəsizliyinin təminatçısı kimi çıxış etməsində Azərbaycan-Böyük Britaniya əlaqələrindən, enerji sahəsində tərəfdaşlıq münasibətlərinin uğurlu nəticələrindən danışıb. O deyib ki, Xəzər regionunu Avropa ilə birbaşa bağlayacaq "Cənub qaz dəhlizi"nin icrasında BP-nin operatorluq etdiyi layihələr üzrə işlər həmişə sürətli gedişatı ilə fərqlənib. Böyük Britaniyanın "Cənub qaz dəhlizi" Məşvərət Şurasının iclaslarında mütəmadi olaraq yüksək səviyyədə təmsil olunması bu layihəyə vacib siyasi dəstəyin nümunəsidir.

Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf üzrə naziri **Natia TURNAVA** qeyd edib ki, "Cənub qaz dəhlizi" Gürcüstanın qaza tələbatını ödəyəcək. Bununla yanaşı, tranzit imkanlara fayda verəcək.

Yunanıstanın Ətraf Mühit, Enerji və İqlim Dəyişikliyi nazirinin müavini **Gerassimos TOMAS** deyib ki, Yunanıstan TAP qaz boru kəmərinin təməlinin qoyulduğu ölkədir. Hazırda kəmərin Yunanıstandan keçən hissəsi üzrə işlərin icrası yüksək səviyyədədir. TAP Yunanıstanın enerji təchizatı ilə bərabər iqtisadi inkişafını, yeni iş yerlərinin açılmasını təmin edən bir layihədir. Yunanıstan təxminən 1 milyard kubmetr "Şahdəniz" qazı alacaq.

Bolqarıstanın Energetika naziri **Temenujka PETKOVA** 2021-ci ildə Azərbaycan qazını nəql edəcəyini deyib. Türkmənistan Prezidentinin müşaviri **Yaxşıgəldi KAKAYEV,** Serbiyanın Mədən və Energetika naziri **Aleksandr ANTİÇ,** Monteneqronun Enerji Tənzimləmə Agentliyinin Qaz, Neft və Lisenziyalaşdırma xidmətinin rəhbəri **Zarko JURANOVİÇ,** Xorvatiyanın Ətraf Mühitin Mühafizəsi və Energetika nazirinin köməkçisi **Domagon VALİDZİC,** Rumıniyanın İqtisadiyyat, Energetika və Biznes Mühiti nazirinin müavini **Niculae HAVRİLET,** Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyinin Enerji və İqlim Diplomatiyası Departamentinin direktor müavini **Felix MOLDOVAN** isə "Cənub qaz dəhlizi"nin əsas aparıcı tərəfi kimi Azərbaycanın strateji rolundan, layihənin Avropada enerji marşrutlarının və mənbələrinin şaxələndirilməsinə verəcəyi töhfələrin əhəmiyyətindən danışıblar. Bildirilib ki, "Cənub qaz dəhlizi" Avropa Komissiyasının Ümumi Maraqlar Layihəsi siyahısına daxil edilib. "Cənub qaz dəhlizi" yalnız enerji təchizatı, enerji təhlükəsizliyi layihəsi deyil, bütün tərəflər - hasilatçılar, tranzit ölkələr və istehlakçılar üçün faydalılıq, mənfəətlilik mənbəyidir.

# *Pərviz ŞAHBAZOV:* "2020-ci il "Cənub qaz dəhlizi"nin tam istismara veriləcəyi tarixdir"

**2020-ci il "Cənub qaz dəhlizi"nin tam istismara veriləcəyi tarixdir.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Energetika naziri Pərviz ŞAHBAZOV fevralın 28-də "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin VI iclası toplantısının yekunlarına dair keçirilən mətbuat konfransında deyib.

Nazir qeyd edib: "Bu gün biz "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin VI iclasını keçirdik və çox səmərəli müzakirələrimiz oldu. Məşvərət Şurası layihə üzrə fəaliyyətin koordinasiyası, qarşılaşılan çətinliklərin birgə müzakirəsi və həlli məqsədilə Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılıb. Bu format "Cənub qaz dəhlizi"nin reallaşmasına töhfələr verib".

O qeyd edib ki, "Cənub qaz dəhlizi"nin üç seqmenti artıq uğurla tamamlanıb. Ötən il TANAP-ın Avropa ilə birləşən hissəsinin açılışı olub. Sonuncu hissə TAP üzrə işlərin icra göstəricisi isə 92 faizdir: "Məşvərət Şurasının budəfəki iclası bir növ nailiyyətlərin hesabatı idi. İclasda 13 ölkə, çoxsaylı enerji şirkətləri və maliyyə qurumları iştirak edirdi. Bizim üçün indi əsas hədəf Avropa bazarıdır. Bugünkü müzakirələrdən Avropa Komissiyası, ABŞ, Böyük Britaniya və layihəyə üzv ölkələri səsləndirdikləri mesajlardan bir daha əmin olduq ki, Azərbaycan etibarlı, təhlükəsiz və sabit enerji təchizatçısı kimi qəbul olunur və Avropa səbirsizliklə Azərbaycan qazının qitəyə daxil olmasını gözləyir. İnanırıq ki, layihə üzrə qalan işlər də keyfiyyətlə və vaxtında icra ediləcək. Biz tərəfdaşlarımızla birgə dünya enerji bazarına mənbə və marşrutların şaxələndirilmiş bir nümunəsini töhfə verəcəyik".




"TAP, həmçinin "Cənub qaz dəhlizi"ni Cənub-Şərqi Avropa və Balkanlarda planlaşdırılan Yunanıstan-Bolqarıstan İnterkonnektoru (IGB), İon-Adriatik Qaz Kəməri (IAP), eləcə də Rumıniya-Bolqarıstan, BRUA (Bolqarıstan-Rumıniya-Macarıstan-Avstriya) ilə əlaqələndirərək Bolqarıstan, Xorvatiya, Monteneqro, Bosniya və Herseqovina və Avropanın bir sıra digər ölkələri üçün geniş perspektivlər aça və bölgəyə yeni təchizat mənbələrindən yararlanmaq imkanı gətirə bilər. Biz bu gün həmin məsələləri də müzakirə etdik" ,- deyə nazir qeyd edib.

Avropa Komissiyasının Enerji Direktorluğunun baş direktorunun müavini Klaus-Dieter BORXARDT bildirib ki, "Cənub qaz dəhlizi" enerji təhlükəsizliyi və davamlı inkişaf layihəsidir. Bu layihə artıq reallıqdır və öz ilkin faydalarını verməkdədir: "Cənub Qaz Dəhlizi enerji təchizatı, enerji təhlükəsizliyi, mənbə və marşrutların şaxələndirilməsi layihəsidir. "Cənub qaz dəhlizi" konkret ötürücülük gücünə malik kəmər deyil. O, ötürücülük gücü artırıla bilən 3 boru kəmərindən ibarət dəhlizdir. Düşünürük ki, "Cənub qaz dəhlizi"nin gələcəkdə miqyası daha da böyüyəcək və o səmərəli bir dəhliz kimi fəaliyyət göstərəcək".

İtaliyanın İqtisadi İnkişaf Nazirliyində Dövlət Katibi xanım Alessandra TODDE deyib ki, İtaliyanın cənubunda TAP-ın mikrotunelinin inşası tamamlanıb, Adriatik dənizində boruların düzülməsi işləri görülür. İtaliyada boru kəmərinin tikintisində də irəliləyişlər var. İtaliya hökumətinin TAP layihəsinə yüksək dəstəyi var. İtaliyanın mövqeyi ondan ibarətdir ki, "Cənub qaz dəhlizi" layihəsi enerji təhlükəsizliyi baxımından həm təchizatçılar, həm də istehlakçılar üçün bir şaxələndirmə mənbəyidir.

# Baş Nazirin müavini Misirin Azərbaycandakı səfirliyində başsağlığı verib



Azərbaycan Respublikasının Baş Nazirinin müavini Şahin Mustafayev fevralın 28-də Misir səfirliyinə gələrək Misir Ərəb Respublikasının 4-cü Prezidenti, görkəmli siyasət və dövlət xadimi Hüsnü Mübarəkin vəfatı ilə əlaqədar başsağlığı verib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Şahin Mustafayevi Misir Ərəb Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Adel İbrahim Ahmed İbrahim qarşılayıb. Baş Nazirin müavini Şahin Mustafayev Azərbaycan ilə Misir arasında mövcud olan dostluq münasibətlərini qeyd edərək əməkdaşlığımızın uğurla inkişaf etdiyini bildirib. Görüşün sonunda Şahin Mustafayev Azərbaycan hökuməti adından başsağlığı verib və matəm kitabına ürək sözlərini yazıb.

# Azərbaycan-Fransa Ticarət və Sənaye Palatası Təhsil nazirinin iştirakı ilə üzv şirkətlər üçün görüş təşkil edib

Fevralın 28-də Azərbaycan-Fransa Ticarət və Sənaye Palatası (CCIAF) Azərbaycan Respublikasının Təhsil naziri Ceyhun Bayramovun iştirakı ilə "Təhsil islahatları və onun özəl sektor üçün əhəmiyyəti" mövzusunda görüş təşkil edib.





Tədbirdə səfirliklərin və dövlət qurumlarının təmsilçiləri, üzv şirkətlərin direktor və nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, görüş CCIAF-ın idarəedici direktoru Zibər Hüseynova və İdarə Heyətinin sədri Teybə Quliyevanın açılış nitqi ilə başlanıb.

Sonra Fransanın Azərbaycandakı səfiri Zakari Qros çıxış edərək iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın vacibliyini vurğulayıb və bu kimi tədbirlərin təhsil, biznes, iqtisadiyyat sahəsində əlaqələrin genişləndirilməsi baxımından mühüm olduğunu qeyd edib.

Təhsil naziri Ceyhun Bayramov müvafiq sahədə aparılan son islahatlar, beynəlxalq əlaqələrin güclənməsi, peşə təhsilinin inkişafına dair görülən tədbirlər və özəl sektor ilə təhsil institutları arasında əməkdaşlıq perspektivləri barədə məlumat verib. Nazir uğurlu islahatların həyata keçirilməsi və əmək bazarının tələbatına uyğun kadr hazırlığı üçün biznes sahibləri ilə dövlət təhsil institutları arasında sıx əməkdaşlığın vacib olduğunu vurğulayıb. C.Bayramov bu istiqamətdə CCIAF-in səmərəli fəaliyyətini qeyd edərək Palata nümayəndələrinə təşəkkürünü bildirib, eləcə də həmin fəaliyyətin nəticələrindən biri kimi Palatanın üzvü UFAZ-ın digər üzv şirkətlərlə imzaladığı anlaşma memorandumlarını təqdirəlayiq hesab edib.

Tədbirdə Palatanın üzvləri olan UFAZ-ın icraçı direktoru Vazeh Əsgərov, ADA Universiteti Fondunun prezidenti Natiq Hacıyev də çıxış ediblər. Onlar universitetlərin beynəlxalq əməkdaşlıqları, təhsil proqramları və gələcək fəaliyyət planları barədə iştirakçılara məlumat veriblər.

Görüş sual-cavab, ardınca netvorkinq sessiyası ilə davam edib.

Xatırladaq ki, Azərbaycan-Fransa Ticarət və Sənaye Palatası 2016-cı ildən fəaliyyət göstərir. Palatanın əsas məqsədi iki ölkə arasında iqtisadi və dostluq münasibətlərini inkişaf etdirməkdir. Bununla yanaşı, üzvlərini unikal şəbəkələşmə imkanları ilə təmin etməkdir. Eyni zamanda, Palata məlumatlandırıcı və maarifləndirici rol oynamaqla, həm üzv şirkətlərə, həm də daha böyük biznes icmasına təsir edən aktual məsələləri hədəfləyərək hər ay rəsmi tədbirlər keçirir və üzv şirkətlərə Palatanın platforması vasitəsilə öz bizneslərini inkişaf etdirmək üçün yardım təklif edir.

Hazırda Palatanın 60-dan çox yerli, fransız və beynəlxalq üzv şirkəti var.

# Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, fevralın 28-də Gəncə, Şəki, Şamaxı, Zəngilan və Gədəbəydə sakinlərlə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib, bütün məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verilib. Bəzi müraciətlər yerində həll edilib. Araşdırma tələb edən müraciətlər nəzarətə götürülüb və onların həlli istiqamətində aidiyyəti üzrə göstərişlər verilib.

Görüşlərdə qeyd olunub ki, müxtəlif ölkələrdə gərginlik, qanlı toqquşmalar, müharibələr, kütləvi etiraz aksiyaları, polis zorakılığı, insan haqlarının kobudcasına pozulması, demokratik dəyərlərin tapdalanması müşahidə olunsa da, Azərbaycan sabitlik məkanı kimi inkişaf edir. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Xalq-iqtidar birliyi, həyata keçirilən siyasətə verilən yüksək qiymət həm iqtidarı daha da ruhlandırır, həm də ölkədə siyasi və iqtisadi sahələrdə sabitliyi təmin edir. Artıq 26 ildir ki, Azərbaycan sabitlik şəraitində yaşayır və bu illər ərzində ölkə çox böyük inkişaf yolu keçib.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlmiş bu tədbirlər bir daha təsdiqləyir ki, dövlət başçısının həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son vaxtlar sosial-iqtisadi sahədə aparılan əsaslı islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlərin davamıdır.

2019-cu il həm siyasi, iqtisadi, sosial sahələrdə, həm də kadr və struktur islahatları sahələrində dərin islahatlar ili kimi yadda qaldı. Bu islahatlar inkişafımızın bundan sonra daha da uğurlu olacağına imkan verir. 2019-cu ildə ümumi daxili məhsul 2,2 faiz artıb. Qeyri-neft sektorunda bu artım 3,5 faiz təşkil edib. Sənaye istehsalı 1,5 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 14 faiz yüksəlib. Kənd təsərrüfatı 7 faiz artıb, bitkiçilikdə bu artım 10 faizdən çox olub. İnflyasiya cəmi 2,6 faiz, əhalinin pul gəlirləri isə 7,4 faiz olub. Qeyri-neft ixracı 14 faiz artıb, valyuta ehtiyatları isə 6,4 milyard dollar çoxalaraq 51 milyard dollara çatıb. Adambaşına düşən valyuta ehtiyatlarına görə Azərbaycan MDB məkanında birinci yerdədir. Xarici ticarət dövriyyəsinin müsbət saldosu isə 6 milyard dollar təşkil edir. İqtisadi sahədə əldə edilmiş nəticələr və rəqəmlər artıq bir daha təsdiqləyir ki, bizim siyasətimiz düşünülmüş və nəticəyə hesablanmış siyasətdir.

Bildirilib ki, 2019-cu ildə Azərbaycanda ən böyük sosial paket reallaşdırıldı. Aparılmış islahatlar çox geniş sosial paketi həyata keçirməyə imkan yaratdı. Həm müasir Azərbaycanın tarixində, həm də MDB məkanında bu dərəcədə böyük sosial paket bugünə qədər reallaşmamışdır. Azərbaycan sovet vaxtından qalmış əmanətlərin qaytarılmasında da vətəndaşlar üçün ən məqbul prinsip tətbiq etdi və bu sahədə də MDB məkanında birinci oldu. 2019-cu ildə həyata keçirilən sosial paket 4,2 milyon insanı əhatə etdi və vətəndaşların maddi vəziyyəti yaxşılaşdı. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz, bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə artırıldı. Sosial sahədə gedən müsbət proseslər və vətəndaşların rifah halının yaxşılaşdırılması prioritet məsələ olaraq qalır. Sosial infrastrukturla bağlı böyük işlər görülüb, 60 tibb müəssisəsi, 84 məktəb tikilib və təmir edilib. Keçən il plandan əlavə 900-dən çox şəhid ailəsinə mənzil təqdim edilib. Şəhid ailələri və Qarabağ əlilləri üçün bu il daha çox ev tikiləcək. Belə ki, bu kateqoriyadan olan şəxslərə 1500 mənzil verilməsi nəzərdə tutulur. Ünvanlı sosial yardımla bağlı 70 faiz artım baş verib, bu proqram 72 min ailəni əhatə edir.

Keçirilən görüşlərdə, həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulmasının, insanlara layiqli xidmət göstərilməsinin, etik davranış qaydalarına əməl olunmasının vacibliyi vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün yaradılan rahat və əlverişli şəraitdən razılıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov fevralın 28-də Şirvan şəhərində daxili işlər orqanlarının fəaliyyətinə və səlahiyyətinə aid məsələlərlə əlaqədar növbəti qəbul keçirib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, general-polkovnik Vilayət Eyvazov əvvəlcə şəhərin mərkəzində, Ulu Öndərin adını daşıyan parkda Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoyub, əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra şəhər polis şöbəsində Şirvan da daxil olmaqla Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab və Saatlı şəhər və rayonlarından müraciət edən 25 nəfərlə görüşən nazir onların polis orqanlarının fəaliyyəti ilə bağlı müraciətlərini dinləyib, problemlərinin operativ şəkildə, mövcud qanunvericiliyə uyğun həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə konkret tapşırıqlar verib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə həllini tapıb.

Tədbirdə iştirak edənlər göstərilən diqqət və qayğıya, bölgələrdə mütəmadi olaraq vətəndaşların qəbulunun təşkilinə, icra orqanlarının rəhbərləri tərəfindən müraciətlərinə operativ münasibətə və həssas yanaşılmasına görə Azərbaycan Prezidentinə minnətdarlıq ediblər.

* * *

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin və onların müavinlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev fevralın 28-də İmişli şəhərində yerləşən Heydər Əliyev Mərkəzində İmişli, Beyləqan, Sabirabad, Kürdəmir, Biləsuvar rayonlarından və Şirvan şəhərindən olan vətəndaşları qəbul edib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, həmin gün nazir müavinləri Firdovsi Əliyev Füzuli, Rauf Hacıyev isə Zərdab rayonundan olan vətəndaşlarla görüşüblər.

Qəbullar zamanı ətraf mühitin və ekoloji tarazlığın mühafizəsi, meşələrin qorunması, biomüxtəliflik, hidrometeorologiya, ətraf mühitin monitorinqi və digər məsələlərlə bağlı vətəndaşların müraciət və təklifləri dinlənilib.

Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərləri üzrə nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

* * *

Qəbul cədvəlinə müvafiq olaraq Kənd Təsərrüfatı naziri İnam Kərimov fevralın 28-də Ucar Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Ucar, Kürdəmir və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 55 nəfərin müraciətinə baxılıb. Qəbula gələn vətəndaşların müraciəti əsasən fermerlərə güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə və digər məsələlərlə bağlı olub. Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

* * *

Fevralın 28-də Dövlət Gömük Komitəsinin (DGK) rəhbərliyi Xızı, Siyəzən, Şabran, Qobustan və Quba rayonlarının sakinlərini, eləcə də bu bölgələrdə məskunlaşan məcburi köçkünləri qəbul edib.

Komitənin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən bildirilib ki, DGK sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Xızı şəhərində Xızı, Siyəzən və Şabran rayonlarından olan vətəndaşları qəbul edib. Qəbulda vətəndaşların yalnız gömrük məsələləri ilə bağlı müraciətləri dinlənilib. Müraciətlər əsasən idxal-ixrac əməliyyatları zamanı rəsmiləşdirmə və digər gömrük məsələləri ilə bağlı olub.

Həmin gün Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov Qobustan şəhərində Qobustan rayonundan, sədr müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev isə Quba şəhərində Quba rayonundan olan vətəndaşları qəbul ediblər.

Qəbullar zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılmaqla vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

Baş Prokurorluğun mətbuat xidmətindən bildiriblər ki, Baş prokuror Zakir Qaralov fevralın 28-də Şirvan Şəhər Prokurorluğunun inzibati binasında Şirvan şəhərindən və Sabirabad rayonundan olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Zakir Qaralov bölgədə yaşayan 17 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

**AZƏRTAC**

# Hərbi hissələrdə psixoloji işə dəstək fəaliyyətləri davam etdirilir



Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin zabit və dövlət qulluqçularından ibarət işçi qrupu tərəfindən hərbi hissələrdə gənc əsgərlərin sosial-psixoloji cəhətdən öyrənilməsi, hərbi xidmətə adaptasiya olunması, xidmət və məişət şəraitinin düzgün təşkili istiqamətində yerinə yetirilən psixoloji işə dəstək fəaliyyətləri yerinə yetirilib.



Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, plana uyğun olaraq hərbi qulluqçularla psixoloji testlərin keçirilməsi, kollektivlərdə sosial-psixoloji proseslərin və qarşılıqlı münasibətlərin öyrənilməsi mövzularında təlim-metodiki məşğələlər keçirilib.

Məşğələlərdə hərbi qulluqçuların temperament tipinin, hərbi kollektivlər daxilindəki münasibətlərin öyrənilməsi, hərbi qulluqçuların psixoloji dayanıqlığının müəyyən edilməsi prosesləri nəzəri və praktiki cəhətdən izah edilib. Bundan əlavə ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlərə şəxsi heyətin milli-mənəvi dəyərlərə sadiqlik, dövlətçilik və vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində tövsiyələr verilib, gənc əsgərlərlə tərbiyəvi mövzularda maarifləndirici söhbətlər aparılıb.

# Bakıda BMT75 təşəbbüsünün Azərbaycanda başlanılmasına həsr olunmuş tədbir keçirilib





BMT-nin Bakıdakı nümayəndəliyi ADA Universiteti ilə birgə dünyanın gələcəyinə dair ən böyük qlobal müzakirə olan BMT75 təşəbbüsünün Azərbaycanda başlanılmasına həsr olunmuş tədbir təşkil edib.

AZƏRTAC xəbər verir ki, tədbirdə 80-ə yaxın dövlət rəsmisi, diplomat, vətəndaş cəmiyyəti və gənclər təşkilatlarının nümayəndəsi, eləcə də akademik dairələr və kütləvi informasiya vasitələrinin təmsilçisi iştirak ediblər.

BMT75 dialoqları "Bir dəqiqəlik sorğu" ilə birlikdə milli və beynəlxalq siyasət və müzakirələrə töhfə vermək üçün səhih məlumatlar əldə etməyə imkan yaradacaq. Formalaşmış fikir və ideyalar dünya liderləri və BMT-nin yüksək rütbəli rəsmilərinə bu ilin sentyabrın 21-də BMT-nin 75 illik yubileyi münasibətilə keçiriləcək yüksəksəviyyəli tədbir zamanı təqdim ediləcək.

"BMT75, sadəcə, yubiley münasibətilə keçirilən bir bayram tədbiri olmayacaq. Bu, BMT-nin qorxu və münaqişələrdən azad dünya vədinin daha yaxşı həyata keçirməsini təmin etmək üçün sizinlə birgə işləmək, habelə müxtəlif strategiya və təkliflərinizi dinləmək ili olacaq", - deyə BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai bildirib.

ADA Universitetinin Azərbaycanda BMT75 dialoqlarının başlamasına evsahibliyi etməkdən məmnunluq duyduğunu bildirən ADA Universitetinin icraçı prorektoru Fariz İsmayılzadə bu dialoqların milli perspektivlərimizi beynəlxalq auditoriya ilə bölüşmək, eləcə də beynəlxalq əməkdaşlıq və çoxtərəflilik prinsipinin gələcəyini müzakirə etmək üçün bir fürsət olacağına inamını ifadə edib.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev BMT-nin qlobal müharibələrin qarşısı almaq məqsədi daşıdığını bildirərək deyib: "Hər kəs çalışmalıdır ki, bəşəriyyət yeni bir qlobal müharibə ilə üzləşməsin. BMT dünyada sabitliyin güclənməsi istiqamətində fəaliyyət istiqamətlərini genişləndirir. Ölkələr bu cür xoşməramlı tədbirlərə dəstək verməlidirlər".

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva qeyd edib ki, BMT 75 il ərzində universal təşkilat kimi fəaliyyət göstərib. Dünyada sülhün qorunması sahəsində tədbirlər görür. Buna baxmayaraq, bu gün dünyanın təhlükəsizlik məsələsi mürəkkəb hal alır. O qeyd edib ki, Azərbaycan BMT-nin üzvü olaraq sülhməramlı tədbirlərdə fəal iştirak edir. Azərbaycan yoxsulluğun aradan qaldırılması və regionda sülhün bərpa olunması kimi missiyaların reallaşdırılması istiqamətində mühüm tədbirlər görür.

Panel müzakirələri zamanı BMT75 təşəbbüsünün il ərzində müzakirə edəcəyi üç əsas sual ətrafında fikir mübadiləsi aparılıb. Bunlar "Hansı gələcəyi qurmaq istəyirik?", "Biz düzgün yoldayıqmı?" və "Boşluğu aradan qaldırmaq üçün hansı addımları atmalıyıq?" suallarıdır. Görüşdə, həmçinin gələcək nəsillər üçün daha yaxşı dünyanın qurulmasında hökumətlər, biznes və vətəndaş cəmiyyəti təşkilatlarının rolu və vəzifələri müzakirə edilib.

# Operativ qərargah Azərbaycanda ilk koronavirus infeksiyasına yoluxma faktını təsdiq etdi

Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında operativ qərargah Azərbaycanda ilk koronavirus (COVİD-19) infeksiyasına yoluxma faktının qeydə alındığını təsdiq edib.

Operativ qərargahdan AZƏRTAC-a bildiriblər ki, xəstələnən şəxs Rusiya Federasiyasının vətəndaşıdır. İran İslam Respublikasından Azərbaycana daxil olarkən onda xəstəliyin əlamətləri müəyyən olunub, həmin şəxs xəstəxananın xüsusi rejimli infeksion boksunda yerləşdirilib. Aparılmış müayinələr və testlər nəticəsində koronavirusa yoluxma testi müsbət nəticə verib. Hazırda pasiyentin vəziyyəti sabitdir.

Xəstəxana pasiyenti müvafiq terapiya ilə təmin etmək və infeksiyanın yayılmasına yol verməmək üçün peşəkar həkim heyətinə və ixtisaslaşmış avadanlığa malikdir.

Bundan başqa, virusun yayılmasının məhdudlaşdırılması və onun arzuolunmaz nəticələrə yol açmasının qarşısının alınması üçün müvafiq tədbirlərin həyata keçirilməsinə, o cümlədən bütün lazımi məlumatları əldə etmək məqsədilə virusun mənbəyinin və yayılma yollarının, digər yoluxma hallarının aşkarlanması ilə bağlı xəstənin əlaqədə olduğu şəxslərin müəyyən edilməsinə başlanılıb.

# *Operativ qərargah:* “Karantin normalarını pozan hər kəsə qarşı qanunun tələblərinə uyğun şəkildə tədbirlər görüləcək”

İran İslam Respublikasından Azərbaycan ərazisinə keçən və yoxlanılmaq üçün karantin yerlərinə götürülmüş şəxslər və onların yaxınları bəzi hallarda ictimai qaydaları kobudcasına pozur, tibbi heyətə qarşı zor tətbiq edir, müayinənin normal şəraitdə aparılmasına mane olurlar.

Koronavirusun yayılması təhlükəsinə qarşı görülən tədbirlərin normal şəraitdə həyata keçirilməsini təmin etmək məqsədilə Nazirlər Kabineti yanında operativ qərargah hüquq mühafizə orqanlarına belə halların qarşısının alınması ilə bağlı göstəriş verib.

Nazirlər Kabineti yanında operativ qərargahdan AZƏRTAC-a verilən məlumata görə, karantin normalarını pozan, tibbi heyətin normal iş rejiminə mane olan hər bir şəxsə qarşı qanunun tələblərinə uyğun şəkildə tədbirlər görüləcək.

Qərargahın tapşırığı ilə hüquq mühafizə orqanları asayişin qorunması istiqamətində işləri davam etdirəcəklər.

# Astarada Fövqəladə Hallar Nazirliyinin səyyar mobil hospitalı quraşdırılıb






İran İslam Respublikasında yeni tip koronavirusa yoluxma və ölüm hallarının aşkarlanması ilə əlaqədar olaraq, fevralın 28-dən Astara sərhəd-buraxılış məntəqəsinə yaxın ərazidə Fövqəladə Hallar Nazirliyinin (FHN) səyyar mobil hospitalı fəaliyyət göstərir.

Nazirliyin Tibb Mərkəzinin rəisi, tibb xidməti polkovniki Kamal Əliyev AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, ərazidə 450 çarpayılıq 59 çadır quraşdırılıb. Burada quraşdırılan hospitalda dövlət sərhəd buraxılış məntəqəsini keçən bütün vətəndaşlar müayinə olunacaqlar. Müayinələr zamanı vətəndaşlarda hər hansı bir xəstəlik aşkar olunarsa, həmin şəxslər təcili tibbi yardım maşınları ilə xüsusi ixtisaslaşdırılmış xəstəxanalara göndəriləcək.

Sərhədi keçən vətəndaşların müayinəsi 8 həkim və 8 tibb işçisi tərəfindən aparılacaq.

Fevralın 29-dan başlayaraq səyyar mobil hospitalda dövlət sərhədini keçən vətəndaşların müayinəsinə başlanılacaq. Ərazidə görülən işlərə FHN-nin 100 nəfər şəxsi heyəti, 20 texnikası cəlb olunub. Astara ilə yanaşı, Biləsuvar gömrük-sərhəd buraxılış məntəqəsində də səyyar mobil hospital fəaliyyətə başlayıb.

Qeyd edək ki, koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət qərargah yaradılıb. Qabaqlayıcı tədbirlərin görülməsi və Azərbaycan Respublikasının bütün ərazilərində monitorinqin aparılması üçün aidiyyəti sahə mütəxəssislərindən ibarət ekspert qrupları təşkil olunub. Həmçinin əhalinin məlumatlandırılması və əsassız dezinformasiyaların qarşısının alınması məqsədilə qərargahın +994 12 492 41 61, +994 12 492 75 54, +994 12 505 03 30, + 994 12 505 13 33 nömrəli “qaynar xətləri” fəaliyyət göstərir.

# Koronavirusla mübarizə məqsədilə Biləsuvar gömrük-sərhəd buraxılış məntəqəsində səyyar hospitallar fəaliyyətə başlayıb

**Koronavirus təhlükəsinin Azərbaycan ərazisində yayılmasının qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir.**





Qərargahın qəbul etdiyi qərara əsasən İran İslam Respublikası ilə sərhəd-keçid məntəqələrindən Azərbaycan ərazisinə daxil olan şəxslərin ilkin müayinəsini təşkil etmək məqsədilə Fövqəladə Hallar Nazirliyinin çadırlardan ibarət səyyar hospitalları yaradılır. Artıq Biləsuvar gömrük-sərhəd buraxılış məntəqəsində belə hospitallar fəaliyyətə başlayıb.

Fövqəladə Hallar Nazirliyinin rəsmisi Elçin Əligülov AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, dünəndən etibarən Biləsuvar gömrük-sərhəd buraxılış məntəqəsində hər biri 5 nəfərlik olmaqla, 100 çadır quraşdırılıb. Həmin çadırlarda 6 nəfərdən ibarət həkim briqadası çalışır. Səyyar hospitallarda sanitar qovşaq və mətbəx də var. İlkin müayinədən keçmiş və xəstəlik müəyyən olunmamış şəxslər heç bir maneə olmadan yollarına davam edə biləcəklər. Xəstəliyin əlamətləri aşkar edildiyi hallarda, həmin şəxslər həkim nəzarəti altında xəstəxanalara göndəriləcəklər.

Qeyd edək ki, koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət qərargah yaradılıb. Qabaqlayıcı tədbirlərin görülməsi və Azərbaycan Respublikasının bütün ərazilərində monitorinqin aparılması üçün aidiyyəti sahə mütəxəssislərindən ibarət ekspert qrupları təşkil olunub. Həmçinin əhalinin məlumatlandırılması və əsassız dezinformasiyaların qarşısının alınması məqsədilə qərargahın +994 12 492 41 61, +994 12 492 75 54, +994 12 505 03 30, + 994 12 505 13 33 nömrəli “qaynar xətləri” fəaliyyət göstərir.

# Koronavirus sərhəd tanımır

Çinin hüdudlarından kənarda koronavirusa yoluxmuş adamların sayı 4184 nəfər təşkil edir. 70 nəfər dünyasını dəyişmişdir. Bu barədə Dünya Səhiyyə Təşkilatı məlumat vermişdir. Eyni zamanda Çinin materik hissəsində xəstələrin sayı 78630 nəfərə çatmışdır. 2747 nəfər vəfat etmişdir.

Beləliklə, dünyada koronavirusa yoluxmuş adamların ümumi sayı 82814 nəfərdir. Bu arada İranın vitse-prezidenti Məsumə Əbtəkar koronavirusa yoluxmuşdur. COVİD-19 daha 4 iranlı deputatda aşkar edilmişdir. Lakin ölümcül virusa yoluxmuş deputatların adları açıqlanmamışdır. Srağagün gecə Çinə rəsmi səfərdən qayıtmış Monqolustan Prezidenti Xaltmaqiyn Battulqa və onu müşayiət edən şəxslər 14 günlük karantin keçəcəklər.

Prezident və Xarici İşlər naziri Bayanzurx rayonundakı xəstəxanaya köçürülmüşlər. Digər müşayiət edən şəxslər Jarlaqantdakı sanatoriyada karantində olacaqlar.



# Sağlıq olsun

# Dünyanın taclı bəlası

**Həkim məsləhəti**



**Dünyanı vahiməyə salan koronavirusun adı latınca korona (tac, çələng) mənasını verir. Bu ad virusa Günəş saçaqlarını xatırladan görüntüsü ilə əlaqədar verilib. Koronaviruslar ilk dəfə 1960-cı illərdə toyuqlarda infeksion bronxit virusu kimi ortaya çıxıb. Zamanla bu virus ailəsinin digər üzvləri də kəşf edilib, məsələn, 2002-ci ildə SARS-CoV, 2004-cü ildə HCoV NL63, 2005-ci ildə HKU1in, 2012-ci ildə MERS-CoV.**

Yeni koronavirus isə 29 dekabr 2019-cu ildə Çinin Uhan şəhərindəki dəniz məhsulları və canlı heyvan satan bir marketdə işləyən 4 nəfərdə və eyni günlərdə bu marketi ziyarət edən bir çox insanda ağciyər infeksiyası (pnevmoniya) əlamətlərinin aşkar edilməsi ilə ortaya çıxıb. Xəstələrdən alınan nümunələrin analizi nəticəsində 7 yanvarda xəstəliyə səbəb olan virusun SARS və MERS kimi koronavirus ailəsindən olduğu dəqiqləşib və virusa “Yeni koronavirus 2019” (2019-nCoV) adı verilib.

## İnsandan insana yoluxabilmə xüsusiyyəti

İnfeksion xəstəliklər və klinik mikrobiologiya uzmanı Vasif Əliyev məlumat verir ki, koronaviruslar insanlar arasında xəstəlik yaradan, bəzi heyvan növlərində (pişik, dəvə, yarasa) aşkar edilə bilən geniş bir virus ailəsidir. Heyvanlar arasında yayılan koronaviruslar zaman içində dəyişiklik göstərərək, insana yoluxma qabiliyyəti qazana bilib və beləliklə, insanlarda da görünməyə başlayıblar. Bu virusların insandan insana yoluxabilmə xüsusiyyətinin bilinməsindən sonra vəziyyətin daha ciddi olduğu və daha böyük epidemiyalara səbəb ola biləcəyi ehtimalı dünyada təşviş yaradıb.

Həkim bildirir ki, xəstəlik 2-14 gün davam edən inkubasiya dövründən sonra ani başlayan yüksək hərarət (39 dərəcə), öskürək və çətinliklə nəfəsalmada özünü büruzə verir. Bəzi xəstələrdə boğaz ağrısı və burun axıntısının da olduğu görünür. Ağır formada xəstələnən və ölən insanların böyük qismini 65 yaşdan yuxarı, xroniki xəstəlikləri (ağciyər xəstəlikləri, orqan çatışmazlıqları, onkoloji xəstəliklər, diabet, immun sistemi zəiflədən xəstəliklər) olan insanlar əhatə edir. Gənc və sağlam insanlarda xəstəlik nisbətən daha yüngül formada keçir: “Yeni koronavirusun digər koronaviruslar kimi, tənəffüs yolu ilə yoluxduğu düşünülür. Xəstə insanlardan öskürək, asqırma, gülmə, danışma zamanı ətrafa yayılan virusu daşıyan damlacıqlar sağlam insanların selikli qişalarına təmas edərək bu insanların yoluxmasına səbəb olur. Xəstəliyin bu formada insandan insana yoluxması üçün yaxın təmas (1 metrdən yaxın) olmalıdır”.

## Xəstəlikdən qorunmaq üçün ən effektiv yol...

“Xəstəlikdən qorunmaq üçün hər hansı peyvənd yoxdur” deyən həkim qeyd edir ki, bu səbəbdən qorunmada hələlik ən effektiv yol virusla (xəstə insanlarla) təmasdan qaçmaqdır. Tənəffüs yolu infeksionuna səbəb olan bir çox virusun (qrip, zökəm virusları və s.) insanların arasında yayılmaqda olduğu qış aylarında sadəcə 2019-nCoV-dan deyil, digər bütün tənəffüs yolu xəstəliklərinə səbəb ola biləcək viruslardan da qorunmaq üçün əl təmizliyinə diqqət edilməsi, çirkli əllərin göz, ağız və buruna təmas olunmaması çox vacibdir: “Hələlik koronaviruslara təsir göstərdiyi isbatlanmış hər hansı bir dərman da yoxdur. Bu səbəbdən xəstələrə şikayətlərini azaldan və əgər orqan zədələnməsi baş veribsə, zədələnmiş orqanın funksiyasının bərpasını dəstəkləyən müalicələr verilir”.

***Yasəmən MUSAYEVA, “Azərbaycan”***

## Özünüzü və başqalarını belə qoruyun

**Ümumdünya Səhiyyə Təşkilatı, Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin koronavirusla bağlı əhaliyə tövsiyələri:**

- özünüzü xəstəlikdən qoruyun;
- əllərinizi yuyun: öskürdükdən və asqırdıqdan sonra, xəstələrə qulluq edərkən, yemək hazırlayarkən, yemək yeməzdən əvvəl buna əməl edin;
- əllər vizual olaraq çirkli göründükdə onları sabun və su ilə yumağı və ya spirt tərkibli təmizləyicidən (dezinfectant) istifadəni unutmayın;
- öskürərkən və ya asqırarkən ağız və burnunuzu dəsmal, köynəyinizin qolu və ya dirsək bükümünüzlə örtün;
- istifadə olunmuş dəsmalları qapalı zibil qutusuna atın;
- xəstələrə qayğı göstərərkən və öskürdükdən, asqırdıqdan sonra əllərinizi yuyun;
- xəstə insanlarla (onların gözlərinə, burnuna və ya ağzına toxunmaq) və ev, ferma və ya vəhşi heyvanlarla qorunmamış təmasdan çəkinin;
- qida təhlükəsizliyini tətbiq edin;
- çiy ət və bişmiş qidalar üçün müxtəlif doğrama lövhələrindən və bıçaqlardan istifadə edin;
- əllərinizi çiy və bişmiş qidalara toxundurduqda yuyun;
- ət məhsullarını və yumurtanı tam bişirin;
- xəstə və ölü heyvanlar yeyilməməlidir.

**heyvan bazarlarında alış-veriş və iş:**

- heyvanlara və heyvan məhsullarına toxunduqdan sonra əlləri sabun və su ilə yuyun;
- xəstə heyvan və korlanmış ətlə təmasdan çəkinin;
- sahibsiz heyvanlardan, bazarda olarkən ümumi və maye tullantılardan çəkinin;
- heyvanlar və heyvan tullantıları ilə işlədikdən sonra əllərinizi sabunla yuyun;
- avadanlıq və iş sahəsini gündə ən azı bir dəfə dezinfeksiya edin;
- heyvanlar və heyvan məhsulları ilə işləyərkən qoruyucu xalat, əlcək və qoruyucu maska (üz qoruyucusu) geyinin;
- işdən sonra qoruyucu geyimləri çıxarın, yuyun və iş yerində saxlayın;
- ailə üzvlərini çirklənmiş geyim və ayaqqabı təsirinə məruz qoymaqdan çəkinin.

**Düzgün qidalanma**

## Xaş koronavirusdan qoruyur?



**Türkiyəli məşhur həkim, professor Canan Karatay bildirib ki, xaş (kəllə-paça) yeməklə bütün qrip növlərindən, o cümlədən koronavirusdan qorunmaq olar.**

Həkim xaşın bütün yaşlarda olan insanlara faydalı olduğunu, xüsusilə yaşlılarda olan müxtəlif ağrıları aradan qaldırdığını da deyib: “Xaş immuniteti gücləndirir və belə insanlar xəstələnmir, xəstələnsə də ölüm halı olmur”.

Bədəni gücləndirmək üçün həyat tərzi də önəmlidir - söyləyən professor qeyd edir ki, qış aylarında təmiz havada olmaq lazımdır. Çünki qışda isti yer soyuqdan daha təhlükəlidir. Evlərin içində olan toksin və kimyəvi vasitələr təhlükəli olduğuna görə mütəmadi olaraq otaqların havasını dəyişmək vacibdir. Bundan başqa, qaya duzu qatılmış su (duzu içə bildiyiniz miqdarda tökün) içmək lazımdır. Faydalı bakteriyaların sayını artırmaq üçün qış tərəvəzlərindən kələm, turp, sarımsaq, soğan, çuğundur, kərəviz yeyilməli, kərə yağı, təbii yolla hazırlanmış zeytun yağı istifadə olunmalıdır. Evdə hazırlanan qatıq və turşu da menyuda yer almalıdır.

**Şəfalı bitkilər**

## Koronavirusun iki qənimi var

**Tanınmış rusiyalı lor-həkim Vladimir Zaytsev immun sistemini möhkəmləndirərək koronavirusdan qoruya biləcək 2 məhsulun adını açıqlayıb.**



Belə ki, az miqdarda və hər gün istehlak olunan sarımsaq və zəncəfil orqanizmin viruslara qarşı davamlılığını artırır, virus və iltihab əleyhinə təsir edir. Mütəxəssis qeyd edib ki, mədə-bağırsaq sisteminə zərər vurmamaq üçün sarımsağı gündə 2 dəfə 1 diş olmaqla yemək lazımdır. Xora, qastrit, mədənin turşuluğunun azalması zamanı isə sarımsaq yemək olmaz.

**Yenilik**

## Süni intellekt insanların maskasını “açacaq”

**Çində insanları maska, şərf və saxta saqqalda müəyyənləşdirən yenilənmiş sifətin tanınması sisteminin tətbiqinə başlanılıb. Bu islahat koronavirusun yayılmasına görə əhalinin əksər hissəsinin tibbi maskalardan istifadə etməsi ilə izah olunur.**



Koronavirus yayıldıqdan bir neçə həftə sonra Çində milyonlarla insan 95 nömrəli cərrahi maska və respirator taxmağa başlayıb. Bu, “SenseTime” süni intellekt istehsalçısının məhsullarının sifətin tanınması üçün adaptasiya olunması ilə nəticələnib.

“South China Morning Post” nəşrinin məlumatına görə, bu texnologiya yeni deyil. Belə ki, 2017-ci ildə Stenford Universitetinin aspirantı Amarcot Sinqh və onun qrupu tərəfindən maskalı sifətlərin identifikasiyası üzrə tədqiqat dərc edilib. Bu tədqiqat eynəkli, saxta saqqallı, şərf və şlyapa taxan insanların tanınmasında irəliləyiş olub: “Süni intellekt insan sifətində bir neçə əsas nöqtəni müəyyənləşdirir və onları birləşdirməklə şəxsi identifikasiya edir və bu, insan üçün xarakterik olan unikal imzanı yaradır”. A.Sinqh tərəfindən hazırlanan sistem yalnız göz və burun ətrafındakı əsas açıq nöqtələrə görə maskalı insanları tanıyır.

**Sağlam həyat**

## Peyvənd tapılsa da...




**Koronavirusa qarşı peyvənd tapılıb, amma hələlik tətbiq edilməsi üçün sınaq testləri həyata keçirilir. Bu barədə Çinin Rusiyadakı səfiri Zhang Hanhui bəyanatla çıxış edib.**

Səfir deyib ki, ölkəsinin elm adamlarının da iştirakı ilə tapılan dərman koronavirusa qarşı təsirini göstərib və hazırda sınaqlar uğurla davam etdirilir. O əlavə edib ki, dərman üzərində aparılan sınaq testləri qısa müddətə başa çatdırılacaq. Virusun yayılması mərkəzində həyatın martın sonuna qədər bərpa olunması planlaşdırılır.

# İŞİMİZ, GÜZƏRANIMIZ




**Keçən il fondun gəlirləri 12,4 faizdən çox artaraq 43,3 milyard dolları üstələmişdir**

# ARDNF 2019-cu ilin gəlir və xərclərinə dair hesabatını açıqlayıb

**Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) yaydığı məlumatda bildirilir ki, 2019-cu il ərzində ARDNF-nin büdcə gəlirləri 19 milyard 30,6 milyon, büdcə xərcləri isə 11 milyard 588,6 milyon manat olmuşdur.**

Ötən il ARDNF-nin neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 15 milyard 404,7 milyon, o cümlədən mənfəət neftinin və qazın satışından 14 milyard 614,7 milyon, bonus ödənişləri 766,4 milyon, akrhesabı ödənişləri 4,7 milyon, tranzit gəlirləri 18,9 milyon manat təşkil etmişdir. Hesabat ilində fondun vəsaitinin idarə olunmasından əldə edilən gəlirlər isə 3 milyard 625,9 milyon manata bərabər olmuşdur ki, bu da ümumi gəlirlərin 19,1 faizi qədərdir. Bundan əlavə, il ərzində valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı ARDNF-nin büdcədənkənar gəliri 731,7 milyon manata çatmışdır.

Məlumatda həmçinin açıqlanır ki, keçən il ARDNF-nin 2019-cu il büdcəsinin icrası çərçivəsində 11 milyard 364,3 milyon manat vəsait dövlət büdcəsinə transfert edilmiş, qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 200 milyon manat vəsait ayrılmışdır. 2019-cu ildə ARDNF-nin idarə edilməsi ilə bağlı xərcləri isə 24,3 milyon manat olmuşdur.

ARDNF-nin hesabatında bildirilir ki, 2020-ci il yanvarın 1-nə fondun aktivləri 2019-cu ilin əvvəlinə (38 milyard 515,2 milyon ABŞ dolları) nisbətən 12,48 faiz artaraq 43 milyard 323,3 milyon ABŞ dollarına çatmışdır. Aktivlərin artımı ARDNF-nin büdcə gəlirləri, o cümlədən vəsaitlərin idarə edilməsindən əldə edilən gəlirlər hesabına olmuşdur. Müvafiq dövr ərzində ən yüksək gəlirlilik səhm alt portfelində müşahidə olunmaqla investisiya portfelinin hər bir tərkib aktiv növü üzrə müsbət gəlirlilik qeydə alınmışdır. Belə ki, səhm alt portfeli üzrə ötənilki mənfi gəlirliliyə baxmayaraq (-6,6 faiz), 2019-cu il ərzində müvafiq göstərici 21,5 faiz (özəl səhmlər daxil olmaqla) təşkil etmişdir.

# Ümumi investisiyanın 70,6 faizi məhsul istehsalı sahələrinin inkişafına yönəldilib

*Əvvəli 1-ci səh.*

Prezidentin tövsiyəsi ilə kənd təsərrüfatı sektoruna kapital qoyuluşu artıb. Bu hesaba indi regionlarda aqroparklar və iri fermer təsərrüfatları yaradılır. 33 rayonda 51 aqropark və iri fermer təsərrüfatının yaradılmasının planlaşdırılması da bunu təsdiqləyir. Keçən il isə 16 aqropark və iri fermer təsərrüfatında görülən işlər başa çatıb, məhsul istehsalına başlanılıb.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar ayında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 996,7 milyon manat və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,6 faiz çox vəsait yönəldilib. Bu artım daha çox neft-qaz sektoruna yatırılan investisiyaların 28,8 faiz artması ilə bağlıdır. Qeyri-neft sektoruna yönəldilən vəsaitin həcmi də artıb. Ümumi sərmayənin 703,7 milyon manatı məhsul istehsalı, 174,3 milyon manatı xidmət sahələrinin, 118,7 milyon manatı isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Ölkədə sahibkarlığın inkişafı sərmayə qoyuluşunda özünü açıq şəkildə büruzə verir. Belə ki, həmin dövrdə yatırılan sərmayənin 73,5 faizi qeyri-dövlət sektorunun payına düşüb. Daxili mənbələrdən əsas kapitala yönəldilən vəsaitin dəyəri isə ümumi sərmayənin 61,1 faizini təşkil edib.

Yanvar ayında əsas kapitala yönəldilən sərmayədə müəssisə və təşkilatların vəsaitləri 734,2 milyon, bank kreditləri 11,8 milyon, büdcə vəsaitləri 141,3 milyon, büdcədənkənar fondların vəsaitləri 33,8 milyon, əhalinin şəxsi vəsaitləri 67,4 milyon, digər vəsaitlər isə 8,2 milyon manat təşkil edib.

Cari ilin ilk ayında həmçinin xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala vəsait yönəldilib - 387,6 milyon manat. Bu vəsaitin 371,4 milyon manatı Birləşmiş Krallıq, ABŞ, Yaponiya, Türkiyə, Norveç, İsveçrə, Malayziya, Rusiya və İran sərmayədarlarına məxsus olub.

***Rüstəm KAMAL,* *"Azərbaycan"***




*Əvvəli 1-ci səh.*

Bu istiqamətdə həmçinin tədris-hazırlıq kursları təşkil edilərək 2 mindən artıq xalçaçı yetişdirilmişdir. Bu illər ərzində xalça istehsalı üçün zəruri xammal bazasının yaradılması məqsədilə Sumqayıt Kimya Sənaye Parkında "Azərxalça" ASC-nin Yun-Əyirici Boyaq Fabrikinin tikintisi də başa çatdırılmışdır.

Azərbaycan xalçasının getdikcə artan şöhrətindən söz düşəndə öncə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ciddi səyləri nəticəsində bizim xalçaların dünya mədəniyyətinin nailiyyətlərindən biri kimi UNESKO-nun bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilməsini qeyd etmək lazımdır.

Bu gün dünyanın 30-dək muzeyində Azərbaycan xalçaçılıq sənətinin ən qədim nümunələri ziyarətçilərin ixtiyarına verilmişdir. O üzdən Azərbaycan xalça məktəbi dünyanın ən güclü tədqiqatçıları tərəfindən dərindən araşdırılır, tədqiq edilir. Çünki Azərbaycan xalçası mahiyyət etibarilə dərin fəlsəfi məzmuna malik olub, mədəniyyətimizin, tariximizin, adət və ənənələrimizin, inanclarımızın və həyat tərzimizin ayrılmaz bir hissəsidir. Eyni zamanda xalçalarımız dastan və nağıllarımızdan canlı bir surət kimi keçir, bizə dünyanın əksər xalqlarından fərqlənməyə imkan verir. Bəzi xalqların nağıllarında özü açılıb-yığılan süfrə, möcüzəli soba, uçan süpürgə yer alırsa, bizim nağıllar uçan xalçaların naxışlarından, qaranlıqdan aydınlıqlara can atan simurq quşunun qanadlarından pərvazlanır.

Fevralın 12-də "Azərxalça" ASC-nin Kürdəmir filialının açılışında Prezident İlham Əliyevin iştirak etməsi də ölkədə xalçaçılığın qədim sənət növü kimi inkişafına göstərilən xüsusi qayğıdan xəbər verir. Yeni filialın emalatxanasında müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunarkən bu ərazilərə məxsus qədim və orijinal xalça naxışlarına üstünlük veriləcəyi şübhəsizdir.

Dövlət başçısı xalçaçılarla görüşündə ölkədə 32 fabrikin açılmasının nəzərdə tutulduğunu bildirdi, Kürdəmirdə açılan filialın 11-ci olduğunu diqqətə çatdırdı: "Bu, çox müsbət haldır. Bir tərəfdən, vətəndaşları iş yerləri ilə təmin edirik, xüsusilə qadınları. Digər tərəfdən, bizim qədim sənətimiz, xalçaçılıq sənəti inkişaf edir. Siz də bu sənəti yaşadırsınız və öz təcrübənizi, biliklərinizi gənc nəsil ilə bölüşürsünüz. Beləliklə, həm özünüz üçün yeni imkanlar əldə edirsiniz, eyni zamanda, ölkəmizin gələcək uğurlu inkişafı istiqamətində də mühüm töhfə verirsiniz".

Prezident İlham Əliyev onu da xatırlatdı ki, Azərbaycan xalçalarına dünyada tələbat getdikcə artır, xarici qonaqlar xalçalarımızla daha çox maraqlanırlar: "Nəzərə alsaq ki, keçən il ölkəmizə 3 milyon 170 min xarici qonaq gəlib və bu il daha da artacaq, ona görə bizim xalçalarımıza tələbat çoxalacaq. Sizin işiniz daha da çox olacaq".

Həqiqətən, xalçalarımıza tələbatın artması danılmaz gerçəklikdir. Xalça qədim sənət növü, keçmişin atributu sayılsa da, müasir dizayn və interyer tərtibatı ilə məşğul olan mütəxəssislərin bizim xalçalara müraciət etməsi müasir dəbə çevrilmişdir. Bu gün həm Şərqdə, həm də Qərb ölkələrində ən məşhur dizaynerlər yaradıcılıqlarında əldə toxunan xalılara xüsusi diqqət ayırırlar. Prada, Quççi, Fendi kimi dəb evləri xalça istehsalı ilə məşğul olmaqla dünya bazarında yeni rəqabət mühiti yaradır, xalçalardan ağla batmayan məqsədlər üçün istifadə edirlər. İndi böyük konsertlərdə akustika, səhnədə rəqs edən və oxuyan müğənnilərin təhlükəsizliyini təmin etmək üçün xalçalardan istifadə olunur. Hətta bu gün elə musiqiçilər var ki, dünya turnelərinə mütləq sevimli xalıları ilə çıxırlar.

Bizdə qədimdə olduğu kimi, xalçaların divara vurulması da dizaynerlərin ciddi müzakirə etdiyi mövzulardandır. Qərbdə dizaynerlər sifarişçilərinə divarlarındakı rəsm əsərlərini xalça ilə əvəz etməyi, kiçik xalçaları mətbəxə döşəməyi təklif edirlər. Bir sözlə, bir tendensiya kimi aydın sezilən odur ki, dünyanın xalça bazarını ələ keçirmək üçün rəqabət qızışır və burada qələbə çalmaq, irəli sıçramaq getdikcə çətinləşir.

Amma məsələ burasındadır ki, bizim xalçalarda naxışların gözəlliyi, ilmələrin sıxlığı, rənglərin və rəsmlərin ecazkarlığı qarşısında avropalı rəqiblər acizdir. Bir cümlə ilə desək, bu, onların xörəyi deyil. Çünki onlar bizim kimi ilmələrin, naxışların sehrini anlaya bilməzlər. Çünki avropalı üçün xalça sadəcə gözəllik rəmzi, dizayn elementidirsə, bizim üçün xalça müqəddəsdir, keçmişimizin və gələcəyimizin rəmzidir. Yaponlar foto və video, ispanlar geyim, almanlar texnika və maşın, ingilislər bağ avadanlığı, amerikalılar şouları ilə öyünə bilərlər və haqları da var. Xalçalara gəldikdə, bizimlə rəqabətə girə bilməzlər. Odur ki, bu sahədə Azərbaycanın dünyada liderə çevrilmək şansının olduğu danılmazdır.

***Bahadur İMANQULİYEV,* *"Azərbaycan"***

## CİS əsasında interaktiv elektron torpaq xəritələri hazırlanıb

**Kənd Təsərrüfatı Nazirliyi ilə Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) arasında imzalanmış əməkdaşlıq memorandumuna əsasən, birgə elmi tədqiqatların aparılması istiqamətində ikitərəfli müzakirələr davam etdirilir.**

Bu günə qədər nazirliyin Aqrar Elm və İnnovasiya Mərkəzinin (AEİM) strukturuna daxil olan elmi tədqiqat institutları ilə AMEA-nın institutları arasında çoxsaylı görüş və müzakirələr keçirilib. Tərəflər arasında əldə olunmuş razılığa əsasən, ölkədə həyata keçirilən aqrar siyasətin davamlılığı, qida təhlükəsizliyinin təmin edilməsi istiqamətində elmi-tədqiqat işləri aparılacaq, nəticələr fermer təsərrüfatlarında tətbiq olunacaq.

Növbəti ikitərəfli görüş Aqrar Elm və İnnovasiya Mərkəzi və AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunun heyəti ilə keçirilib. Əkin dövriyyəsindən kənarda qalmış torpaqların bərpası, şoranlaşmaya qarşı mübarizə, deqradasiyaya uğramış ərazilərdə rekultivasiya tədbirlərinin vacibliyini vurğulayan çıxışçılar qeyd olunan istiqamətlərdə birgə tədqiqatların əhəmiyyətini önə çəkiblər. AMEA-nın aqrar məsələlər üzrə müşaviri, akademik Qərib Məmmədov "Coğrafi İnformasiya Sistemləri (CİS) əsasında interaktiv elektron torpaq və torpaqların ekoloji qiymətləndirmə xəritələrinin tərtibi" mövzusunda çıxış edərək alimlər tərəfindən hazırlanmış xəritəni təqdim edib. Xəritədə coğrafi informasiya sistemləri, ölkə ərazilərinin rəqəmsal yüksəklik modeli, aero və kosmik materiallar əsasında elektron torpaq xəritəsinin tərtibinin əsas xüsusiyyətləri, prinsipləri barədə ətraflı məlumatlar əksini tapıb.

Qarşılıqlı müzakirədə alimlər tərəfindən hazırlanmış interaktiv torpaq xəritələri, CİS əsasında torpaq və ekoloji qiymətləndirmə xəritəsi, bu istiqamətdə metodik göstərişlərin hazırlanması təhlil olunub, ilk dəfə olaraq hazırlanmış 1:600 000 miqyasında interaktiv elektron torpaq və ekoloji qiymətləndirmə xəritələrinin illüstrativ materialına baxış keçirilib.

Hazırlanmış elektron xəritələrin daha da təkmilləşdirilməsi, DATA bazaların inteqrasiyası, birgə elmi araşdırmaların aparılması qərara alınıb.

## Qeyri-formal məşğulluğun qarşısının alınmasında müasir texnologiyalardan istifadə ediləcək

Prezident İlham Əliyevin "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatına inteqrasiyası tələb olunan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın təsdiq edilməsi haqqında" 25 fevral 2020-ci il tarixli fərmanı ölkəmizdə qeyri-formal məşğulluğun qarşısının alınması istiqamətində həyata keçirilən kompleks tədbirlərin müasir texnologiyaların geniş tətbiqi şəraitində səmərəliliyinin artırılmasına xidmət edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaydığı məlumatda bildirilir ki, qeyri-formal məşğulluq ölkədə gizli iqtisadiyyatın yayılmasına rəvac verərək rəqabət mühitinə mənfi təsir göstərməklə yanaşı, işçilərin əmək və sosial hüquqlarının pozulmasına, onların sosial sığorta sistemindən və nəticədə gələcək sosial təminatdan kənarda qalmasına, vergidən yayınmaqla dövlət büdcəsinə daxilolmaların azalmasına gətirib çıxarır. Bu səbəbdən qeyri-formal məşğulluğun qarşısının alınması istiqamətində tədbirlərin gücləndirilməsi dövlət üçün əsas prioritetlərdən biridir.

Qeyri-formal məşğulluğun qarşısının alınmasında isə müasir texnologiyanın üstünlüklərindən istifadə olunması bu sahədə səmərəliliyin artırılmasında mühüm rol oynayır. Məlumdur ki, "Məşğulluq haqqında" 2018-ci il 29 iyun tarixli qanunda "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatının yaradılması nəzərdə tutulmuşdu. Dövlət başçısının həmin qanunun tətbiqi barədə 2018-ci il 24 avqust tarixli fərmanında "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatına inteqrasiyası tələb olunan informasiya sistemlərinin və ehtiyatlarının siyahısı barədə təkliflərin hazırlanması tapşırılmışdır. 25 fevral 2020-ci il tarixli fərmanla artıq həmin siyahı təsdiq edilib. Siyahıda aidiyyəti qurumların (20-yə yaxın qurum) informasiya sistemləri və ehtiyatları əhatə olunur.

Məşğulluq sahəsində lazımi məlumatları özündə əks etdirən bu informasiya sistemləri və ehtiyatlarının "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatına inteqrasiyası nəticəsində qeyri-formal məşğulluğun aşkar edilməsi imkanları, ümumən müasir texnologiyadan geniş istifadə şəraitində nəzarət tədbirlərinin səmərəliliyi əhəmiyyətli dərəcədə artacaq. Belə ki, artıq iş yerinə getmədən sahibkar-məmur təması minimuma endirilməklə işəgötürən barədə müxtəlif dövlət qurumlarının elektron informasiya sistemlərindəki məlumatların yoxlanılması ilə elektron audit vasitəsilə risk qruplarının müəyyən edilməsi mümkün olacaq. Bununla qeyri-formal məşğulluğun qarşısının alınmasına dair preventiv tədbirlərin görülməsi təmin olunacaq.

## Ödənişli ictimai işlərə nəzarət gücləndirilir

Haqqı ödənilən ictimai işlər proqramına cəlb olunan şəxslərin işə davamiyyətinin ciddi şəkildə yoxlanılması üçün bu il ölkə üzrə mütəmadi monitorinqlər aparılacaq.

Proqrama qanunsuz cəlb olunma hallarının aşkar edilməsi məqsədilə ictimai işçilərin hazırda xarici ölkədə və ya fərdi sahibkar kimi qeydiyyatda olub-olmamaları müvafiq elektron sistemlər üzərindən yoxlanılacaq.

Bu tədbirlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində təsdiq edilmiş "Haqqı ödənilən ictimai işlərə nəzarətin təmin edilməsi ilə bağlı 2020-ci il üçün tədbirlər planı"na salınıb. Tədbirlər planına əsasən, həmçinin ictimai işçilərin işə davamiyyətinin yoxlanılması və bu sahədə səmərəli monitorinqin qurulması üçün DOST mərkəzlərinin xidməti ərazilərində monitorinqlər həyata keçirməsi nəzərdə tutulub. Bundan əlavə, tədbirlər planı çərçivəsində əməkhaqqı kartlarının ictimai işçilər tərəfindən şəxsən təhvil alınmasına nəzarət təşkil edilməklə həmin kartların hazırda özlərində olub-olmaması seçmə üsulla yoxlanılacaq, eyni zamanda ödənişli ictimai işlərə cəlb olunmuş şəxslər barədə nazirliyin rəsmi saytında yerləşdirilən məlumatlar hər ay yenilənəcək və ictimaiyyətin məlumatlanması üçün yenilənmiş həmin siyahılar barədə KİV-ə məlumatlar veriləcək.

Tədbirlər Planına monitorinqlər zamanı aşkar olunmuş pozuntularla bağlı tədbirlərin görülməsi və həmin pozuntuların aradan qaldırılması üçün monitorinqlərin nəticələrinin aidiyyəti orqanlara təqdim edilməsi, aşkar olunan qanun pozuntuları ilə bağlı məsuliyyət tədbirlərinin görülməsi üçün hüquq mühafizə orqanlarına müraciət olunması da salınıb.

**Bakının şimal girişində xüsusən pik saatlarında yaşanan tıxac və ləngimələrin aradan qaldırılması, həmçinin fövqəladə hallar zamanı avtonəqliyyat vasitələrinin paytaxta rahat və təhlükəsiz giriş-çıxışını təmin etmək üçün hazırlanan və aidiyyəti dövlət qurumları ilə razılaşdırılan layihələr əsasında genişmiqyaslı yenidənqurma işləri aparılır.**




Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin yaydığı məlumata görə, hazırda Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun Bakı Beynəlxalq Avtovağzal kompleksi qarşısından başlayaraq "Masazır dairəsi"nə qədər olan hissəsində və əks istiqamətdə həyata keçirilən yenidənqurma işləri çərçivəsində magistral yolun Bakı Beynəlxalq Avtovağzal kompleksi qarşısından keçən hissəsindəki süni təpəciklərin sökülməsi ilə yol hər iki istiqamət üzrə 1 hərəkət zolağı enində genişləndirilir. Analoji işlər sözügedən ərazidə yerləşən yol ötürücüsündə də aparılır.

Bundan başqa, magistral yolun təqribən 8-ci km-də yerləşən və dəmir yolu üzərində inşa olunmuş yol ötürücüsünün alt hissəsində 2 hərəkət zolaqlı yeni geridönmə hissəsinin yaradılması üçün də hazırlıq işləri görülür. Yeni yol hissəsinin yaradılması ilə uzun məsafə qət edib geridönmə əməliyyatını "Xırdalan dairəsi"ndən etməyə lüzum qalmayacaq.

Hazırlanmış layihələrə əsasən, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 7-ci km-də, Bakı Beynəlxalq Avtovağzal kompleksi ilə metronun "Avtovağzal" stansiyası arasındakı ərazidə süni yaradılmış, magistral yolun hərəkət hissəsinin daralmasına səbəb olan "təpəcik" ləğv edilərək yolun hərəkət hissəsi genişləndiriləcək və bununla zolaqların sayı 4-ə çatdırılacaq.

Paytaxtda şimal istiqamətindən giriş-çıxışın təkmilləşdirilməsi məqsədilə aparılan genişmiqyaslı tədbirlər çərçivəsində "20 Yanvar" metrostansiyasının "Azərsu" ASC-nin inzibati binasının qarşısındakı çıxışını 8-10 metr irəli çəkmək şərti ilə hərəkət hissəsini genişləndirərək əlavə hərəkət zolağının yaradılmasına və daim sağa hərəkətin təmin edilməsinə nail olmaq, bundan başqa, "20 Yanvar" dairəsinin ölçülərinin dəyişdirilərək "oval" formada, həmçinin keçmiş "Velotrek"in qarşısında hərəkət hissəsini genişləndirməklə sağa daimi hərəkətin təşkil edilməsi ilə ərazidə yaşanan sıxlığın aradan qaldırılmasına nail olmaq üçün də işlərə start verilib. Sözügedən layihə çərçivəsində digər tədbirlər də həyata keçiriləcək.

## Azərbaycanda inteqrə olunmuş innovativ pambıq becəriləcək

**Kənd Təsərrüfatı Nazirliyində Türkiyənin Ege Universitetinin və Agrobest Grup A.Ş tərəfindən "Azərbaycanda inteqrə olunmuş innovativ pambıq becərilməsi" layihəsinin təqdimatı olub.**

Təqdimatda Ege Universitetinin professoru Mehmet Demirçi layihənin məqsədi, nəzərdə tutulan fəaliyyət istiqamətləri, xəstəlik və zərərvericilərə qarşı tətbiq ediləcək yeni pestisidlərin, pambıq bitkilərinin su qıtlığına dayanıqlığın artırılması məqsədilə tətbiq ediləcək bioloji preparatların, orqanik pambıq istehsalının xüsusiyyətləri barədə izahat verib.

Layihə rəhbəri təcrübələrin "MKT İK" MMC, "Azərpambıq ASK" MMC, "P-Agro" MMC pambıqçılıq şirkətlərinin müxtəlif rayonlarda yerləşən təsərrüfatlarında 2 il müddətində yerinə yetirilməsinin nəzərdə tutulduğunu bildirib, birinci ildə pambıq bitkilərinin məhsuldarlığının 20, ikinci ildə isə lazımi tədbirləri tətbiq edərək 35 faiz yüksəldilməsinə nail olunacağını əsaslandırıb. Layihənin beynəlxalq və yerli təlimlər vasitəsilə digər bölgələrdə də tətbiq ediləcəyi qeyd edilib.

# "Azərenerji" ASC-də Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri ilə görüş olub

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidmətindən verilən məlumata görə, Gürcüstan Respublikasının İqtisadiyyat və Davamlı İnkişaf naziri Natela Turnavanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə "Azərenerji" ASC-nin prezidenti Baba Rzayevin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş olub.



Gürcüstan Dövlət Enerji Sistemi ASC-nin sədri Uça Uçanaşvilinin də iştirak etdiyi görüşdə Azərbaycanla Gürcüstan enerji sistemləri arasındakı mövcud əməkdaşlıq əlaqələri və bunun perspektivləri barədə ətraflı fikir mübadiləsi aparılıb.

Azərbaycanın ən böyük elektrik enerjisi ixrac etdiyi ölkənin Gürcüstan olduğunu xüsusi vurğulayan Baba Rzayev bildirib ki, ölkəmizin Türkiyə və Avropaya ötürdüyü elektrik enerjisi də məhz Gürcüstandan keçməklə ixrac edilir.

Görüşdə texniki məsələlər, ölkələr arasında tranzit xarakterli yüksəkgərginlikli elektrik ötürmə xətlərinin hazırkı vəziyyəti, tikilməkdə olan Ağstafa-Qardabani xəttində işlərin son mərhələyə keçməsi barədə geniş müzakirələr aparılıb.

# Elmar Qasımov İstanbul Texnik Universitetinin rektoru ilə görüşüb

Bakı Ali Neft Məktəbinin mətbuat xidmətindən verilən məlumata görə, rektor Elmar Qasımov İstanbul Texnik Universitetinin (İTU) rektoru, professor Mehmet Karaca ilə görüşüb.





Görüş Bakı Ali Neft Məktəbinin nümayəndə heyətinin iştirak etdiyi Avrasiya Universitetlər Birliyi (EURAS) tərəfindən Türkiyənin İstanbul şəhərində təşkil edilmiş "Avrasiya Beynəlxalq Ali Təhsil Sammiti" çərçivəsində baş tutub.

Görüş zamanı BANM ilə İTU arasında tədris və elmi-tədqiqatın müxtəlif istiqamətlərində əməkdaşlıq perspektivləri barəsində müzakirələr aparılıb.

Eyni zamanda kompüter mühəndisliyi, birgə akademik proqramların həyata keçirilməsi, professor müəllim heyəti və tələbə mübadiləsi, o cümlədən SOCAR Türkiyə Enerji A.Ş., BANM və İTU arasında birgə innovasiya layihəsinin reallaşdırılması məsələləri ətrafında fikir mübadiləsi olub.

Görüşün davamı olaraq İTU-nun rektoru Mehmet Karacanın rəhbərlik etdiyi nümayəndə heyətinin cari ilin 5-6 mart tarixlərində BANM-ə səfəri və razılaşdırılmış məsələlərlə bağlı müvafiq müqavilələrin imzalanması qərara alınıb.

Görüşdə SOCAR Türkiyə Enerji A.Ş-nin Baş direktoru Zaur Qəhrəmanov da iştirak edib.

Məlumat üçün bildirək ki, İstanbul Texnik Universiteti mühəndislik və memarlıq sahələrində ixtisaslaşmış ali təhsil məktəbidir və dünyanın qabaqcıl texniki universitetlərindən biri hesab olunur.

# Qoşunların müxtəlif dərəcəli döyüş hazırlığına gətirilməsi məqsədilə kompleks məşq keçirilib

"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən qoşunların müxtəlif dərəcəli döyüş hazırlığına gətirilməsi məqsədilə kompleks məşq keçirilib.

Əlahiddə Ümumqoşun Ordunun mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, məşq çərçivəsində qoşunların bir hissəsi praktiki fəaliyyətlərə cəlb edilib.

Stasionar və səhra idarəetmə məntəqələri açılaraq müasir avadanlıq və vasitələrlə idarəetmə təşkil olunub.

Şərti düşmənin qəfil hücumlarının qarşısının alınması və kəşfiyyat-diversiya qruplarının məhv edilməsi üzrə qəbul edilmiş qərarlara uyğun olaraq aidiyyəti bölmələr fəaliyyət göstərib.



# Dövlət sərhədindən buraxılış məntəqələrində məhdudiyyətlərin tətbiq olunması barədə məlumatlar yanlışdır

Son günlərdə bir sıra kütləvi informasiya vasitələrində və sosial mediada Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində şəxslərin və nəqliyyat vasitələrinin dövlət sərhədindən keçidində məhdudiyyətlərin tətbiq olunması barədə yanlış məlumatlar yayılmaqdadır.

Dövlət Sərhəd Xidməti (DSX) bununla əlaqədar olaraq bildirir ki, bu məlumatlar həqiqətə uyğun deyil və reallığı əks etdirmir.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, Azərbaycan Respublikasının həmsərhəd ölkələrlə dövlət sərhədindən buraxılış məntəqələrində vətəndaşların, sərnişin avtobuslarının, fərdi və yük nəqliyyat vasitələrinin dövlət sərhədindən buraxılmasında hər hansı məhdudiyyətlər tətbiq edilməyib, dövlət sərhədindən buraxılış məntəqələri gücləndirilmiş iş rejimində fəaliyyətlərini davam etdirirlər. Hazırda dövlət sərhədindən buraxılış məntəqələrində şəxslərin və nəqliyyat vasitələrinin keçidində sıxlıq halları müşahidə olunmur.

Həmsərhəd ölkələrin sərhəd mühafizə orqanları ilə zəruri məlumat mübadiləsi həyata keçirilir, həmin ölkələr tərəfindən də dövlət sərhədindən buraxılış məntəqələrində tibbi profilaktik tədbirlər gücləndirilib.





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, aidiyyəti dövlət orqanları arasında koronavirus xəstəliyinə qarşı mübarizə tədbirlərinin qarşılıqlı koordinasiyası yüksək səviyyədə təşkil olunub.

Dövlət sərhədindən buraxılış məntəqələrində sanitar-karantin nəzarətinin gücləndirilməsi, koronavirus xəstəliyinə yoluxmalarına şübhələr yaranan şəxslərin aşkarlanması və tibbi təxliyəsi istiqamətində kompleks profilaktik tədbirlər həyata keçirilir. Dövlət sərhədindən buraxılış məntəqələrində tibbi personalın və təcili tibbi yardım avtomobillərinin fasiləsiz fəaliyyəti təşkil olunub. Ölkəyə daxil olan vətəndaşların hər birinin bədən hərarəti mütləq qaydada müasir tibbi texniki vasitələrdən istifadə olunmaqla yoxlanılır, hərarətinin yüksək olmasına şübhələr yaranan şəxslər daha dərinləşdirilmiş tibbi müayinələrə cəlb olunur və zərurət olduqda tibbi təxliyələri təşkil edilir.

Dövlət sərhədindən keçən şəxslərin koronavirus xəstəliyinə qarşı profilaktik tədbirlər haqqında maarifləndirilməsi istiqamətində lazımi tədbirlər həyata keçirilir. Dövlət sərhədindən buraxılış məntəqələrində xidmət aparan şəxsi heyət tibbi təhlükəsizliklərinin təmin edilməsi məqsədilə fərdi müdafiə və digər tibbi mühafizə vasitələri ilə təmin olunublar.

*"Azərbaycan"*




# Haqq nazilər, üzülməz

**Sovetlər birliyində münaqişələr dəfələrlə müxtəlif formalarda özünü göstərsə də, qarşısı alınırdı. Lakin M.Qorbaçov hakimiyyətə gələndən sonra vəziyyət dəyişdi. "Böyük Ermənistan" yaratmaq xülyasında olan Ermənistan Respublikasının rəhbərliyi, millətçi qüvvələr, "Daşnaksütyun" partiyasının fəalları, kəşfiyyat orqanları Azərbaycan-Ermənistan münasibətlərini gərginləşdirməklə separatizmə geniş meydan açdılar.**





1988-ci ilin fevralında Xankəndidə erməni millətçiləri kütləvi mitinqlər keçirib SSRİ və Ermənistan SSR rəhbərliyindən tələb edirdilər ki, Dağlıq Qarabağ Azərbaycan Respublikasının tərkibindən çıxarılıb Ermənistan Respublikasının tərkibinə verilsin. Bakıda, Sumqayıtda və Azərbaycanın ayrı-ayrı bölgələrində ermənilərin antikonstitusion tələblərinə qarşı etiraz dalğası gücləndi.

Onlar qarşılarına qoyduqları məkrli niyyətlərə çatmaq üçün hər cür vəhşilikdən, terrordan, insanlığa sığmayan cinayətlərdən, hətta günahsız ermənilərin qanını tökməkdən belə çəkinməyiblər. İftira və yalanlardan "əzabkeş erməni xalqına" ağı deyib təəssübkeşlərində özlərinə mərhəmət, müsəlmanlara nifrət oyatmaq istəyən erməni faşistləri törətdikləri cinayətləri tarixən türklərin və azərbaycanlıların adına yazmağa cəhd ediblər.

Sumqayıt hadisələri ərəfəsində Ermənistandan və Dağlıq Qarabağdan Sumqayıt və Bakı şəhərlərinə çoxlu sayda milliyyətcə erməni olan şübhəli şəxslər gəlmiş, onların bir qismi mehmanxanalarda yığcam yerləşdirilmişdi. Azərbaycan dilini mükəmməl bilən təxribatçı qrup şəhərin onlarda olan xəritəsi əsasında demək olar ki, bütün küçə və dövlət orqanlarını qeydiyyata almış, xüsusi terror planını hazırlamışdılar. Şəhərdə gizlin fəaliyyət göstərən "Krunk" daşnak təşkilatının üzvləri ilə görüşən bu qrup erməni ailələrinin siyahısını tutmuşdu.

Həmin şəxslər Sumqayıtda ermənilərin gur yaşadığı ərazilərdə çoxsaylı gizli görüşlər keçirmiş, onları gələcək hadisələrlə bağlı təlimatlandırmışlar. 30 nəfərə yaxın olan bu "komanda" şəhərin dörd bir tərəfində yaşayan ermənilərin ünvanlarını hazırladıqdan sonra iğtişaşlar zamanı kiminlə necə hərəkət edəcəklərini əvvəlcədən müəyyənləşdirmişdilər.

Həmin günlərdə şəhəri tərk edən imkanlı erməni ailələri bankdakı pullarını çıxardaraq özləri ilə aparmış, bəziləri şəhərin ticarət mərkəzindən qiymətli zinət əşyalarını almış, bir çoxu bahalı mebellərini dəyər-dəyməzinə, hətta evlərini belə satanlar da olmuşdu.

Fevral ayının 28-də şəhərdə kütləvi iğtişaşlar, zorakılıq aktları başlandığı barədə məlumat daxil olan kimi Sumqayıtın prokuroru, baş ədliyyə müşaviri İsmət Qayıbov cinayət işinin qaldırılması və istintaqa başlanması barədə qərar qəbul etmişdir. İstintaqın ilkin mərhələsində 1050 nəfər şübhəli şəxs qismində tutulmuş, onlardan bir hissəsi inzibati, bir hissəsi isə cinayət məsuliyyətinə cəlb edilmişdir. 97 nəfər barəsində 55 cinayət işi baxılması üçün məhkəmələrə göndərilmişdir. 42 nəfər barəsində əməllərində cinayət tərkibi və ya cinayət hadisəsi olmadığından işin icraatına xitam verilmişdir.

İstintaq materiallarında göstərilir ki, ümumilikdə 444 adam məhkəmə qarşısında cavab vermiş, onlardan 400 nəfəri 10-15 sutka təcridxanalarda saxlanılmışdır. Bir neçəsi uzunmüddətli həbs cəzasına, Əhməd İman oğlu Əhmədov isə ölüm cəzasına məhkum olunmuşdur. Əhməd Əhmədovun məsələsinə Moskvada tələsik baxılmış və onu Sumqayıtda baş verən hadisələrin "təşkilatçısı" kimi qələmə vermişlər. Onu da qeyd edək ki, 1988-ci ilin mart ayının 12-də SSRİ Baş Prokurorluğunun yaratdığı qrup Əhmədovgilin evinə basqın etmiş, onu vanna otağından yarıçılpaq vəziyyətdə sürükləyib həyətdəki maşına mindirmişlər.

1988-ci ilin oktyabr ayının 18-də, SSRİ Ali Məhkəməsi Əhmədovun, Cəfərovun, İsmayılovun məhkəmə prosesinə başladı. Məhkəmə prosesi başlayan gün "Ostankino" telekanalının "Xəbərlər" proqramından bütün dünyaya xəbər yayıldı ki, Sumqayıt hadisələrində "başkəsən" üç nəfərin məhkəmə işinə başlanılır. Ertəsi gün Moskvada nəşr olunan kütləvi informasiya vasitələri bu barədə ictimaiyyətə məlumat çatdırdılar. Moskvada, SSRİ Ali Məhkəməsinin binasında Sumqayıtda kütləvi iğtişaşların baş verməsində müqəssir bilinən şəxslərin mühakiməsi başlandı. Müttəhimlər kürsüsündə əyləşən Ə.Əhmədov, T.İsmayılov, Q.Cəfərov talanlar, yanğınlar, qətllərlə nəticələnən kütləvi iğtişaşların təşkilində və yaxından iştirakında təqsirləndirilirdilər.

O dövrdə SSRİ Ali Məhkəməsinin sədri V.Terebilovun "Novoye vremya" jurnalında müsahibəsi çap olundu. Terebilov məhkəmə proseslərinə yuxarı orqanlardan, xüsusilə Kommunist Partiyası Mərkəzi Komitəsi aparatından təzyiqlər olduğundan şikayətlənirdi. O, tələb edirdi ki, məhkəmə müstəqil olmalıdır. Terebilov qeyd edirdi ki, hazırda SSRİ Ali Məhkəməsi Əhmədovun, Cəfərovun, İsmayılovun məhkəmə prosesinə baxır.

Beləliklə, yuxarıların təzyiqi nəticəsində məhkəmə heyəti obyektivliyini, humanizmini bir tərəfə qoyub, Əhmədovun timsalında, nəyin bahasına olursa-olsun, "təşkilatçı" obrazı yaratmaq niyyətinə düşdü. "Moskovskiye novosti" qəzeti 1988-ci il noyabr ayının 20-də yazırdı: "Vəkillər belə hesab edirlər ki, işin istintaqı tam aparılmayıb. Cinayətlərin təşkilatçıları üzə çıxarılmayıb, baş verməsinin səbəbləri və şəraiti aşkar edilməyib". Buna baxmayaraq, 1988-ci il noyabr ayının 18-də SSRİ Ali Məhkəməsinin kollegiyası belə bir qərar çıxarır: "Cəfərovun və İsmayılovun cinayət materialları yenidən yoxlanılmaq üçün istintaqa qaytarılsın. Ə.Əhmədov ən ağır cəzaya layiq görülsün..."

Hadisələrin əsl təşkilatçısı isə 1959-cu il təvəllüdlü, əvvəllər 3 dəfə məhkum olunmuş, üst-üstə 9 il 2 ay 13 gün azadlıqdan məhrumetmə cəzası çəkmiş qatı cinayətkar, milliyyətcə erməni olan "Paşa" ləqəbli Eduard Qriqoryan idi. O, Albert və Ernis adlı daha iki qardaşı ilə birlikdə camaata soyuq silah kimi istifadə olunan armatur parçaları paylamışdır.

Eduard Qriqoryan ətrafına topladığı özü kimi cinayətə meyilli qonşuları ilə ümumi dil taparaq, onlara spirtli içki və insanda aqressivlik yaradan xüsusi həblər verib, quldurluq və soyğunçuluq etmək üçün yaxşı şansın yarandığını deyib və onları öz arxasınca Qarabağa erməni iddialarına qarşı çıxanların dinc mitinqinin keçirildiyi meydana aparıb. Orada özünü Qafandan gəlmiş azərbaycanlı kimi təqdim edərək, ermənilərin guya Qafanda dinc azərbaycanlı əhalini qırdıqlarını, özlərinin isə bir maşın meyit gətirdiklərini mitinq iştirakçılarına danışaraq, ermənilərdən intiqam almağa çağırıb. Onda burada yaşayan ermənilərin siyahısının və ünvanlarının olduğunu deyən Eduard ona qoşulmuş 100 nəfərə yaxın yeniyetmə və müxtəlif cinayətkar ünsürləri "Qarabağ bizimdir!", "Erməniləri qırın!" kimi şüar və çağırışlarla "Qarabağ" (komitəsi) və "Krunk" (cəmiyyəti) təşkilatlarına pul verməkdən imtina etmiş ermənilərin yaşadıqları mənzillərə istiqamətləndirib. O, talan və digər cinayətlərdə fəal iştirak etmiş və şəxsən 6 nəfər ermənini qətlə yetirmişdir.

Qriqoryan hadisələr zamanı Marina və Karina Mejlumyanlar adlı erməni qızlarını da zorlayıb. Bütün bunlar məhkəmə istintaqı zamanı sübut olunsa da, SSRİ Prokurorluğu əsl həqiqəti ört-basdır edib. Kütləvi iğtişaşlarda iştirak, zorlama, qətl, qarət, milli ədavətin qızışdırılması ittihamları ilə mühakimə olunan E.Qriyqoryana cəmi 12 il cəza verilib.

Bundan sonra 6 nəfərin qətlində iştirak etmiş Eduard Qriqoryanın məsuliyyətdən azad edilməsi üçün erməni millətçi təşkilatçıları və xüsusi-xidmət orqanları çox çalışıblar və buna da nail olublar. Təsadüfi deyil ki, bu qədər cinayət törətməsinə baxmayaraq, Qriqoryan Ermənistana göndərilib, sonra da azadlığa buraxılıb. Həmin dövrdə "Novoye vremya" jurnalı, "Moskovskiye novosti" qəzeti və digər mətbu orqanlar Sumqayıt hadisələri ilə bağlı öz səslərini qaldırsalar da heç bir nəticə olmayıb. Yazılarda istintaqın düzgün aparılmadığı, cinayətin kim tərəfindən törədilməsinin aşkar edilmədiyi açıq şəkildə qeyd olunub.

Ciddi araşdırmalar göstərir ki, bu hadisələrin əsl səbəbləri nə Sumqayıtla, nə də ki sumqayıtlılarla bağlı olmamışdır. Çünki vahid bir ailədə sülh və əmin-amanlıq şəraitində yaşayan azərbaycanlılar, ermənilər və həmçinin digər millətlərdən olan sumqayıtlılar arasında hər hansı bir ictimai-siyasi, milli-etnik və ya dini mənsubiyyətlər zəminində heç bir ədavət olmamışdır. Sumqayıtda baş verən hadisələrin kökləri daha dərin, miqyası isə daha böyük olub və bu hadisələr iki millət arasında "xuliqanlıq" hərəkətlərindən daha çox, qeyd etdiyimiz kimi, siyasi xarakter daşıyıb.

Sumqayıt hadisələrinə Dağlıq Qarabağ rakursundan baxmaq gərəkdir.

Hadisələrlə bağlı saxlanılanlar arasında müxtəlif millətlərdən olan adamlar - azərbaycanlılar, ermənilər, ruslar, yəhudilər və başqaları var idi. Sumqayıtda "xuliqanlıq" edənlərin arasından ermənilər tərəfindən satın alınmış ekstremist qruplar, cinayətkarlar, terrorçular, təxribatçılar, narkomanlar və spirtli içki düşkünləri çox idi. 30 nəfər isə ümumiyyətlə heç bir ictimai-faydalı əməklə məşğul olmamışdı (O dövrdə hamı işlə təmin olunurdu və işdən yayınma hallarına, bir qayda olaraq, yol verilmirdi).

Araşdırmalar zamanı aydın olub ki, E.Qriqoryan Sumqayıt hadisələrində ona rəhbərlik edən bir qrup erməni millətçilərinin və Dövlət Təhlükəsizlik Komitəsinin sifarişlərini yerinə yetirdikdən sonra Sumqayıt şəhərini tərk etmək əmrini almışdı. Lakin təsadüf nəticəsində hərbçilər tərəfindən saxlanılmış və onu zərərçəkənlər tanımışlar.

Belə nəticəyə gəlmək olur ki, əgər Eduard Qriqoryan hərbçilər tərəfindən həbsə alınmasaydı, təqsiri Sumqayıt sakinlərinin üzərinə atacaqdılar. Lakin bu erməni millətçilərinə nəsib olmadı.

Sumqayıt hadisələri də başvermə xüsusiyyətinə görə böyük bir terrorun başlanğıcı oldu. Məhz bu saxta "genosid"dən sonra minlərlə azərbaycanlı qətlə yetirildi. Azərbaycanın 20 faizi işğal edildi.

Yalnız 1993-cü ildə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev mənfur erməni məkrinin, neçə-neçə terror aktının qarşısını aldı.

Bu gün ermənilər əməllərinə görə ifşa olunur. Azərbaycan Prezidenti İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransında Ermənistanın baş nazirinə verdiyi tutarlı cavabı da buna sübutdur.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Detallı layihələndirmə və tikinti işləri üçün TENDER ELANI

Tarix: 27 fevral 2020-ci il

1. **Azərbaycan Respublikasının Mərkəzi Bankı** Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 109 ünvanda yerləşən **"Azərbaycan Respublikasının Mərkəzi Bankının yeni inzibati binası"**nın detallı layihələndirmə işləri (o cümlədən tikinti icazəsinin planlaşdırılması) və tikintisi (bundan sonra "Layihə" adlandırılacaq) üçün potensial şirkətləri təklif verməyə dəvət edir.

**Təklif haqqında qısa məlumat:**

- **Təklifin adı:** Azərbaycan Respublikası Mərkəzi Bankının yeni inzibati binası
- **Müqavilə müddəti:** qüvvəyə minmə (müqavilə) tarixindən etibarən təqribən 36 ay
- **Tikinti xidmətlərinin xülasəsi**
  - ● Növ: yeni tikinti
  - ● Layihə haqqında qısa məlumat:
- Tikinti sahəsi: 33 200 m²
- Ümumi mərtəbə sahəsi: 67 926 m²
- Binanın hündürlüyü: təqribən 160 m
- Xəzinə mərkəzi, texniki qurğular və avtodayanacaqdan ibarət zirzəmi mərtəbələri. Konfrans və təlim obyektləri, kitabxana, restoran, o cümlədən bayır landşaft ilə birlikdə, ofis sahələrindən ibarət bina.
- Tikinti müddəti: layihələndirmə fazası daxil olmaqla, qüvvəyə minmə (müqavilə) tarixindən etibarən təqribən 36 ay
- Tikintinin yeri: Bakı şəhəri, Heydər Əliyev prospekti, 109 saylı ünvan.
- **Sifarişçi:** Azərbaycan Respublikasının Mərkəzi Bankı.
- **Təklifin növü:** Təkliflər Sorğusu üsulu ilə satınalma müsabiqəsi.

Təkliflər sorğusu prosedurunda iştirak etmək istəyən ərizəçilər müsabiqəyə buraxılış uyğunluğunu nümayiş etdirən aşağıdakı sənədləri **06 mart 2020-ci il saat 17:00-dək** elektron poçt vasitəsilə təqdim etməlidirlər:

1. Təkliflər Sorğusunda iştirak etmək üçün ərizə (ərizə forması bu tender elanına 1 saylı Əlavə şəklində daxil edilir).
2. Məxfilik öhdəliyi (bu tender elanına 2 saylı Əlavə kimi daxil edilir).
3. Məxfilik öhdəliyini və iştirak haqqında ərizəni imzalayan şəxsin səlahiyyətini təsdiq edən, lazımi qaydada imzalanmış və möhürlənmiş, beynəlxalq iddiaçılar üçün, həmçinin notariusda təsdiqlənmiş, apostil olunmuş və ya leqallaşdırılmış etibarnamə.
4. İddiaçının son il ərzində maliyyə vəziyyətini təsdiqləyən bank arayışı.

Tender sənədləri yalnız birgə müəssisə olmadan əsas podratçı kimi "açar təslimi" əsasında hündürlüyü 150 metrdən az olmayan qüllənin tikintisini tamamlamış ərizəçilərə/iddiaçılara təqdim olunacaqdır. Konsorsium və ya birgə müəssisənin bu Təkliflər Sorğusunda iştirakına yol verilmir.

***Qeyd:*** *əgər yuxarıda qeyd olunan sənədlər və həmin sənədlərdə əksini tapan məlumat ərizəçinin iştirak hüququnu müəyyən etmək üçün düzgün, uyğun və yetərli hesab olunarsa, həmin ərizəçilər Təkliflər Sorğusunun iştirakçıları hesab ediləcək və təkliflərini təqdim etmələri haqqında müraciətlə birlikdə Təkliflər Sorğusu sənədləri onlara təqdim olunacaq.*

*Yuxarıda qeyd olunan sənədlər ərizəçilərin/iddiaçıların ixtisasını müəyyən edən sənədlərdən və ya məlumatdan ibarət sənədlər hesab olunmamalı və yalnız ərizəçilərin/iddiaçıların Təkliflər sorğusunda iştirak etmək üçün uyğunluğunu müəyyən etmək üçün iştirak haqqında sənədlər olaraq qəbul olunmalıdır. Ərizəçilərin/iddiaçıların ixtisasına dair məlumat aşağıda verilir.*

**İddiaçıların ixtisasına dair tələblər:**

Təkliflər Sorğusu sənədlərinin potensial iddiaçılara göndərilməsindən sonra onlardan xahiş ediləcəkdir ki, **03 aprel 2020-ci il, saat 12:00-dan** gec olmayaraq, ixtisas tələbləri üzrə sənədləri bağlı zərfdə olmaqla 1 çap variantında və 1 elektron variantda Mərkəzi Banka təqdim etsinlər.

- Şirkətin korporativ və qeydiyyat sənədləri (beynəlxalq iddiaçılardan sənədlərin ingilis dilinə tərcümə olunmuş və notarial qaydada təsdiqlənmiş nüsxələrini təqdim etmək tələb edilir).
- Müvafiq tikinti lisenziyası (beynəlxalq iddiaçılar lisenziyanın təsis olunduqları və fəaliyyət göstərdikləri ölkənin müvafiq orqanlarından alınmış, notarial qaydada təsdiqlənmiş, apostil olunmuş və ya leqallaşdırılmış surətini təqdim etməlidirlər. Beynəlxalq iddiaçılar müqavilənin bağlanacağı təqdirdə, müqavilə şərtlərində göstərilən başlanğıc tarixinə qədər müvafiq yerli lisenziya almalıdırlar).
- İxtisas uyğunluğunun müəyyənləşdirilməsi və təkliflərin verilməsi ilə əlaqədar bütün sənədləri imzalamaq səlahiyyətinə malik şəxsin səlahiyyətlərini təsdiq edən, lazımi qaydada imzalanmış və möhürlənmiş və beynəlxalq iddiaçılar üçün, həmçinin notarial qaydada təsdiqlənmiş, apostil olunmuş və ya leqallaşdırılmış etibarnamə və/və ya korporativ sənəd.
- Azərbaycan Respublikasında təsis edilmiş və/ya fəaliyyət göstərən iddiaçılarının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməmiş/vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında bəyanat.
- İddiaçının ödəniş qabiliyyətsizliyinin olmaması, əmlakı üzərində həbs, girov və digər öhdəliklərin olmaması, məhkəmə qərarı ilə kommersiya fəaliyyətinin dayandırılmaması barədə bəyanat.
- Son 5 il ərzində özlərinin, işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması haqqında bəyanat.
- Son 5 il ərzində özlərinin, işlərini idarə edənlərin, qulluqçularının müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi haqqında bəyanat.

**Uğurlu iddiaçıların seçilməsi:**

- Seçim Tender komissiyası tərəfindən bal sistemi üzrə qiymətləndirmə yolu ilə aparılır.
- Təkliflərin qiymətləndirilməsi bal sistemi üzrə aparılacaq və aşağıdakı meyarlara əsaslanır:

Maksimum bal - 100

➔ Texniki amillər - altmış (60) bal.

➔ Qiymət, maliyyə amilləri - qırx (40) bal.

- Təkliflərin qiymətləndirilməsi əsasında AMB qısa siyahıya salınmış iddiaçıları danışıqlara dəvət edə bilər. Danışıqlar kommersiya, texniki və hüquqi şərtlər daxil olmaqla, təklifin bütün həcmini əhatə edə bilər. Qısa siyahı üçün seçilmiş iddiaçılardan danışıqların nəticəsinə uyğun olaraq öz təkliflərini yeniləmək xahiş ediləcəkdir.
- Azərbaycan Respublikasına qarşı düşmən mövqe tutan və ya onun düşməni olan ölkədə təsis olunmuş və ya idarəetmə mərkəzinə malik olan və ya fəaliyyət göstərən və ya əmlaka sahib olan və ya belə ölkə ilə biznes münasibətlərinə malik olan, ya da belə ölkəyə mənsub olan və ya hər hansı bir yolla həmin ölkə ilə bağlı işçiləri olan iddiaçının tender təklifi verməsinə icazə verilməyəcək və belə təklif qəbul edilməyəcək.
- Uğurlu iddiaçının seçilməsi Azərbaycan Respublikasının "Dövlət satınalmaları haqqında" Qanunu əsasında aparılacaq.

**Təkliflər Sorğusu əsas şərtlər toplusunu (ƏŞT):**

AMB tərəfindən Təkliflər Sorğusunda iştirak hüququ qazanaraq dəvət almiş iştirakçılar ƏŞT-ni ən gec **17 mart 2020-ci** il tarixinə qədər elektron formatda FTP server yolu vasitəsilə ala biləcəklər:

**Təlimatlar və vaxt qrafiki:**

- Tender elanı: **27 fevral 2020-ci il,** vebsayt və qəzet vasitəsilə.
- Təkliflər Sorğusu prosedurunda iştirak müraciəti: ən gec **06 mart 2020-ci il saat 17:00-dək.**
- Mərkəzi Bank tərəfindən Təkliflər Sorğusu prosedurunda iştirak üçün dəvət: **11 mart 2020-ci il,** elektron poçt vasitəsilə.
- Təkliflər Sorğusu prosedurunda iştirak dəvətini almış iddiaçının TSS-ni alması üçün son tarix: ən gec **17 mart 2020-ci il.**
- İddiaçının ixtisas uyğunluğu haqqında sənədlərinin təqdim edilməsi: **03 aprel 2020-ci il, saat 12:00**, Azərbaycan Respublikasının Mərkəzi Bankının ofisi.
- İxtisas uyğunsuzluğu bildirişləri: elektron poçtla **10 aprel 2020-ci il.**
- Təkliflərin verilməsinin bağlanması (təkliflərin təqdim edilməsi üçün son tarix): **04 may 2020-ci il saat 12:00**, Azərbaycan Respublikasının Mərkəzi Bankının ofisi.
- Müqavilənin bağlanması: **01 iyun 2020-ci il.**
- Maliyyə Təklifinin (Təklifin qiymətinin) valyutası: **AVRO** (beynəlxalq iddiaçılar üçün) və **AZN** (yerli iddiaçılar üçün).
- Müqavilənin valyutası: **AVRO** (beynəlxalq şirkətlər üçün) **/AZN** (yerli şirkətlər üçün) (yerli və ya beynəlxalq şirkət olmasından asılı olaraq müqavilə şərtlərinin müzakirəsi zamanı müəyyən ediləcək).

Qiymətləndirmə məqsədilə, AVRO ilə olan məbləğlər Azərbaycan Respublikasının Mərkəzi Bankının Təkliflərin verilməsinin bağlanış tarixinə olan məzənnəsi əsasında AZN ilə olan məbləğlərə çevriləcək.

2. İddiaçıların qiymət təklifinə bütün vergilər daxil olmalıdır.
3. ƏŞ toplusuna aşağıdakı sənədlər daxildir, lakin bunlarla məhdudlaşmır:
   - iddiaçılar üçün təlimatlar
   - müqavilə şərtləri
   - təklif formaları
   - texniki sənədlər

*Qeyd: Yuxarıdakı sənədlərdən ibarət ƏŞT yalnız seçilmiş iddiaçılara təqdim olunacaq.

4. Təklifin dili: İxtisas tələbləri sənədləri **Azərbaycan və ya ingilis dilində** təqdim oluna bilər. Bütün digər sənədlər, həm Təkliflər Sorğusu, həm bağlanacaq müqavilə **Azərbaycan və ingilis dillərində** olmalıdır. Təklif verən şirkətin hazırladığı təklif, eləcə də, Təkliflər Sorğusu ilə bağlı bütün sənədlər Azərbaycan dilinə edilmiş tərcüməsi ilə birlikdə ingilis dilində təqdim edilməlidir. Sənədlər arasında ziddiyyət olduqda beynəlxalq şirkətlər üçün ingilis dilinə, yerli şirkətlər üçün Azərbaycan dilinə üstünlük veriləcək. Rəsmi sənədlər notarial qaydada təsdiqlənmiş və apostil edilmiş formada olmaqla, Azərbaycan dilində təqdim edilməlidir.
5. Azərbaycan Respublikasının Mərkəzi Bankı iddiaçıların və podratçıların satınalma dövründə və müqavilələrin bağlanması müddətində ən yüksək etik standartlara riayət etmələrini tələb edir.
6. Təkliflər **Təkliflərin təqdim edilməsi üçün son tarixdən sonra 90 bank günü** müddətində qüvvədə olmalıdır **(Təklifin qüvvədə olma müddəti)**. Qeyd olunan tarixdən sonra verilmiş təklif qəbul edilməyəcək və açılmadan geri qaytarılacaq. Bütün təkliflər təklif qiymətinin **1 faizi həcmində Təklif Təminatı (Qarantiyası) ilə müşayiət edilməlidir və belə qarantiyanın başa çatma tarixi Təkliflərin qüvvədə olma müddətindən sonra otuz (30) gündən** əvvəl olmamalıdır.
7. Azərbaycan Respublikasının Mərkəzi Bankı (Sifarişçi) təkliflərin hazırlanması və ya təqdim edilməsi ilə əlaqədar iddiaçıların məruz qaldıqları hər hansı xərc və ya məsrəflər üçün məsuliyyət daşımır.
8. Təkliflər Sorğusu sənədlərini almış bütün iddiaçılar tenderin sonunda bütün sənədləri geri qaytarmalı və ya əgər elektron formada alınmışsa, məhv etməlidirlər.
9. İddiaçılar Təkliflər Sorğusu sənədlərinə daxil olan bütün təlimatları, formaları, şərtləri və spesifikasiyalarını yoxlamalıdırlar. ƏŞT ilə tələb olunan bütün məlumatın təqdim oluna bilməməsi və ya ƏŞT-nin tələblərinə əhəmiyyətli dərəcədə cavab verməyən təklifin təqdim edilməsi ilə bağlı risk hər bir halda iddiaçının üzərinə düşür və təklifin rədd edilməsi ilə nəticələnə bilər.
10. Azərbaycan Respublikasının Mərkəzi Bankı tender təkliflərini bal üsulu əsasında yekun danışıqların nəticələri nəzərə alınmaqla qiymətləndirəcək və müqayisə edəcək. AMB ən aşağı qiyməti olan tender təklifini təqdim etmiş iddiaçı ilə müqavilə bağlamaq və hər hansı təklif üzrə müqavilə bağlamaq öhdəliyinə malik deyil. Müqavilə bal cədvəli və yekun danışıqlar əsasında, həm qiymət, həm də texniki tələblərə uyğunluq baxımından ən cəlbedici və optimal təklif vermis iddiaçı ilə bağlanacaqdır.
11. Təkliflər tender sənədlərində müəyyən olunan ölçülə bilən meyarlar və yuxarıda qeyd olunan "Uğurlu iddiaçının seçilməsi" meyarları əsasında qiymətləndiriləcək. Bu meyarlar ümumilikdə iddiaçıların ixtisasından, tikintinin başa çatması üçün təklif olunan vaxt müddətindən, iddiaçıların öz təkliflərində təsvir etməli olduqları işlərin funksional xüsusiyyətlərindən, o cümlədən, lakin bunlarla məhdudlaşmadan, sifarişçinin tələblərinin təmin edilməsi səviyyəsindən, metod bəyanatından, tikinti işlərinin təşkilindən, işlər üçün zəmanət şərtlərindən və yekun görüş zamanı müzakirə olunan digər şərtlərdən ibarətdir.
12. Avro ilə verilən qiymətlər qiymətləndirmə məqsədilə Azərbaycan Respublikası Mərkəzi Bankının tenderin bağlanış tarixinə müəyyən edilmiş rəsmi məzənnəsi ilə Azərbaycan manatına çevriləcək.
13. AMB qalib gəlmiş iddiaçıdan onun ixtisas tələblərinə uyğunluğunu təsdiqləyən əlavə sübut təqdim etməsini tələb etmək hüququna malikdir, iddiaçı belə sübutu təqdim edə bilməsə, onun təklifi təklif qarantiyasına məcburi tutma yönəldilməklə rədd ediləcəkdir.
14. Əlaqə məlumatı:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**

**Ünvan:** Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1014, R.Behbudov küçəsi, 90

**Telefon:** +994 12 4931122

**E-mail:** construction_tender@cbar.az

**Faks:** +994 12 493 55 41

**Kimə:** cənab Surxay Həsənov

15. Tender elanına əlavələr

Əlavə 1: Təkliflər Sorğusunda iştirak ərizəsi

*Bu Əlavəyə iddiaçı haqqında ümumi məlumat və arayışlar daxildir. İddiaçı hər hansı bir məlumat əskikliyinə yol vermədən, formanı imzalanmış və möhürlənmiş şəkildə təqdim etməlidir.*

Əlavə 2: Məxfilik öhdəliyi

*İddiaçı hər hansı bir məlumat əskikliyinə yol vermədən, formanı imzalanmış və möhürlənmiş şəkildə təqdim etməlidir.*

# TENDER ANNOUNCEMENT
## For the Detailed Design & Construction Works

Date: 27th February 2020

1. The Central Bank of the Republic of Azerbaijan invites prospective bidders for the Detailed Design (including construction permit planning) and Construction Works Tender of "The New Headquarters of Central Bank of the Republic of Azerbaijan"(hereinafter referred to as "The Project") located at Nizami district, Heydar Aliyev avenue 109, Baku.

Brief of Bidding

- Bid Title: The New Headquarters of Central Bank of the Republic of Azerbaijan
- Contract Duration: approx. 36 months from the effective (contract) date
- **Summary of Construction Services:**
  - ● Type: New construction
  - ● Project Summary:
- Site Area: 33,200 m²
- Total GFA: 67,926 m²
- Height of the Building: Approx.160 m
- Below ground comprising of cash center, technical plant and parking. The building providing office space along with conference and training facilities, a library and a restaurant including external landscape
- Construction Duration: Approx. 36 months from the effective (contract) date including the Design Phase
- Location: Nizami district, Heydar Aliyev avenue 109, Baku
- **Employer:** The Central Bank of the Republic of Azerbaijan
- **Bid Type:** Competitive Bidding through RFP procedure

The following documents demonstrating eligibility of the Bidders to participate in RFP procedure shall be submitted via e-mail until **March 6, 2020, 17:00;**

1. Application for Particaption in the RFP Procedure (Form of Application comprises Attachment 1 of this Tender Announcement)
2. Confidentiality Undertaking (Attachment 2 to this Tender Announcement)
3. Power of Attorney duly ink signed and stamped and for foreign bidders also notarized and apostilled or legalized, confirming powers of the person signing the Confidentiality Undertaking and Application for Participation
4. Reference from applicant's bank attesting the applicant's financial position during the last year,

The RFP Documents shall only be issued to the .applicants/bidders who has completed turnkey tower construction over 150 meters as the main contractor without joint venture. Consortium or Joint Venture is not allowed for the participation in this RFP Procedure.

Note: If the above documents and information contained therein is found to be correct, suitable and sufficient for the purposes of the establishment of the applicants' eligibility to participate, they will be considered to be the RFP Participants and RFP Documentation with the request to present their bid will be issued to them.

The documents specified above shall not be deemed to comprise the documents or presenting information for the purposes of qualification of the applicants/bidders and represent the Application documents only for the establishment of their eligibility to participate in the RFP procedure. Information regarding the qualification of the applicants/bidders follows below.

**- Qualification of Bidders**

After the RFP Documentation is issued to the prospective Bidders, they shall be requested to submit to the CBA the following "Qualification of Bidder Documents" not later than April 3, 2020 12:00 with 1 hard copy and 1 soft copy in closed envelope:

- The Company corporate and registration documents (Notarized English Translation is required from International Bidders)
- A relevant construction license (International Bidders should present duly notarized and apostilled or legalized license from the authorities in the country of incorporation and operation. An international bidder shall be obliged to obtain the relevant local license in case the contract is awarded to it until the Commencement Date as described in the Conditions of Contract),
- Power of Attorney and/or a corporate document verifying the authorized person to sign all qualification and Bidding related documents duly ink signed and stamped and for foreign bidders also notarized and apostilled or legalized,
- Certificate (reference) from the relevant tax authority on the absence of any past due commitments of the participant on taxes and other compulsory payments in the Republic of Azerbaijan, as well as failure to comply with the Tax Code of the Republic of Azerbaijan for the last one year (excluding the suspension period) (For the Bidders established and/or operating in the Republic of Azerbaijan),
- Bidder's statement about non-insolvency, non-custody of property, non-pledge of property and other obligations, non-suspension of commercial activity by the court decision,
- Statement on the absence of criminal record during the last 5 (five) years in respect of themselves, their executives and employees in connection with their professional activities or misrepresentation of their professional qualifications for the purposes of achieving an award of a contract,
- Statement showing that neither they nor their executives and employees have been barred during the last 5 (five) years by a court decision from engaging in their professional activities ;

Only proposals from the bidders/RFP participants found to be in compliance with the above qualification criteria, which will in more depth described in the RFP Document shall be considered to be a qualified bidder and only proposals from such bidders shall be taken for evaluation by the CBA. Therefore, bidders are requested to carefully assess whether they meet the qualification criteria and those which do not qualify on any one criterion are requested not to submit any proposal.

**Note:** *CBA will inform non-qualifying bidders by "10"April 2020 on their failure to qualify to the requisite qualification criteria with the indication of reasons, which will mean that their bid, if submitted will not be taken for evaluation.*

**- Selection of the Successful Bidders:**

- Tender Evaluation will be done through Scoring Evaluation by Tender Commission.
- Scoring Evaluation is based on:

➔Technical - Sixty (60) Points,

➔Price - Forty (40) Points,

**Total of One hundred (100) points.**

